RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 8 (10028) 15 yanvar 2026-cı il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




## Strateji hədəfləri reallığa çevirən faktorlar:

### milli maraqların aliliyi, güclü siyasi iradə və sarsılmaz xalq-iqtidar birliyi

- Yola saldığımız 2025-ci il beynəlxalq münasibətlər sistemində baş verən tənəzzülün daha da dərinləşməsi, hərbi-siyasi konfrontasiyaların kəskinləşməsi, humanitar böhranlar, milli-etnik və dini qarşıdurmalar, iqlim dəyişikliklərinin meydana gətirdiyi fəsadlarla yadda qaldı. Təbii ki, belə bir mürəkkəb şəraitdə, yeni geosiyasi reallıqların və çağırışların meydana çıxdığı bir dönəmdə milli maraqların qorunması müstəqil siyasət həyata keçirən hər bir ölkə üçün taleyüklü məsələyə çevrilmiş, onların liderlərinin üzərinə böyük tarixi məsuliyyət qoymuşdur.

İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə 44 günlük Vətən müharibəsində parlaq Zəfərə imza ataraq öz ərazi bütövlüyünü, 2023-cü ildə birgünlük antiterror əməliyyatı nəticəsində isə mütləq suverenliyini bərpa edən Azərbaycan siyasi, sosial-iqtisadi, hərbi-strateji və digər sahələrdə əldə etdiyi müvəffəqiyyətlərlə keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Müstəqil Azərbaycanın ilk milli Konstitusiyasının qəbul edilməsinin 30-cu və Vətən müharibəsində əldə olunmuş qələbənin 5-ci ildönümünü qeyd etdiyimiz 2025-ci ilin nəticələri də bu gerçəkliyi birmənalı şəkildə təsdiqləyir. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciətində qeyd etdiyi kimi, 2025-ci il ölkəmiz üçün uğurlu olmuş, Azərbaycan xalqı sülh, təhlükəsizlik, əmin-amanlıq şəraitində yaşamışdır.

Ulu Öndər Heydər Əliyevin milli maraqlara əsaslanan, demokratik dəyərləri, qarşılıqlı hörmət və etimad prinsipini özündə ehtiva edən siyasətini ardıcıl islahatlarla zənginləşdirərək ölkəmizin davamlı inkişafını təmin edən Prezident İlham Əliyev Azərbaycanın qüdrətini və nüfuzunu daha da artırmış, onun regiondakı lider mövqeyini möhkəmləndirmiş, dünyada dialoq və əməkdaşlıq məkanı, etibarlı və konstruktiv tərəfdaş imicini gücləndirmişdir.

Vahid milli ideya - azərbaycançılıq ideologiyası əsasında ictimai-siyasi sabitliyin qorunması, ardıcıl sosial-iqtisadi və siyasi-hüquqi islahatların həyata keçirilməsi və digər mühüm faktorlar ölkəmizdə milli birliyin güclənməsini şərtləndirmişdir. Təsadüfi deyil ki, bu gün xalqımız həmrəylik nümayiş etdirərək prinsipial mövqe ortaya qoymaqla dövlət başçısının siyasətinə mütləq dəstək göstərir. Azərbaycan Prezidentinin qeyd etdiyi kimi: "Xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas amilidir".

Qlobal təhlükəsizliyə ciddi təhdidlər yaradan hallara qarşı qətiyyətli mübarizə apararaq beynəlxalq hüququn aliliyini təşviq edən Azərbaycanın məqsədyönlü xarici siyasət kursu regionda ədalətli geosiyasi nizamın - yeni təhlükəsizlik və əməkdaşlıq mühitinin formalaşması, bütövlükdə isə sülh naminə etimad quruculuğunun həyata keçirilməsi baxımından çox böyük önəmə malikdir. Bu xüsusda 2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistan Baş naziri Nikol Paşinyan və ABŞ Prezidenti Donald Tramp tərəfindən imzalanan Birgə Bəyannamə ölkəmizin növbəti diplomatik nailiyyətini əks etdirməklə bərabər, sülh prosesinin irəliyə aparılması baxımından böyük dəyərə malik olmaqla postmüharibə dövründə regionda yeni tarixi dönəmin başlanmasını şərtləndirmişdir.

3

## "Azərbaycan Mədəniyyəti-2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq, Azərbaycan Respublikasında milli-mənəvi dəyərlərin qorunmasını təmin edən müasir mədəniyyət modelinin yaradılması, mədəniyyət sahəsində sistemli və dayanıqlı inkişafın təmin olunması məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Mədəniyyəti-2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası" (bundan sonra - Konsepsiya) təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi:

2.1. Konsepsiyada nəzərdə tutulan tədbirlərin əlaqələndirilməsini həyata keçirsin;

2.2. Konsepsiyada nəzərdə tutulan tədbirlərin icra vəziyyəti barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Konsepsiyada nəzərdə tutulan tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 yanvar 2026-cı il*

## Dirçələn torpaq, qayıdan həyat

### İlham ƏLİYEV: "Bu gün artıq 73 min insan - həm keçmiş köçkün, həm də ki, köçkün olmayanlar azad edilmiş ərazilərdə yerləşiblər"



Azad edilmiş ərazilərdə kənd və şəhərlərin yenidən qurulması prosesi sürətlə həyata keçirilir. Zəngilanın Ağalı kəndi, Laçın şəhəri, Füzuli, Cəbrayıl və digər ərazilərdə müasir yaşayış kompleksləri inşa edilib və indi sakinlər mərhələli şəkildə doğma yurdlarına qayıdırlar. Tarixi və mədəni abidələrin bərpası da diqqət mərkəzində saxlanılır, məscidlər, məqbərələr və digər mədəniyyət nümunələrinə yenidən həyat verilir.

Aparılan bütün bu işlər Prezident İlham Əliyevin şəxsi nəzarəti altında həyata keçirilir. Dövlət başçısı mütəmadi olaraq bölgəyə gedərək görülən işlərlə yerində tanış olur, yeni layihələrin təməlini qoyur və açılışlarda iştirak edir. Prezidentin bu prosesə göstərdiyi xüsusi diqqət və siyasi iradə Qarabağın və Şərqi Zəngəzurun qısa müddətdə yenidən qurulmasını və inkişafını təmin edən əsas amildir.

Dövlət başçısının Ağdərə rayonuna növbəti səfəri bunun bariz nümunəsidir. Səfər çərçivəsində rayonun Çapar, Heyvalı, Çıldıran, Aşağı Oratağ kəndlərində görülən işlərlə, eləcə də Ağdərə şəhərinin baş planı ilə tanışlıq Prezidentin bu ərazilərin gələcək inkişafına verdiyi önəmi bir daha nümayiş etdirir. Həmin kəndlərdə müasir yaşayış evlərinin tikintisi, mühəndis-kommunikasiya xətlərinin çəkilməsi, sosial infrastruktur obyektlərinin yaradılması istiqamətində aparılan işlər bu dəfə də yerində dəyərləndirildi. Bu kəndlərdə aparılan bərpa işlərinin konkret nəticələri dövlət başçısının diqqətinə çatdırıldı. Məlumat verildi ki, yaşayış məntəqələrində mövcud fərdi yaşayış evlərinin əksəriyyəti bərpa olunmuş, bir hissəsi artıq istismara verilmiş, elektrik, qaz, su və rabitə xətləri yenidən qurulmuş, kənddaxili yollar əsaslı təmir edilmiş və yeni park salınmışdır.

Görülən genişmiqyaslı bərpa və quruculuq işləri sakinlərin doğma kəndlərinə mərhələli şəkildə qayıdışını təmin edir. Artıq Çapar, Heyvalı, Çıldıran və Aşağı Oratağ kəndlərində ilk ailələr məskunlaşmış, onlar üçün bütün zəruri yaşayış və sosial şərait yaradılmışdır. Doğma yurda ümumilikdə 89 ailə (387 nəfər) qayıdıb. Onların rahat yaşayışı üçün bütün zəruri sosial və yaşayış şəraiti yaradılıb. Sakinlərin doğma torpaqlara dönməsi bölgədə həyatı canlandırır, gələcəyə inamı möhkəmləndirir. Bu proses "Böyük qayıdış" proqramının uğurla və ardıcıl həyata keçirildiyini bir daha nümayiş etdirir.

4

## Qayıdışın mənəvi zəfəri

### Prezident İlham Əliyevin keçmiş məcburi köçkünlərlə səmimi görüşləri tarixi və unudulmaz anlarla yadda qalır

Prezident İlham Əliyevin keçmiş məcburi köçkünlərlə doğma yurdlarında görüşərək onların sevinc hisslərini bölüşməsi, gözaydınlığı verməsi isə təbii ki, bu insanlarımıza əlavə mənəvi güc verir.



Dövlətimizin başçısı Aşağı Oratağ kəndində keçirilən görüşlə bağlı fikirlərini belə ifadə etdi: "İndi də burada, - bir tərəfdə şəhid anası, bir tərəfdə ağbirçək, - sizinlə bərabər durmuşuq. Bu, çox xoşbəxt bir hissdir, xoşbəxt bir gündür, gözəl bir gündür. Sizi ürəkdən təbrik edirəm, burada xoşbəxt yaşayın".

Bütün bunlar Prezident İlham Əliyevin şəxsi diqqəti və rəhbərliyi altında həyata keçirilən qayıdış prosesinin yalnız infrastruktur deyil, mənəvi dirçəliş olduğunu da göstərir.

6

## Azərbaycanın dünyada artan nüfuzunun təsdiqi



Prezident İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində xarici siyasət sahəsində qazandığımız uğurlara da toxunub. Dövlət başçısı ötən ilin böyük əhəmiyyət daşıyan hadisələrdən biri kimi Çinlə olan strateji tərəfdaşlığımızı qeyd etdi: "Keçən il mənim Çinə dövlət səfərim zamanı Hərtərəfli strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalanmışdır və bu da çox böyük uğur sayıla bilər. Çünki Çin də dünyada aparıcı ölkələrdən biridir və bu siyasi çərçivə, siyasi platforma, əlbəttə ki, bizim uğurlu diplomatiyamızın təzahürü sayıla bilər". Beynəlxalq ictimaiyyət tərəfindən etibarlı tərəfdaş kimi qəbul edilən Azərbaycan qlobal güc mərkəzləri ilə siyasi və iqtisadi əlaqələrini uğurla inkişaf etdirir. Bu baxımdan, Çin Xalq Respublikası ilə Azərbaycanın yüksələn xətlə inkişaf edən əlaqələri mühüm əhəmiyyət kəsb edir.

5

## 39-cu SES

### Bu su-elektrik stansiyaları düşmənin 30 il qaranlıqda saxladığı əraziləri işıqlığa çıxarıb

Qarabağın və Şərqi Zəngəzurun bolsulu çayları sayəsində ölkəmizin su ehtiyatlarının əhəmiyyətli bir hissəsi də məhz burada cəmləşib. Bu regionların zəngin su ehtiyatları var. Qarabağ iqtisadi rayonu 831,7 milyon kubmetr, Şərqi Zəngəzur iqtisadi rayonu isə 1622,6 milyon kubmetr çay suları ehtiyatına malikdir. Bu, ümumilikdə 2350 milyon kubmetrdir (2,35 milyard kubmter) və ölkənin daxili su ehtiyatlarının 24 faizini əhatə edir.



4

## "Azərbaycan Respublikası Hökuməti ilə Uqanda Respublikası Hökuməti arasında diplomatik və xidməti pasport sahiblərinin viza tələblərindən azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2025-ci il oktyabrın 15-də Kampala şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Uqanda Respublikası Hökuməti arasında diplomatik və xidməti pasport sahiblərinin viza tələblərindən azad edilməsi haqqında Saziş" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2025-ci il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Somali Federativ Respublikası Hökuməti arasında diplomatik pasport sahiblərinin vizadan qarşılıqlı azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2025-ci il oktyabrın 15-də Kampala şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Somali Federativ Respublikası Hökuməti arasında diplomatik pasport sahiblərinin vizadan qarşılıqlı azad edilməsi haqqında Saziş" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2025-ci il*

## "Şuşa Otel-Konqres Mərkəzi Kompleksi"nin idarəetməyə verilməsi ilə əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dövlət müəssisələrinin (obyektlərinin) müqavilə əsasında idarəetməyə verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 9 fevral tarixli 437 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Şuşa şəhərində yerləşən və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin balansında olan "Şuşa Otel-Konqres Mərkəzi Kompleksi"nin müqavilə əsasında idarəetməyə verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin təklifi qəbul edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 9 fevral tarixli 437 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət müəssisələrinin (obyektlərinin) müqavilə əsasında idarəetməyə verilməsi haqqında Əsasnamə"nin tələbləri nəzərə alınmaqla,"Şuşa Otel-Konqres Mərkəzi Kompleksi"nin idarəetməyə verilməsi ilə bağlı müqavilənin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən bağlanılmasını iki ay müddətində təmin etsin;

2.2. bu Sərəncamın 2.1-ci bəndində nəzərdə tutulmuş müqavilə bağlanıldıqdan sonra onu təsdiq etsin;

2.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamdan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 yanvar 2026-cı il*

## XİN: TRIPP-ın icrası üzrə çərçivə sənədinin qəbulu bu sahədə əməli işlərə başlamaq üçün mühüm addımdır

**""Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutunun" (TRIPP) icrası üzrə çərçivə sənədinin qəbul edilməsi 8 avqust Vaşinqton sammiti çərçivəsində əldə olunmuş razılıqlara ABŞ tərəfinin sadiqliyini bir daha nümayiş etdirməklə yanaşı, bu sahədə əməli işlərə başlamaq üçün mühüm addımdır. Bu, eyni zamanda, Ermənistanın üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi baxımından əhəmiyyət kəsb edir".**



AZƏRTAC xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutunun" (TRIPP) icrası üzrə çərçivə sənədinə dair yerli mətbuatın sualına cavabında söyləyib. A.Hacızadə həmçinin bildirib ki, Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin edilməsi ölkəmizin əsas prioritetlərindən biridir. TRIPP marşrutu bununla yanaşı, daha geniş bölgədə ticarət və bağlantıların şaxələndirilməsi baxımından vacibdir.

## ABŞ Dövlət Departamentinin icra çərçivəsini qəbul etməsi Cənubi Qafqazda yeni mərhələnin başlandığını göstərir

**"Amerika Birləşmiş Ştatları (ABŞ) Dövlət Departamentinin TRIPP - "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" layihəsinin icra çərçivəsinin qəbul edildiyini açıqlaması Cənubi Qafqazda nəqliyyat, geosiyasət və regional inteqrasiya baxımından mühüm hadisə kimi qiymətləndirilir. Bu sənəd yalnız texniki yol xəritəsi deyil, eyni zamanda ABŞ-nin regionla bağlı uzunmüddətli strateji baxışını əks etdirən siyasi mesajdır".**



Bunu AZƏRTAC-a açıqlaması zamanı Kocaeli Heydər Əliyev Mədəniyyət mərkəzinin sədri Bilal Dündar bildirib.

Onun sözlərinə görə, TRIPP layihəsi mahiyyət etibarilə Cənubi Qafqazda yeni və ya bərpa olunmuş strateji tranzit marşrutunun formalaşdırılmasını nəzərdə tutur.

"Layihənin əsas hədəfi regionu Avropa ilə Asiya arasında daha etibarlı və səmərəli nəqliyyat-logistika körpüsünə çevirmək, eyni zamanda uzun illər davam edən siyasi qarşıdurmalar fonunda iqtisadi əməkdaşlıq vasitəsilə sabitliyi təşviq etməkdir. İcra çərçivəsinin qəbul edilməsi layihənin artıq konseptual müzakirə mərhələsindən çıxaraq praktiki icra fazasına keçdiyini göstərir. Vaşinqtonun TRIPP təşəbbüsünə fəal dəstək verməsi bir neçə strateji məqsədlə izah olunur. Birincisi, ABŞ Avropa-Asiya ticarət yollarının şaxələndirilməsində maraqlıdır. İkincisi, Cənubi Qafqazda iqtisadi inteqrasiya və qarşılıqlı asılılıq mexanizmlərinin gücləndirilməsi vasitəsilə uzunmüddətli sülh mühitinin formalaşdırılmasına töhfə vermək niyyəti ön plana çıxır. Üçüncüsü isə, bu addım ABŞ-nin regionda artan digər geosiyasi aktorların təsirini balanslaşdırmaq cəhdlərinin tərkib hissəsi kimi dəyərləndirilə bilər.

TRIPP layihəsinin icrası Cənubi Qafqaz ölkələri üçün bir sıra iqtisadi imkanlar yarada bilər. Yeni tranzit marşrutları ticarət dövriyyəsinin artmasına, logistika xərclərinin azalmasına və regionun beynəlxalq nəqliyyat xəritəsində əhəmiyyətinin yüksəlməsinə səbəb ola bilər. Bununla yanaşı, layihənin uğuru birbaşa olaraq region ölkələri arasında etimad mühitinin səviyyəsindən və təhlükəsizlik məsələlərinin necə tənzimlənəcəyindən asılı olacaq", - deyə Bilal Dündar vurğulayıb.

Bilal Dündarın sözlərinə görə, icra çərçivəsində suverenlik və milli yurisdiksiya məsələlərinin ön planda saxlanılması qeyd olunur. Bu isə layihənin siyasi həssaslıqlar nəzərə alınmaqla hazırlandığını göstərir: "ABŞ Dövlət Departamentinin TRIPP layihəsinin icra çərçivəsinin qəbul edildiyini açıqlaması Cənubi Qafqazda yeni mərhələnin başlandığını göstərir. Bu təşəbbüs regional nəqliyyat arxitekturasını dəyişdirmək potensialına malik olmaqla yanaşı, iqtisadi əməkdaşlıq vasitəsilə siyasi dialoqun dərinləşdirilməsi üçün də imkanlar yaradır. Lakin layihənin real nəticələri onun necə və hansı regional balanslar çərçivəsində icra olunacağından asılı olacaq".

## WUF13 çərçivəsində keçiriləcək tərəfdaş tədbirləri üzrə müraciətlərin qəbulu yanvarın 29-da başa çatacaq

**Cari il mayın 17-22-də Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyası (WUF13) çərçivəsində təşkil olunacaq tərəfdaş tədbirləri üzrə qeydiyyat prosesi davam edir.**




AZƏRTAC xəbər verir ki, müraciətlərin qəbulu üçün son tarix 29 yanvar 2026-cı il olaraq müəyyən edilib.

Şəhərsalma sahəsində beynəlxalq dialoq və əməkdaşlıq platforması olan WUF13 qurum və təşkilatlara forumun "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusuna uyğun tədbirlər təşkil etmək imkanı yaradır. Müraciətlər **https://events.unhabitat.org/** vasitəsilə təqdim edilməlidir.

Tədbirlərin təşkili üçün müraciətlər yeddi kateqoriya üzrə qəbul olunur: Şəbəkələşmə (Networking), Vahid BMT (One UN), Dayanıqlı İnkişaf Məqsədlərinin tətbiqi (SDGs in Action), Şəhər kinoteatrı (Urban Cinema), Şəhər Kitabxanası (Urban Library), Şəhərlərin Səsi (Voices from Cities) və WUF Akademiyası (WUF Academy).

Müraciət edən qurum və təşkilatlar ilkin mərhələdə "UN-Habitat"ın Qlobal Tədbir İdarəetmə Sistemi (GEMS) platforması üzərindən onlayn qaydada qeydiyyatdan keçməlidirlər.

Qeydiyyat prosesi tamamlandıqdan sonra istifadəçilər şəxsi paneldə yerləşən "Applications / Müraciətlər" bölməsinə daxil olaraq müvafiq kateqoriyalar üzrə tələblərlə tanış ola və müraciətlərini yekunlaşdıra bilərlər. Qeyd edək ki, hər bir kateqoriya üzrə yalnız bir müraciət təqdim edilə bilər.

Forumun əsas və strateji mexanizmlərindən biri olan tərəfdaş tədbirləri dayanıqlı şəhər inkişafı sahəsində qabaqcıl təcrübələrin, innovativ yanaşmaların və praktik həll yollarının beynəlxalq səviyyədə təqdim olunmasına şərait yaradır. Bu tədbirlər vasitəsilə iştirakçılar şəhərsalma sahəsində bilik və təcrübə mübadiləsi aparmaq, institusional əməkdaşlıqlar qurmaq və qlobal şəhər gündəliyinə töhfə vermək imkanı əldə edirlər.

Qeydiyyat və tədbirlərin təşkili ilə bağlı əlavə məlumat almaq üçün unhabitat-events@un.org elektron poçt ünvanı ilə əlaqə saxlamaq mümkündür.

## Dövlət Gömrük Komitəsində İtaliya nümayəndə heyəti ilə görüş keçirilib



**Yanvarın 14-də Dövlət Gömrük Komitəsində İtaliya Respublikasının Gömrük və İnhisarçılıq Agentliyinin Beynəlxalq Əlaqələr Ofisinin rəhbəri Andrea Mazzellanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**



Görüş zamanı Azərbaycan və İtaliya gömrük orqanları arasında mövcud əməkdaşlığın inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb. Eyni zamanda risklərin idarə olunması, gömrük hüquqpozmalarına qarşı mübarizə, süni intellektin tətbiqi ilə həyata keçirilən gömrük prosedurları, elektron ticarət sahəsində iki ölkənin gömrük orqanlarının qarşılıqlı təcrübə mübadiləsi imkanları müzakirə edilib.

Sonda İtaliya Respublikasının Gömrük və İnhisarçılıq Agentliyinin Beynəlxalq Əlaqələr Ofisi və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin Beynəlxalq Əməkdaşlıq İdarəsi arasında Niyyət Bəyanatı imzalanıb.

## "Uğurlu tərəfdaşlıqda xanım sahibkarlar" layihəsi bu il də davam etdirilir

**Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA), "Marsol Group" və İş adamları Cəmiyyətinin Milli Assosiasiyasının (İCMA) birgə təşkilatçılığı ilə "Uğurlu tərəfdaşlıqda xanım sahibkarlar" layihəsinə yenidən start verilib.**




KOBİA-dan AZƏRTAC-a bildirilib ki, bu məqsədlə keçirilən tədbirdə layihənin təşkilinə dəstək göstərən təşkilatların nümayəndələri və qadın sahibkarlar iştirak ediblər.

Tədbirdə KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və İş Adamları Cəmiyyətinin Milli Assosiasiyasının (İCMA) İdarə Heyətinin sədri və "Marsol Group"un təsisçisi Tural Mustafayev çıxış edərək ölkəmizdə qadın sahibkarlığının inkişafına dəstək tədbirləri, bu sahədə özəl sektorun təşəbbüsləri və layihə barədə ətraflı məlumat veriblər. Qeyd edilib ki, artıq üçüncü ildir keçirilən layihənin məqsədi qadın sahibkarların iqtisadi və sosial həyatda fəallığının artırılması və onlar arasında işgüzar əlaqələrin genişləndirilməsidir. Builki layihədə müxtəlif sektorları təmsil edən 100-dən çox qadın sahibkar iştirak edəcək. Layihə çərçivəsində müxtəlif mövzularda təlim, seminar və master-klaslar, işgüzar görüşlər, ofis-istehsalat ziyarətləri və sosial fəaliyyətlər təşkil ediləcək.

Tədbir çərçivəsində layihə ilə bağlı filmlər nümayiş olunub, həmçinin builki layihə tərəfdaşlarının fikirləri dinlənilib.

Tədbirdə iştirak edən qadın sahibkarlar "Bakı KOB evi"nin fəaliyyəti, burada sahibkarlara göstərilən xidmətlərlə tanış olublar.

Qeyd edək ki, "Uğurlu tərəfdaşlıqda xanım sahibkarlar" layihəsi 2024-cü ildən icra olunur. "Kapital Bank", "Məlhəm Beynəlxalq Hospital", "Corian Baku", "Ətirşah Parfüm", "Gizli Bahçe" restoranı və "Moon Group" builki layihənin tərəfdaşları və dəstək göstərənləri sırasındadır. Layihənin bu ilin mart ayında başa çatdırılması nəzərdə tutulub.

## Müdafiə Nazirliyi və Ombudsman Aparatının birgə tədbirlər planı imzalanıb

**Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Aparatı arasında "Ombudsman institutunun fəaliyyəti və hərbi qulluqçuların hüquqlarının qorunması istiqamətində görülən işlər" mövzusunda, həmçinin insan hüquqlarının müdafiəsi vəziyyətinin araşdırılması məqsədilə 2026-cı il üzrə birgə tədbirlər planı imzalanıb.**

Müdafiə Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, sənədə əsasən, cari il ərzində həyata keçirilməsi planlaşdırılan tədbirlərin keçiriləcəyi tarixlər, məkanlar və məsul şəxslər müəyyən edilib.

Plan çərçivəsində Müdafiə Nazirliyinin tabeliyində olan qoşun (qüvvə) növləri, birlik, birləşmə və hərbi hissələrdə, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrində müxtəlif tədbirlər təşkil olunacaq. Tədbirlər zamanı hərbi qulluqçuların hüquqlarının müdafiəsi və insan hüquqlarının təmin edilməsi vəziyyəti ilə bağlı görüşlər keçiriləcək, müxtəlif mövzularda məruzələr təqdim olunacaq və şəxsi heyəti maraqlandıran suallar ətrafında geniş fikir mübadiləsi aparılacaq.

# Strateji hədəfləri reallığa çevirən faktorlar:

## milli maraqların aliliyi, güclü siyasi iradə və sarsılmaz xalq-iqtidar birliyi

### Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun "Azərbaycan" qəzetinə müsahibəsi



*- Tahir müəllim, artıq yola saldığımız 2025-ci ildə də Azərbaycan önəmli uğurlara imza ataraq milli gücünü daha da artırmış və beynəlxalq mövqelərini olduqca möhkəmləndirmişdir. Fikrinizcə, bu nailiyyətləri şərtləndirən əsas amillər hansılardır?*

- Yola saldığımız 2025-ci il beynəlxalq münasibətlər sistemində baş verən tənəzzülün daha da dərinləşməsi, hərbi-siyasi konfrontasiyaların kəskinləşməsi, humanitar böhranlar, milli-etnik və dini qarşıdurmalar, iqlim dəyişikliklərinin meydana gətirdiyi fəsadlarla yadda qaldı. Təbii ki, belə bir mürəkkəb şəraitdə, yeni geosiyasi reallıqların və çağırışların meydana çıxdığı bir dönəmdə milli maraqların qorunması müstəqil siyasət həyata keçirən hər bir ölkə üçün taleyüklü məsələyə çevrilmiş, onların liderlərinin üzərinə böyük tarixi məsuliyyət qoymuşdur.

İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə 44 günlük Vətən müharibəsində parlaq Zəfərə imza ataraq öz ərazi bütövlüyünü, 2023-cü ildə birgünlük antiterror əməliyyatı nəticəsində isə mütləq suverenliyini bərpa edən Azərbaycan siyasi, sosial-iqtisadi, hərbi-strateji və digər sahələrdə əldə etdiyi müvəffəqiyyətlərlə keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Müstəqil Azərbaycanın ilk milli Konstitusiyasının qəbul edilməsinin 30-cu və Vətən müharibəsində əldə olunmuş qələbənin 5-ci ildönümünü qeyd etdiyimiz 2025-ci ilin nəticələri də bu gerçəkliyi birmənalı şəkildə təsdiqləyir. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciətində qeyd etdiyi kimi, 2025-ci il ölkəmiz üçün uğurlu olmuş, Azərbaycan xalqı sülh, təhlükəsizlik, əmin-amanlıq şəraitində yaşamışdır.

Ulu Öndər Heydər Əliyevin milli maraqlara əsaslanan, demokratik dəyərləri, qarşılıqlı hörmət və etimad prinsipini özündə ehtiva edən siyasətini ardıcıl islahatlarla zənginləşdirərək ölkəmizin davamlı inkişafını təmin edən Prezident İlham Əliyev Azərbaycanın qüdrətini və nüfuzunu daha da artırmış, onun regiondakı lider mövqeyini möhkəmləndirmiş, dünyada dialoq və əməkdaşlıq məkanı, etibarlı və konstruktiv tərəfdaş imicini gücləndirmişdir.

Vahid milli ideya - azərbaycançılıq ideologiyası əsasında ictimai-siyasi sabitliyin qorunması, ardıcıl sosial-iqtisadi və siyasi-hüquqi islahatların həyata keçirilməsi və digər mühüm faktorlar ölkəmizdə milli birliyin güclənməsini şərtləndirmişdir. Təsadüfi deyil ki, bu gün xalqımız həmrəylik nümayiş etdirərək prinsipial mövqe ortaya qoymaqla dövlət başçısının siyasətinə mütləq dəstək göstərir. Azərbaycan Prezidentinin qeyd etdiyi kimi: "Xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas amilidir".

Qlobal təhlükəsizliyə ciddi təhdidlər yaradan hallara qarşı qətiyyətli mübarizə apararaq beynəlxalq hüququn aliliyini təşviq edən Azərbaycanın məqsədyönlü xarici siyasət kursu regionda ədalətli geosiyasi nizamın - yeni təhlükəsizlik və əməkdaşlıq mühitinin formalaşması, bütövlükdə isə sülh naminə etimad quruculuğunun həyata keçirilməsi baxımından çox böyük önəmə malikdir. Bu xüsusda 2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistan Baş naziri Nikol Paşinyan və ABŞ Prezidenti Donald Tramp tərəfindən imzalanan Birgə Bəyannamə ölkəmizin növbəti diplomatik nailiyyətini əks etdirməklə bərabər, sülh prosesinin irəliyə aparılması baxımından böyük dəyərə malik olmaqla postmüharibə dövründə regionda yeni tarixi dönəmin başlanmasını şərtləndirmişdir.

Dövlət başçısının praqmatik və ardıcıl siyasəti Azərbaycanın dünya ölkələri ilə ikitərəfli və çoxtərəfli formatda münasibətlərinin inkişafı ilə yanaşı, beynəlxalq təşkilatlarla əlaqələrinin möhkəmlənməsini də təmin edir. Azərbaycanın Türk Dövlətləri Təşkilatı, Birləşmiş Millətlər Təşkilatı, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, ötən il üzv olduğu İqtisadi Əməkdaşlıq Təşkilatı (D-8) və digər təsisatlarda səmərəli fəaliyyəti, həmçinin Şanxay Əməkdaşlıq Təşkilatı, BRICS kimi nüfuzlu platformalarda tərəfdaş ölkə kimi işbirliyini diqqət mərkəzində saxlaması ölkəmizin beynəlxalq müstəvidə mühüm tərəfdaş kimi önəmini təsdiqləyir.

Beləliklə, 2025-ci il də həm daxili, həm də beynəlxalq müstəvidə qazanılan uğurlarla zəngin olmuş, ölkəmizin strateji hədəflərinin reallığa çevrilməsini, yeni perspektivlərin meydana gəlməsini şərtləndirən əsas faktorlar kimi milli maraqların aliliyi, güclü siyasi iradə və sarsılmaz xalq-iqtidar birliyi çıxış etmişdir.

*- Azərbaycan Prezidenti ötən ilin yekunlarından bəhs edərkən vurğuladı ki, Böyük qayıdış proqramı uğurla icra edilir və işğaldan azad edilmiş ərazilərdə bu gün böyük quruculuq işləri aparılır. İstərdik ki, artıq nəhəng prosesə çevrilən Böyük qayıdışın sosial-iqtisadi və mənəvi-siyasi əhəmiyyəti barədə fikirlərinizi bildirəsiniz.*

- Azərbaycanın ərazi bütövlüyünün bərpasından sonra tamamilə yeni siyasi, sosial-iqtisadi və mədəni-humanitar çağırışlar meydana çıxmışdır ki, bunlardan biri də 2030-cu ilədək beş Milli Prioritetdən biri olan işğaldan azad edilmiş ərazilərə Böyük qayıdışın təmin edilməsidir. Bu məqsədlə qəbul edilmiş dövlət proqramı hazırda müvəffəqiyyətlə icra olunmaqdadır.

Böyük qayıdışın zamanında və yüksək səviyyədə həyata keçirilməsi üçün ilk növbədə işğaldan azad edilmiş ərazilər minalardan təmizlənməli, genişmiqyaslı bərpa-quruculuq işləri aparılmalı və müasir infrastruktur yaradılmalıdır ki, bunları da Azərbaycan öz iqtisadi gücü hesabına gerçəkləşdirir. Ekoloji vəziyyətin yaxşılaşdırılması, iqtisadi fəaliyyətin bərpası və digər istiqamətlərdə atılan addımlar da dayanıqlı məskunlaşmanın, o cümlədən müasir standartlara uyğun yüksəkkeyfiyyətli həyat şəraitinin təmin olunmasına əlverişli zəmin yaradır.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının potensial imkanlarından istifadə olunması nəinki həmin bölgələrin yüksəlişi, bütövlükdə Azərbaycanın inkişafı üçün mühüm əhəmiyyət daşıyır.

Bu gün Azərbaycan xalqı torpaqlarımızın işğaldan azad olunmasının, əzəli yurd yerlərinə əbədi qayıdışının hədsiz sevincini yaşamaqdadır. İşğaldan azad edilmiş ərazilərdə bərpa olunan kənd, qəsəbə və şəhərlərdə 73 min insan yaşayır, çalışır, təhsil alır, onların şərait və güzəranı gündən-günə yaxşılaşdırılır.

Böyük qayıdış prosesi tarixi ədalətin bərpasının təzahürü olmaqla bərabər, xalqımızın əzmkar ruhunu, Vətəninə sonsuz məhəbbətini nümayiş etdirməklə müasir beynəlxalq münasibətlər sisteminin önəmli aktoruna çevrilən Azərbaycanın dünyada imicinin möhkəmlənməsinə xidmət edir. Bu istiqamətdə qazanılan nailiyyətlər Prezident İlham Əliyevin uğurlu siyasətinin real təzahürü və məntiqi nəticəsi, xalqımızın isə qürur mənbəyidir.

Heydər Əliyevin milli-mənəvi dəyərlərə əsaslanan tükənməz siyasi irsindən qaynaqlanan, Prezident İlham Əliyev tərəfindən müasir çağırışlara uyğun zənginləşdirilərək inamla həyata keçirilən Yeni Azərbaycan ideyası xalqımızı növbəti nailiyyətlərə və zirvələrə doğru aparır. Cənab İlham Əliyev tarixin ən güclü Azərbaycanının Lideri kimi tarix yazmağa davam edir, ölkəmizin suveren dövlət kimi zəfər yolunda əmin addımlarla irəliləməsini təmin edir.

*- Tahir müəllim, milli dövlətçilik tariximizə "Konstitusiya və Suverenlik İli" kimi həkk olunan 2025-ci il Yeni Azərbaycan Partiyasının həyatında nə ilə əlamətdar oldu, beynəlxalq müstəvidə hansı hadisələrlə yadda qaldı?*

- Bu gün sıralarında 750 mindən artıq vətəndaşımızı birləşdirən, öz fəaliyyətində dialoq, konstruktiv əməkdaşlıq, qanunun aliliyi, azadlıq və bərabərlik prinsiplərinə söykənən, plüralizmi təşviq edərək siyasi sistemin inkişafına, Azərbaycanın müasir, demokratik və hüquqi dövlət kimi tərəqqisinə mühüm töhfələr verən Yeni Azərbaycan Partiyası müasir çağırış və hədəfləri əsas götürərək "Konstitusiya və Suverenlik İli"ndə də məqsədyönlü fəaliyyətini davam etdirmişdir.

Ötən il ərzində də Yeni Azərbaycan Partiyası milli maraqların qorunmasına siyasi-ideoloji dəstəyin verilməsi, o cümlədən dövlət mənafelərinin müdafiəsi naminə sağlam ictimai rəyin formalaşması, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi - milli şüurun gücləndirilməsi, eləcə də Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, partiyamızın və ölkəmizin beynəlxalq əlaqələrinin möhkəmləndirilməsinə hədəflənmişdir.

Azərbaycanın aparıcı siyasi qüvvəsi kimi Yeni Azərbaycan Partiyası tərəfindən təşkil olunan silsilə tədbirlər ölkəmizin müstəqil inkişaf yolunun əhəmiyyətinin, möhtəşəm Zəfərimizin tarixi və ictimai-siyasi əsaslarının, yeni mərhələdə suveren Azərbaycanın qarşısında duran əsas hədəflərin geniş auditoriyaya çatdırılması məqsədini daşımışdır.

Siyasi müstəvidə beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi də suveren Azərbaycanın milli maraqlarının qorunması üçün böyük önəm kəsb edir. Dövlət başçısının uzaqgörən xarici siyasət kursu əsasında partiya diplomatiyasının - partiyalar arasında intensiv təmasların müvəffəqiyyətlə davam etdirilməsi, səmərəli fikir və təcrübə mübadiləsinin aparılması xüsusi diqqət mərkəzindədir.

Qeyd etmək lazımdır ki, partiyamızın sonuncu - 2021-ci il martın 5-də keçirilmiş VII qurultayından ötən müddət ərzində bir sıra ölkələrin, o cümlədən Türkiyə, Özbəkistan, Qazaxıstan, Ukrayna, Şimali Kipr Türk Respublikası, Şimali Makedoniya, Çin, Vyetnam və Kubanın aparıcı siyasi partiyaları ilə əməkdaşlıq sazişləri, həmçinin YAP Gənclər Birliyi ilə "Gürcü Arzusu-Demokratik Gürcüstan" partiyasının Gənclər Təşkilatı arasında Əməkdaşlıq Memorandumu imzalanmış, Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı (ICAPP), Mərkəzçi Demokrat İnternasionalı (IDC-CDI) kimi önəmli siyasi platformalarda YAP-ın fəal iştirakı təmin edilmişdir. Bütün bunlar ölkəmizin siyasi nüfuzunun artmasına xidmət etməklə yanaşı, ümumilikdə dövlətlərarası münasibətlərin inkişafına öz töhfəsini verməkdədir.

Ötən il Yeni Azərbaycan Partiyasının beynəlxalq əlaqələrinin genişlənməsinə xidmət edən mühüm amillərdən biri də nümayəndə heyətlərinin qarşılıqlı səfərləri, həmçinin YAP-ın təşkilatçılığı ilə aktual məsələlərə dair əhəmiyyətli tədbirlərin keçirilməsidir.

2025-ci il fevral ayında 18 ölkədən 22 siyasi partiyanın, diplomatik missiya rəhbərlərinin və vətəndaş cəmiyyəti nümayəndələrinin qatıldığı Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AK Parti) VIII Böyük Qurultayında, aprel ayında isə Türkiyə Cümhuriyyəti Prezidentinin himayədarlığı ilə bu ölkənin Xarici İşlər Nazirliyi tərəfindən təşkil edilən IV Antalya Diplomatiya Forumunda iştirak edən YAP nümayəndə heyəti ilə AK Parti Sədrinin birinci müavini, Bursa millət vəkili Efkan Ala və xarici əlaqələr üzrə müavini, İstanbul millət vəkili Zafer Sırakaya arasında keçirilən görüşlərdə "bir millət, iki dövlət" prinsipinə, dostluğa, qardaşlığa və strateji müttəfiqliyə əsaslanan Azərbaycan-Türkiyə münasibətlərinin iki ölkənin liderləri - Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğanın məqsədyönlü siyasəti nəticəsində ən yüksək səviyyəyə çatdığı, beynəlxalq platformalarda qarşılıqlı fəaliyyətin milli maraqların təmini və müştərək hədəflərin gerçəkləşdirilməsi baxımından müstəsna əhəmiyyət daşıdığı, dövlət başçılarının siyasi iradələrinə uyğun olaraq hakim partiyalar arasında əməkdaşlığın genişləndirilməsi istiqamətində atılan addımların önəmi, qarşılıqlı səfərlərin ikitərəfli münasibətlərin inkişafı baxımından son dərəcədə vacib olduğu vurğulanmışdır. 2021-ci il iyunun 2-də YAP ilə AK Parti arasında imzalanmış Əməkdaşlıq Protokolundan irəli gələn vəzifələrin icrası barədə ətraflı fikir mübadiləsi aparılmışdır.

Ötən ilin aprel ayının 2-də Yeni Azərbaycan Partiyasının dəvəti ilə Çin Kommunist Partiyasının yüksəksəviyyəli nümayəndə heyəti ölkəmizə səfər etdi. Səfər çərçivəsində "Azərbaycan - Çin strateji tərəfdaşlığı: Qlobal Cənubda konsolidasiya və əməkdaşlığın təşviqi" mövzusunda keçirilən konfrans zamanı hakim partiyalar arasında əlaqələrin mövcud vəziyyəti dəyərləndirilərək 2024-cü ilin noyabr ayında imzalanmış Əməkdaşlıq Memorandumundan irəli gələn vəzifələrin yerinə yetirilməsi və gələcək əməkdaşlıq istiqamətləri ilə əlaqədar ətraflı müzakirələr aparılmışdır. Aprel ayının sonunda isə ÇKP-nin dəvəti ilə YAP nümayəndə heyəti Çinə səfəri çərçivəsində 23 ölkədən 200 nəfərə yaxın nümayəndənin qatıldığı Şanxay Əməkdaşlıq Təşkilatının Siyasi Partiyalar Forumunda, eləcə də "İnkişaf imkanlarını paylaşmaq və iqtisadi qloballaşmanı təşviq etmək" adlı panel sessiyasında iştirak etdi.

May ayında Rusiyanın Perm şəhərində ICAPP Daimi Komitəsinin 43-cü iclasında və Avrasiyada vahid, bərabər təhlükəsizlik və əməkdaşlıq sisteminin formalaşması problemləri üzrə beynəlxalq ictimai-siyasi dinləmələrdə Azərbaycanın istər regionda, istərsə də Avrasiyanın daha geniş coğrafi və geosiyasi məkanında dayanıqlı sülh, təhlükəsizlik və tərəfdaşlıq naminə hərbi-siyasi təhdidlərin qarşısının alınması, iqtisadi, ekoloji, humanitar və digər sahələrdə təhlükəsizliyin təmin olunması istiqamətində beynəlxalq hüquq normalarına əsaslanan hərtərəfli fəaliyyəti, terrorçuluq, ekstremizm, separatizm və neokolonializm kimi təhdidlərə qarşı mübarizəyə yönəlmiş beynəlxalq səyləri əməli surətdə dəstəklədiyi xüsusi qeyd edildi.

2025-ci il 9-17 sentyabr tarixlərində YAP nümayəndə heyətinin Çin Xalq Respublikasına növbəti səfəri də iki ölkənin hakim partiyaları arasında uğurlu əməkdaşlığın dərinləşdirilməsi, davamlı siyasi dialoqun təmin olunması, qarşılıqlı fikir və təcrübə mübadiləsinin aparılması baxımından xüsusi əhəmiyyətə malik olmuşdur.

2025-ci il 20-23 noyabr tarixlərində YAP nümayəndə heyəti IDC-CDI-nin dəvəti ilə Braziliya Federativ Respublikasında "Demokratik müzakirə: sağ-mərkəzin siyasətdə körpülər qurması və həllər təklif etməsi" mövzusunda forumda iştirak etdi. "Dəyişikliklər dövründə ekstremal yanaşmalar arasında idarəetmə", "Dəyişən dünyada sağ-mərkəz narrativi", "Mürəkkəb problemlərə dair realist həllər" mövzularında panel sessiyalarda müasir dövrdə hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu, demokratik institutların gücləndirilməsi, media və vətəndaş cəmiyyəti təsisatlarının dəstəklənməsi, eləcə də xalqlar arasında körpülərin qurulması üçün ideoloji qütbləşmənin azaldılması, etnik zəmində münaqişələrin qarşısının alınması və sivilizasiyalararası dialoqun təşviqində siyasi partiyaların rolu məsələləri müzakirə olundu. Yeni dünya nizamına keçid prosesinin geniş vüsət aldığı müasir dövrdə hökm sürən qlobal kataklizmlər fonunda milli, regional və beynəlxalq təhlükəsizlik məsələlərinin xalqlar və dövlətlər qarşısında mühüm çağırış kimi dayandığı, hazırda bəşəriyyətin sağlam gələcəyi naminə intensiv dialoqa ehtiyac duyulduğu və bu kontekstdə sosial məsuliyyət daşıyıcısı kimi siyasi partiyaların da üzərinə mühüm vəzifələrin düşdüyü, qarşılıqlı faydalı əməkdaşlıq şəraitində milli maraqlara hörmət və beynəlxalq hüquq normalarına riayət etməklə ümumbəşəri dəyərlər və ortaq maraqlar naminə səylərin birləşdirilməsinin vacibliyi vurğulandı. Səfər zamanı IDC-CDI-ın Prezidenti, Kolumbiyanın sabiq Prezidenti Andres Pastana, Kamboca Xalq Partiyası Xarici əlaqələr komissiyası sədrinin birinci müavini və Kamboca Krallığı Milli Assambleyasının Xarici işlər, beynəlxalq əməkdaşlıq və informasiya komitəsinin sədri Suos Yara və Macarıstanın hakim Fides partiyasının vitse-prezidenti, Avropa Parlamentinin üzvü Kinqa Qal ilə görüşlərimiz zamanı ölkələrimiz və partiyalarımız arasında əlaqələrin mövcud vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi də aparıldı.

Elə həmin ay Kuba Kommunist Partiyasının (KKP) dəvəti əsasında YAP nümayəndə heyətinin Kuba Respublikasına səfəri də baş tutdu. KKP Mərkəzi Komitəsinin Birinci katibi, Kuba Respublikasının Prezidenti Miqel Mario Dias-Kanel Bermudeslə görüşümüz zamanı fəal siyasi dialoq şəraitində iqtisadi, ticari, mədəni, tibb, təhsil, turizm, aqrar və digər sahələrdə genişmiqyaslı əməkdaşlıq üçün mühüm potensialın mövcud olduğu qeyd edilərək mürəkkəb qlobal problemlərlə müşayiət olunan və yeni geosiyasi reallıqların meydana çıxdığı müasir dövrdə iki dost ölkənin prinsipial mövqe sərgiləməklə beynəlxalq müstəvidə, o cümlədən BMT, Qoşulmama Hərəkatı kimi təşkilatlar səviyyəsində səmərəli işbirliyini davam etdirməsinin dövlət mənafelərinin qorunması baxımından əhəmiyyəti vurğulandı. Eyni zamanda Azərbaycan-Kuba münasibətlərinin gələcək inkişafında hakim partiyalar - Yeni Azərbaycan Partiyası ilə Kuba Kommunist Partiyasının rolu diqqətə çatdırıldı, təmaslar və qarşılıqlı səfərlərin faydalı təcrübə mübadiləsinin aparılması, eləcə də məhsuldar işbirliyinin gücləndirilməsi nöqteyi-nəzərindən önəmi qeyd olundu.

Səfər zamanı, həmçinin Xalq Hakimiyyəti Milli Assambleyasının və Dövlət Şurasının sədri Xuan Esteban Lazo Hernandes, KKP Mərkəzi Komitəsi Katibliyinin üzvü Xose Ramon Monteaqudo Ruiz və Kuba Respublikasının xarici işlər nazirinin birinci müavini Herardo Penyalver Portal ilə görüşlərdə YAP nümayəndə heyətinin dost ölkəyə səfərinin önəmi vurğulanaraq siyasi partiyalar və parlamentlər arasında əlaqələrin Azərbaycan-Kuba münasibətlərinin inkişafı xüsusunda əhəmiyyəti qeyd olundu. Səfər zamanı Yeni Azərbaycan Partiyası ilə Kuba Kommunist Partiyası arasında Əməkdaşlıq Sazişinin imzalanması isə çoxşaxəli əməkdaşlığa xidmət edən siyasi-hüquqi əsasların möhkəmləndirilməsi baxımından böyük önəm daşıyır.

AK Partinin dəvəti ilə YAP nümayəndə heyəti 2025-ci il dekabrın 15-də UNESCO-nun Səmərqənddə keçirilən Baş Konfransının qərarı ilə elan olunan və ilk dəfə qeyd edilən Dünya Türk Dili Ailəsi Günü münasibətilə Ankara şəhərində keçirilən tədbirə qatıldı. "Türk Dünyası Strateji Baxış Sənədi"nin də təqdim olunduğu tədbirdə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Türk Dövlətləri Təşkilatının türk dünyasında birlik və əməkdaşlığın gücləndirilməsində müstəsna rolunu qeyd edərək türk xalqlarının çoxəsrlik bilik və təcrübəsini özündə ehtiva edən bu sənədin növbəti yüzilliyin hədəflərinin gerçəkləşdirilməsində önəmli bir bələdçi rolunu oynayacağına inamını ifadə etdi. Səfər çərçivəsində AK Parti sədrinin türk dövlətləri ilə əlaqələr üzrə müavini, Türkiyə Böyük Millət Məclisinin üzvü Kürşad Zorlu ilə bu istiqamətdə partiyalarımızın birgə atacağı addımlarla bağlı fikir mübadiləsi aparıldı, eyni zamanda Özbəkistan və Qazaxıstanın hakim partiya təmsilçiləri ilə səmərəli görüşlər keçirildi.

2025-ci il ölkəmizdə keçirilən önəmli siyasi tədbirlərlə də yadda qaldı. Bildiyiniz kimi, 2022-ci ildən etibarən hər il iyunun 15-də - Milli Qurtuluş Günündə YAP-ın təşkilatçılığı ilə Şuşa şəhərində artıq nüfuzlu siyasi platformaya çevrilən beynəlxalq konfranslar keçirilir və bu tədbirlərin iştirakçı sayı ildən-ilə artmaqdadır. 2025-ci ildə "Yeni dünya nizamı: geosiyasi aspektlər və qlobal çağırışlar" mövzusuna həsr olunmuş və Türkiyə, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Şimali Kipr Türk Cümhuriyyəti, Tacikistan, Çin, Serbiya, Belarus, Ukrayna və Bolqarıstanın hakim siyasi partiyalarının təmsil olunduğu beynəlxalq konfransın açılış mərasimi və plenar sessiyalarında dünyada fərqli geosiyasi mənzərənin - yeni beynəlxalq nizamın yaranmaqda olduğu hazırkı şəraitdə müştərək hədəflər əsasında qarşılıqlı faydalı fəaliyyətin davam etdirilməsinin əhəmiyyəti qeyd edilmiş, ölkələrimiz arasında tərəfdaşlığın gücləndirilməsi kimi məsələlər ətrafında çıxışlar və müzakirələr zamanı partiyalararası əlaqələrin önəminə nəzər salınmışdır. Bu əlaqələrin çoxşaxəli işbirliyinə hədəfləndiyi vurğulanaraq konfransın beynəlxalq münasibətlərin bərabərlik, açıqlıq və əməkdaşlıq prinsipləri əsasında qurulması yönündə təşəbbüslərə töhfə verəcəyinə və faydalı nəticələrlə yadda qalacağına inam ifadə olunmuşdur.

Ötən il oktyabrın 17-də isə Bakı şəhərində YAP-ın evsahibliyi ilə ICAPP Daimi Komitəsinin (DK) 44-cü və Asiya Mədəniyyət Şurasının 4-cü iclasları keçirildi. Daimi Komitənin 44-cü iclasında ötən dövrdə görülən işlər, əldə olunan nəticələr müzakirə edildi, səmərəli əməkdaşlığın davamlılılğının önəminə toxunularaq qarşıda duran vəzifələrə dair ətraflı fikir mübadiləsi aparıldı.

Türkiyə, Kamboca, Çin, İran, İraq, Yaponiya, Qazaxıstan, Laos, Malayziya, Nepal, Pakistan, Özbəkistan, Türkmənistan, Kuba, Serbiya və Ukraynadan 19 aparıcı siyasi partiya nümayəndələrinin qatıldığı Asiya Mədəniyyət Şurasının 4-cü iclasında isə dünyada olduqca mürəkkəb geosiyasi vəziyyətin hökm sürdüyü bir şəraitdə müxtəlif mədəniyyətlərin daşıyıcısı olan xalqlar arasında sabitlik və tərəqqi naminə dialoq prosesinin ümumbəşəri dəyərlərin qorunması və ölkələrin təhlükəsizliyinin təmini baxımından müstəsna əhəmiyyəti vurğulandı. Asiya və Okeaniyadan 350-dən çox siyasi partiyanı bir araya gətirən ICAPP-ın səmərəli dialoqun genişləndirilməsi və çoxtərəfli əməkdaşlığın təşviqi üçün etibarlı platforma olduğu diqqətə çatdırılaraq yeni dünya nizamına transformasiya şəraitində qlobal həmrəylik axtarışında olan bəşəriyyət üçün həm siyasi, həm də mədəni kontekstdə aktual məsələlər müzakirə edildi.

Xüsusi qeyd etmək lazımdır ki, istər Şuşada keçirilmiş "Yeni dünya nizamı: geosiyasi aspektlər və qlobal çağırışlar" mövzusundakı beynəlxalq konfransın, istərsə də Asiya Mədəniyyət Şurasının 4-cü iclasının iştirakçılarına Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev tərəfindən ünvanlanmış dərinməzmunlu müraciətlər böyük ictimai-siyasi rezonans doğurmuş, ölkə başçısının ədalətli dünya nizamının bərqərar olması yönündə aydın mövqeyini ortaya qoymuşdur.

Bütövlükdə, ötən il partiyalararası dialoq, əməkdaşlıq məsələlərinin müzakirəsi ilə yanaşı, Azərbaycan həqiqətlərinin, xüsusilə də postmüharibə reallıqlarının beynəlxalq auditoriyanın diqqətinə çatdırılması baxımından zəngin olmuşdur. Yeni mərhələdə qarşımızda duran əsas vəzifə Qarabağ Zəfərinin diplomatik müstəvidə möhkəmləndirilməsi, bu xüsusda Azərbaycana dəstəyin gücləndirilməsidir ki, YAP-ın xarici əlaqələrinin genişləndirilməsi də bu prosesə mühüm töhfə verməkdədir.

Bu gün Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan dövləti öz milli maraqlarını rəhbər tutaraq müstəqil siyasətini uğurla davam etdirir, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir. Yeni Azərbaycan Partiyasının VII qurultayında partiyamızın Sədri, dövlətimizin başçısı İlham Əliyev tərəfindən qarşıya qoyulmuş vəzifələrin ardıcıl şəkildə həyata keçirilməsi isə yeni mərhələdə Azərbaycanın önəmli uğurlar əldə etməsinə və milli prioritetlərdən irəli gələn vəzifələrin reallaşdırılmasına etibarlı zəmin yaradır.

***Müsahibəni apardı:***
***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***




# Dirçələn torpaq, qayıdan həyat

## İlham ƏLİYEV: "Bu gün artıq 73 min insan - həm keçmiş köçkün, həm də ki, köçkün olmayanlar azad edilmiş ərazilərdə yerləşiblər"

**Qarabağ və Şərqi Zəngəzur Azərbaycan xalqının yeni tarixində, yurd yaddaşında və milli kimliyində xüsusi yerə malik diyardır. Uzun illər işğal altında qalmış bu torpaqlar azad edildikdən sonra yeni bir mərhələyə qədəm qoyub. Bu, yenidənqurma və dirçəliş, bərpa və sürətli inkişaf mərhələsidir.**

İndi regionda aparılan genişmiqyaslı tikinti və infrastruktur layihələri yalnız dağıdılmış ərazilərin bərpasını deyil, eyni zamanda bölgənin müasir, təhlükəsiz və iqtisadi cəhətdən dayanıqlı bir məkana çevrilməsini hədəfləyir. Dövlətin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində Qarabağ dirçəlir, Şərqi Zəngəzura həyat qayıdır. Və bu tarixi missiyanın icrası çərçivəsində görülən işlər planlı və mərhələli həyata keçirilir. Dağıdılmış şəhər və kəndlər müasir memarlıq üslubunda, ekoloji tələblərə cavab verən səviyyədə inşa olunur. Məktəblər, xəstəxanalar, mədəniyyət mərkəzləri və sosial obyektlərin tikintisi əhalinin layiqli yaşayış şəraitinin təmin edilməsinə yönəlib. Bu addımlar Böyük qayıdış proqramının uğurla həyata keçirilməsinə zəmin yaradır.

Ötən beş il ərzində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa və quruculuq sahəsində misilsiz işlər görülüb. Qısa müddət ərzində yüzlərlə kilometr avtomobil yolu və dəmir yolu xətləri salınıb, strateji əhəmiyyətə malik tunel və körpülər inşa edilib. Füzuli, Zəngilan və Laçın beynəlxalq hava limanlarının istifadəyə verilməsi regionun nəqliyyat-logistika imkanlarını əhəmiyyətli dərəcədə genişləndirilib. Paralel olaraq su-elektrik stansiyaları, su anbarları, magistral su və qaz xətləri çəkilib və nəticədə bölgənin dayanıqlı enerji və su təchizatı təmin olunub.

Azad edilmiş ərazilərdə kənd və şəhərlərin yenidən qurulması prosesi sürətlə həyata keçirilir. Zəngilanın Ağalı kəndi, Laçın şəhəri, Füzuli, Cəbrayıl və digər ərazilərdə müasir yaşayış kompleksləri inşa edilib və indi sakinlər mərhələli şəkildə doğma yurdlarına qayıdırlar. Tarixi və mədəni abidələrin bərpası da diqqət mərkəzində saxlanılır, məscidlər, məqbərələr və digər mədəniyyət nümunələrinə yenidən həyat verilir.

Aparılan bütün bu işlər Prezident İlham Əliyevin şəxsi nəzarəti altında həyata keçirilir. Dövlət başçısı mütəmadi olaraq bölgəyə gedərək görülən işlərlə yerində tanış olur, yeni layihələrin təməlini qoyur və açılışlarda iştirak edir. Prezidentin bu prosesə göstərdiyi xüsusi diqqət və siyasi iradə Qarabağın və Şərqi Zəngəzurun qısa müddətdə yenidən qurulmasını və inkişafını təmin edən əsas amildir.

Dövlət başçısının Ağdərə rayonuna növbəti səfəri bunun bariz nümunəsidir. Səfər çərçivəsində rayonun Çapar, Heyvalı, Çıldıran, Aşağı Oratağ kəndlərində görülən işlərlə, eləcə də Ağdərə şəhərinin baş planı ilə tanışlıq Prezidentin bu ərazilərin gələcək inkişafına verdiyi önəmi bir daha nümayiş etdirir. Həmin kəndlərdə müasir yaşayış evlərinin tikintisi, mühəndis-kommunikasiya xətlərinin çəkilməsi, sosial infrastruktur obyektlərinin yaradılması istiqamətində aparılan işlər bu dəfə də yerində dəyərləndirildi. Bu kəndlərdə aparılan bərpa işlərinin konkret nəticələri dövlət başçısının diqqətinə çatdırıldı. Məlumat verildi ki, yaşayış məntəqələrində mövcud fərdi yaşayış evlərinin əksəriyyəti bərpa olunmuş, bir hissəsi artıq istismara verilmiş, elektrik, qaz, su və rabitə xətləri yenidən qurulmuş, kənddaxili yollar əsaslı təmir edilmiş və yeni park salınmışdır.

Görülən genişmiqyaslı bərpa və quruculuq işləri sakinlərin doğma kəndlərinə mərhələli şəkildə qayıdışını təmin edir. Artıq Çapar, Heyvalı, Çıldıran və Aşağı Oratağ kəndlərində ilk ailələr məskunlaşmış, onlar üçün bütün zəruri yaşayış və sosial şərait yaradılmışdır. Doğma yurda ümumilikdə 89 ailə (387 nəfər) qayıdıb. Onların rahat yaşayışı üçün bütün zəruri sosial və yaşayış şəraiti yaradılıb. Sakinlərin doğma torpaqlara dönməsi bölgədə həyatı canlandırır, gələcəyə inamı möhkəmləndirir. Bu proses Böyük qayıdış proqramının uğurla və ardıcıl həyata keçirildiyini bir daha nümayiş etdirir.

Bu qayıdışın arxasında dayanan əsas məqsədlər və dövlətin qətiyyətli mövqeyi Prezident İlham Əliyevin Çapar, Heyvalı, Çıldıran və Aşağı Oratağ kəndlərinin sakinləri ilə görüşü zamanı səsləndirdiyi fikirlərdə də öz əksini tapıb: "Son iki il ərzində - antiterror əməliyyatından sonra - 2023-cü ildən bu yana bütün bu bölgələrdə - Ağdərədə, Xocalıda, Xankəndidə, Xocavənddə həyat bərpa edilir. Beş il bundan əvvəl isə vaxtilə işğal altında olmuş digər ərazilərə köçkünlər qayıtmağa başlayıblar. Bu gün artıq 73 min insan - həm keçmiş köçkün, həm də ki, köçkün olmayan, amma azad edilmiş ərazilərdə işləyənlər, çalışanlar, oxuyanlar yerləşiblər və hər ay Qarabağa qayıdan vətəndaşların sayı artır. Burada şərait yaradılıb - işıq, su, qaz, yollar, iş yerləri... Ağdərə şəhərini də biz yenidən quracağıq, necə ki, artıq doqquz kəndi abadlaşdırmışıq. Şəhəri də quracağıq. Bura çox gözəl bir sənaye və turizm mərkəzi olacaq. Bu səfalı yerlər göz oxşayır. Hər tərəf dağ, meşə, gözəl hava, bulaqlar, çaylar. Ona görə Ağdərənin gələcək inkişafı çox parlaq olacaq. İşğalçılar bu ərazidə faktiki olaraq heç bir salamat bina qoymayıblar. Bax təmir edilmiş bütün bu binalar bu gün dövlət tərəfindən təmir edilib".

Göründüyü kimi, Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və quruculuq işləri məqsədyönlü dövlət siyasətinin real nəticələrini ortaya qoyur. Qısa müddət ərzində yaradılan müasir infrastruktur, yenidən qurulan yaşayış məntəqələri və sakinlərin doğma torpaqlara qayıdışı bu bölgələrdə həyatın bərpa olunduğunu göstərir. Kənd təsərrüfatı, turizm, sənaye və "yaşıl enerji" layihələri Qarabağ və Şərqi Zəngəzurun iqtisadi dirçəlişini sürətləndirir. Danılmaz faktdır ki, zəngin təbii ehtiyatlara və əlverişli coğrafi mövqeyə malik region gələcəkdə ölkənin mühüm iqtisadi mərkəzlərindən birinə çevrilmək imkanına sahibdir. Prezident İlham Əliyevin şəxsi nəzarəti və siyasi iradəsi sayəsində həyata keçirilən bu işlər Qarabağın və Şərqi Zəngəzurun dayanıqlı inkişafını təmin edir.

Bu gün Qarabağ və Şərqi Zəngəzur təkcə bərpa olunan ərazilər deyil, eyni zamanda gələcəyə inamla baxan, inkişaf edən və çiçəklənən bir məkandır. Böyük qayıdış proqramı çərçivəsində görülən işlər milli birliyin, tarixi ədalətin və Azərbaycanın güclü dövlət olaraq gələcək nəsillər üçün yaratdığı möhkəm təməlin bariz nümunəsidir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Yeni dövlət proqramı əhalinin həyat keyfiyyətini yüksəldəcək

**Prezident İlham Əliyevin sədrliyi ilə 2026-2035-ci illəri əhatə edən Bakı və Abşeron yarımadasında su təminatı, habelə yağış və tullantı suları sistemlərinin modernləşdirilməsini hədəfləyən dövlət proqramına həsr olunmuş müşavirə keçirilib. Qəbul olunmuş dövlət proqramı ölkəmizdə ekoloji dayanıqlılığı hədəfləyən strateji bir sənəddir. Proqram çərçivəsində köhnəlmiş infrastrukturun yenilənməsi, "ağıllı su şəbəkələri"nin qurulması və su itkilərinin kəskin azaldılması üçün konkret iki mərhələli fəaliyyət planı nəzərdə tutulur.**

Milli Məclisin deputatı Pərvanə Vəliyeva qəzetimizə açıqlamasında bildirib ki, burada beynəlxalq təcrübəyə əsaslanan innovativ yanaşmalar, o cümlədən dəniz suyunun duzsuzlaşdırılması və tullantı sularının təkrar emalı kimi layihələr xüsusi yer tutur: "Proqramın əsas məqsədi əhalini fasiləsiz içməli su ilə təmin etmək, subasma risklərini aradan qaldırmaq və bölgənin ekoloji təhlükəsizliyini gücləndirməkdir. Sənəddə, rəqəmsal idarəetmə sistemlərinin tətbiqi və su ehtiyatlarının idarə olunmasında rəqəmsallaşma prioritet istiqamətlər kimi müəyyən edilib. Statistikaya görə, dünya əhalisinin dörddəbiri, yəni 2,2 milyarddan çox insan su qıtlığından əziyyət çəkir. Bu çatışmazlığı aradan qaldırmaq üçün dəniz suyunun duzsuzlaşdırılması, yağış suyunun təkrar istifadəsi və tullantı sularının təmizlənərək suvarmada tətbiqi kimi alternativ su mənbələrinin əldə olunması istiqamətində innovativ həllər su problemində istifadə olunur. Ölkəmizdə də artıq bu yeniliklərə start verilir. İnnovativ resurs idarəçiliyi modelinə keçid edilir".



Deputat qeyd edib ki, alternativ su mənbəyi kimi dəniz suyunun duzsuzlaşdırılması və istifadəsi ekoloji tarazlığın qorunmasına və su təhlükəsizliyinin təmin edilməsinə bir neçə mühüm istiqamətdə təsir göstərir. İlk öncə bu, təbii su mənbələri üzərindəki yükün azaldılması deməkdir. Qlobal iqlim dəyişmələri və yağıntıların azalması səbəbindən ölkəmizin Şollar, Xaçmaz və Kür kimi ənənəvi su mənbələrinin məhsuldarlığında azalma tendensiyası müşahidə olunur. Dəniz suyunun duzsuzlaşdırılması vasitəsilə illik 100 milyon kubmetr əlavə suyun istehsalı tükənən təbii mənbələrdən və yeraltı sulardan asılılığı azaldaraq həmin ekosistemlərin qorunmasında və su resurslarının mühafizəsində mühüm rol oynaya bilər. "Digər tərəfdən, Xəzərə axıdılan suyun 100 faiz təmizlənməsi ilə də götürülən su dövr edərək geri qayıdacaq. Xəzər dənizində suyun duzluluğunun az olması prosesi asanlaşdıran amildir. Bundan həm məişətdə, həm də kənd təsərrüfatında suvarma məqsədləri ilə istifadə ediləcək. İkincisi, iqlim risklərinin neytrallaşdırılması - mitiqasiya tədbirləridir", - deyə deputat əlavə edib.

P.Vəliyeva bildirib ki, iqlim dəyişmələri nəticəsində yaranan su qıtlığı risklərini aradan qaldırmaq üçün alternativ su mənbələrinin istifadəyə verilməsi su təminatını daha dayanıqlı və iqlim amillərindən az asılı vəziyyətə gətirərək ölkədə ekoloji dayanıqlığı dəstəkləyəcək. Dövlət Proqramında alternativ su mənbələrindən istifadə zamanı ətraf mühitə yarana biləcək mənfi təsirləri minimuma endirmək məqsədilə xüsusi ekoloji təsir qiymətləndirmələrinin aparılması nəzərdə tutulur. Bu, həm dəniz ekosisteminin qorunmasına, həm də təmizləmə texnologiyalarının müasir ekoloji standartlara uyğunlaşdırılmasına xidmət edir.

Deputat deyib ki, proqram çərçivəsində Bakı, Sumqayıt, Xırdalan və digər 64 yaşayış məntəqəsində su təchizatında fasiləsizlik səviyyəsinin 95 faizə çatdırılması, 12 yeni kollektorun tikintisi, 3 mövcud kollektorun bərpası və 9 yeni tullantı sutəmizləyici qurğunun inşası, 28 yeni su anbarının tikintisi və içməli suyun zərərsizləşdirilməsi sistemlərinin tam müasirləşdirilməsi hədəflənir: "Dövlət proqramında Sumqayıt Duzsuzlaşdırma Qurğusundan Ceyranbatan su anbarına qədər yeni bir magistral kəmərin tikintisi nəzərdə tutulur. Bu kəmər vasitəsilə emal olunmuş su mövcud paylayıcı sistemə inteqrasiya ediləcək. Beləliklə, bu 10 illik proqramın reallaşması Bakı və Abşeronun su infrastrukturunu köhnəlmiş və qəzalı vəziyyətdən çıxararaq, "ağıllı", itkisiz su sistemləri olaraq ölkənin həm iqtisadi inkişafını sığortalayacaq, həm də əhalinin həyat keyfiyyətini yüksəldəcək".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# 39-cu SES

## Bu su-elektrik stansiyaları düşmənin 30 il qaranlıqda saxladığı əraziləri işıqlığa çıxarıb



Qarabağın və Şərqi Zəngəzurun bolsulu çayları sayəsində ölkəmizin su ehtiyatlarının əhəmiyyətli bir hissəsi də məhz burada cəmləşib. Bu regionların zəngin su ehtiyatları var. Qarabağ iqtisadi rayonu 831,7 milyon kubmetr, Şərqi Zəngəzur iqtisadi rayonu isə 1622,6 milyon kubmetr çay suları ehtiyatına malikdir. Bu, ümumilikdə 2350 milyon kubmetrdir (2,35 milyard kubmter) və ölkənin daxili su ehtiyatlarının 24 faizini əhatə edir.

Bol suyun olması əhalinin və iqtisadiyyatın bu həyativacib nemətlə yaxşı təchiz olunması deməkdir. Bu, həmçinin su-elektrik stansiyalarının (SES) tikintisinə geniş imkan yaradır. Yəni su həm də işıqdır. İşğaldan azad olunmuş ərazilərimizdə indiyədək tikilib istifadəyə verilən bu tipli stansiyalalar 30 il düşmənin zülmətə qərq etdiyi yurd yerlərimizi nura boyayıb.

Bu stansiyalar Prezident İlham Əliyevin "yaşıl enerji" zonası elan etdiyi Qarabağ və Şərqi Zəngəzurda qarşıya qoyulan hədəfə çatmaq istiqamətində görülən işlərin mühüm bir hissəsidir.

Dövlətimizin başçısı bu günlərdə Ağdərə rayonuna səfəri çərçivəsində Qozlukörpü kəndində eyniadlı su-elektrik stansiyasının açılışında iştirak edib. "Qozlukörpü" işğaldan azad edilmiş ərazilərimizdə itifadəyə verilən sayca 39-cu su-elektrik stansiyasıdır.

Bu ərazilərdə istismar olunan 307 MVt gücündə 38 su-elektrik stansiyasında ötən il 750 milyon kilovat-saat "yaşıl enerji" istehsal edilib. Bununla da 160 milyon kubmetr təbii qaza qənaət olunub, 280 min ton karbon qazının atmosferə atılmasının qarşısı alınıb. Qaldı ki, regionun ən iri su arteriyası olan Tərtərçay üzərində inşa edilmiş "Qozlukörpü" Su-Elektrik Stansiyasına, onun gücü 14,7 meqavatdır.

Adətən, sərt relyef, çətin iqlim şəraiti və mürəkkəb logistika tikinti prosesi üçün digər bölgələrlə müqayisədə daha çox vaxt tələb edir. Lakin bunlara baxmayaraq, sözügedən layihə qısa müddətdə uğurla icra olunub. Dəniz səviyyəsindən 955 metr yüksəklikdə müasir baş suqəbuledici qurğu yaradılıb. Bütün texniki və ekoloji amillər nəzərə alınmaqla inşa edilən bu qurğudan stansiyaya suyun ötürülməsi üçün çətin dağlıq ərazidə 13 kilometr uzunluğunda derivasiya borusu çəkilib. Burada ölkədə ilk dəfə olaraq müasir enerji istehsalında istifadə edilən qurğular quraşdırılıb. Onlar azsulu dövrlərdə 25 faiz, bolsulu dövrlərdə isə 100 faiz məhsuldarlıqla fasiləsiz işləyə bilir.

Bununla yanaşı, müəyyən edilib ki, Tərtərçayın hidroenerji potensialı 30 SES-dir. Hazırda 22 SES "AzərEnerji" ASC tərəfindən istismardadır, beşinin tıkintisi aparılır, üçünün isə inşası nəzərdə tutulur. Qeyd edək ki, Tərtərçay tamamilə ölkə daxilində formalaşır.

Yeni stansiyanın ölkə enerjisisteminə qoşulması üçün açıq paylayıcı qurğu yaradılıb, həmçinin optik kabel xətti çəkilərək stansiya rəqəmsal idarəetmə sisteminə inteqrasiya olunub. Burada il ərzində orta hesabla 43 milyon kilovat-saat elektrik enerjisinin istehsalı nəzərdə tutulur ki, bununla da 9,5 milyon kubmetr təbii qaza qənaət ediləcək, 18 min ton karbon qazının atmosferə atılmasının qarşısı alınacaq.

Bu layihə çərçivəsində həm də ətraf mühit amili diqqət mərkəzində olub. Məsələn, çay balıqlarının derivasiya borusuna daxil olmasının qarşısını alınmaq üçün xüsusi hidrotexniki qurğular tikilib. Bu, zərərli maddələrin suya qarışmasının da qarşısını alır və onun keyfiyyət göstəricilərində heç bir dəyişiklik etmədən aşağı axarda yenidən çaya qaytarır. Müvafiq texnoloji avadanlıqlardan istifadə çay ekosisteminin dayanıqlığını təmin etməklə yanaşı, su ehtiyatının formalaşmasına da töhfə verəcək.

Xatırladaq ki, bundan əvvəl - keçən ilin avqust ayında Kəlbəcərdə üç yeni kiçik su-elektrik stansiyası (KSES) istifadəyə verilib. Dövlətimizin başçısı rayonun Vəng kəndində "AzərEnerji" ASC-nin "Aşağı Vəng", "Nadirxanlı" və "Çaykənd" kiçik su-elektrik stansiyalarının açılışını edib. Bununla da təkcə Kəlbəcərdə "yaşıl enerji" obyektlərinin sayı 11-ə çatıb.

Yaxın gələcəkdə Qarabağda və Şərqi Zəngəzurda daha böyük "yaşıl enerji" obyektləri istifadəyə veriləcək. Məsələn, indi Cəbrayıl rayonunda BP şirkətinin tikdiyi 240 meqavatlıq "Şəfəq" Günəş-Elektrik Stansiyasında işlər qrafik üzrə irəliləməkdədir. Deməli, bu yerlərin işığı daha bol olacaq və ondan bütün ölkəyə də pay düşəcək.

Bu il yanvarın 5-də dövlətimizin başçısının yerli televizya kanallarına verdiyi müsahibədə dediyi kimi: "Biz bu bölgələri canlandırmaq üçün gərək bağlantılar, enerji təminatı yaradaydıq. Bu işlə məşğul olduq və azad edilmiş bütün bölgələri mərkəzlə, mərkəzi infrastrukturla faktiki olaraq birləşdirdik. Enerji sistemi - dairəvi enerji sistemi quruldu və bu gün mərkəzdən oraya yox, oradan mərkəzə enerji daxil olur. Çünki biz beş il ərzində 307 meqavat gücündə su-elektrik stansiyaları yaratmışıq və əlbəttə ki, azad edilmiş bölgələrdə istehlak qat-qat aşağıdır. Ona görə biz bu dairəvi sistemi yaratmaqla bu gün enerji axınını ölkə üzrə lazımi səviyyədə bölə bilərik".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Su ilə təminatın 95 faizə çatdırılması əsas məqsəddir

## Bu, 2026-2035-ci illəri əhatə edən dövlət proqramında əksini tapıb

**Azərbaycan son illərdə ölkənin su ilə təminatı istiqamətində mühüm və strateji əhəmiyyətli layihələr həyata keçirib. Ölkəmizdə bir sıra su anbarları tikilərək istifadəyə verilib ki, onlardan Şəmkirçay, Taxtakörpü və digərlərini misal göstərmək olar. Ümumilikdə ölkəmizdə mövcud olan su anbarlarının tutumu təxminən 500 milyon ton təşkil edir və bu da Azərbaycana təxminən 70 faiz su ilə təminat öhdəliyini yerinə yetirilməsinə imkan verir.**



Qarşıdakı dövrdə bu istiqamətdə daha böyük və genişmiqyaslı layihələrin icrasının hədəfləndiyini deyən Milli Məclisin deputatı Aydın Hüseynov qəzetimizə açıqlamasında bildirib ki, Bakı, Sumqayıt və Abşeron ərazisində əhalinin su təchizatının gücləndirilməsi, eyni zamanda yağış sularının və kanalizasiya sistemlərinin yenidən qurulması prioritetlər sırasındadır. "Ölkənin su təchizatının daha da artırılması üçün əlavə mənbələrə ehtiyac yaranır və bu baxımdan Xəzər dənizinin suyunun duzsuzlaşdırılması layihəsinin icrası mühüm əhəmiyyət daşıyır. Bu layihə hesabına su təminatının daha da artacağı gözlənilir. Eyni zamanda yağış sularının səmərəli istifadəsi üçün də konkret addımların atılması nəzərdə tutulur. Bu məqsədlə Bakının 33 küçəsində yağış sularının toplanması, saxlanması və istifadəsi ilə bağlı tədbirlərin həyata keçirilməsi planlaşdırılır. Bütövlükdə bu proseslər 2026-2035-ci illəri əhatə edən dövlət proqramı çərçivəsində öz həllini tapacaq", - deyə o bildirib.

Deputat qeyd edib ki, proqram sayəsində yeni bir yanaşma ortaya qoyulacaq, innovativ tədbirlərin tətbiqi, sayğacların quraşdırılması və təmin olunması genişləndiriləcək. Digər tərəfdən, maliyyə mənbələri ilə bağlı hər hansı problem yoxdur, çünki Azərbaycan bu layihələri öz gücü hesabına reallaşdıra bilər. Bununla yanaşı, ölkənin xarici borcunun az və strateji valyuta ehtiyatlarının kifayət qədər olması xarici kreditlərin cəlb olunması baxımından da Azərbaycanın qarşısında hər hansı bir məhdudiyyət yaratmır. Bir çox beynəlxalq maliyyə institutları Azərbaycanı kreditlə təmin etməyə hazırdır.

A.Hüseynov deyib ki, əhalinin sayının, sənaye müəssisələrinin çoxaldığı bir halda su təchizatının yüksək səviyyədə təmin olunması əsas hədəflərdən biridir: "Digər tərəfdən, Qarabağ və Şərqi Zəngəzur bölgələrində böyük su ehtiyatlarımız mövcuddur və həmin ehtiyatlardan səmərəli istifadə olunması qarşıya məqsəd kimi qoyulub. Qarabağda yerləşən Həkəri çayı hövzəsində, eləcə də Füzuli və Laçın rayonlarının Zabux ərazisində yeni su anbarlarının tikintisi nəzərdə tutulur. Bu layihələr həm əhalinin su ilə təmin olunmasına, həm də kənd təsərrüfatı təyinatlı layihələrin, o cümlədən suvarma sistemlərinin həyata keçirilməsinə xidmət edəcək".

Deputat vurğulayıb ki, qarşıdakı 10 ili əhatə edən dövrdə ölkə üzrə su ilə təminat səviyyəsinin 95 faizə çatdırılması əsas məqsəd kimi müəyyən edilib.

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# İlin uğurlu yekunları

## 2025-ci il Azərbaycanın tarixində növbəti uğurlu dövr oldu

**Geridə qoyduğumuz 2025-ci il qlobal siyasi və iqtisadi müstəvidə müxtəlif hadisələrlə yadda qaldı. Dövlətlər ötən ili bir-birindən fərqli atmosferdə başa vurdular. Onlardan bir qismi müharibənin, bir hissəsi terrorun, bəziləri isə daxili siyasi çəkişmələrin, iqtisadi böhranların, problemlərin ağrı-acısını yaşadı.**

Azərbaycana gəldikdə, respublikamız 2025-ci ili əvvəlki illər kimi uğurla başa vurdu. Bu dövrdə respublikamızın qarşısında dayanan əsas siyasi və iqtisadi vəzifələr yüksək səviyyədə yerinə yetirildi. İlin yekunları onu söyləməyə bir daha əsas verir ki, Azərbaycan öz milli maraqlarını qətiyyətlə təmin edən və qarşısına qoyduğu bütün məqsədlərə inamla çata bilən dövlətdir. Bu baxımdan, 2025-ci il Azərbaycanın tarixində növbəti uğurlu dövr kimi yadda qaldı.

### İlham ƏLİYEV: "Xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas amilidir"

Öncə onu qeyd edək ki, hər bir ölkənin inkişafında və qarşısına qoyduğu məqsədlərə çatmasında ən əsas amil ictimai-siyasi sabitlikdir. Sabitlik olmayan yerdə nə inkişaf baş verir, nə də dövlətin funksiyaları və qarşısında dayanan vəzifələr yerinə yetirilir. Planetimizin siyasi mənzərəsi göstərir ki, bir sıra dövlətlər qeyri-sabitlikdən, siyasi burulğanlardan konstitusion hüquqların tapdalanmasından əziyyət çəkirlər. Hazırda müxtəlif coğrafiyalarda ayrı-ayrı səbəblərdən hərbi münaqişələr, müharibələr, hərbi böhranlar hökm sürür. Təəssüflə qeyd edilməlidir ki, Azərbaycanın qələbə ilə başa çatdırdığı Qarabağ savaşı istisna olmaqla, dünyanın heç bir yerində hansısa münaqişəni tam şəkildə həll etmək mümkün olmamışdır. Nəticə etibarilə bütün bunlar dövlətlərin tarixində və taleyində sağalmaz yaraya çevrilir, onların xalqlarına böyük mənəvi zərbə vurur, vətəndaşları sonugörünməyən məhrumiyyətlərlə üz-üzə qoyur.

Bu gün Azərbaycana yaxın coğrafiyalarda da siyasi-hərbi böhranlar yaşanır. Ayrı-ayrı ölkələrin sabitliyi dərin təlatümlərlə üz-üzə qalmaqdadır. Yaxın Şərqdə baş verənlər sabitliyin nə qədər böyük sərvət olmasından xəbər verir. Bütün bunlar həm də onu təsdiq edir ki, hər bir dövlətin qarşısında dayanan prioritet milli məsələlərdən biri sabitliyin təmin olunmasıdır. Bu baxımdan Azərbaycana yalnız region miqyasında deyil, qlobal səviyyədə həsəd aparmaq olar. Azərbaycandakı siyasi-ictimai sabitlik, əmin-amanlıq və təhlükəsizlik digər dövlətlər üçün sözün bütün mənalarında nümunədir. Ulu Öndər Heydər Əliyevin bərqərar etdiyi, cənab Prezident İlham Əliyevin isə qoruduğu və daha da möhkəmləndirdiyi sabitlik respublikamızın inkişafının təməlində dayanan əsas siyasi faktorlardan biridir. Bu baxımdan, 2025-ci ilin uğurlu göstəricilərindən bəhs edərkən öncə respublikamızdakı sabitliyi və xalq-iqtidar birliyini xüsusi qeyd etməliyik. Təsadüfi deyil ki, Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində ilk olaraq bu barədə danışdı, ötən il xalqımızın sülh, təhlükəsizlik və əmin-amanlıq şəraitində yaşadığını bildirdi: "2025-ci il arxada qaldı. Bu il də ölkəmiz üçün, xalqımız üçün uğurlu il olmuşdur. Azərbaycan xalqı sülh, təhlükəsizlik, əmin-amanlıq şəraitində yaşamışdır. Xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas amilidir".

Respublikamızdakı xalq-iqtidar birliyi möhkəm və sarsılmaz təməllər üzərində formalaşıb. Bu isə öz növbəsində sabitliyi, əmin-amanlığı və təhlükəsizliyi şərtləndirən amil kimi özünü göstərir.

### Azərbaycanın qətiyyətinə söykənən sülh prosesi

Qarşıda dayanan ümummilli vəzifələr baxımından 2025-ci ildə Azərbaycan dövlətinin nail olduğu ən böyük siyasi uğur avqust ayında Vaşinqtonda "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş"in layihəsinin mətninin paraflanmasıdır. Bu hadisə göstərdi ki, döyüş meydanında zəfəri təmin edən cənab Prezident İlham Əliyev bu prosesin davamı olaraq sülhü bərqərar edir.

Bu il yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində bu barədə danışan cənab Prezident İlham Əliyev 2025-ci ildə Ermənistan-Azərbaycan müharibəsinə siyasi nöqteyi-nəzərdən son qoyulduğunu bildirərək deyib: "Artıq biz bir neçə aydır ki, sülh şəraitində yaşayırıq. Sülh şəraitində yaşamaq nə deməkdir, bunu öyrənirik. Çünki müstəqillik əldə ediləndən sonra, hətta ondan da əvvəl Azərbaycan xalqı və dövləti müharibə şəraitində yaşamışdır. Müharibənin müxtəlif mərhələləri olub. Siz də bunu yaxşı xatırlayırsınız. Həm müharibənin fəal mərhələsi, atəşkəs mərhələsi, İkinci Qarabağ müharibəsi, antiterror əməliyyatı, ondan sonrakı dövr və bütün bu hadisələrə keçən ilin avqustunda son qoyuldu. Yəni Azərbaycan döyüş meydanında əldə etdiyi parlaq Qələbəyə siyasi müstəvidə və qeyd etdiyim kimi, dünyanın birnömrəli ofisində siyasi möhür vurdu. Bu, təbii ki, müstəqillik tariximizdə yaddaqalan hadisələrdən biri olacaq, bəlkə də birincilər sırasında olacaq. Bu nöqteyi-nəzərdən keçən ili ölkəmiz üçün, xalqımız üçün çox uğurlu və tarixi il saymaq olar və əminəm ki, bundan sonra Azərbaycan xalqı sülh şəraitində yaşayacaq".

Azərbaycanın başlatdığı sülh prosesinin nəticəsi olaraq ötən ilin avqustunda Vaşinqtonda digər razılaşmalar da əldə olundu ki, bunlardan biri ATƏT-in Minsk qrupunun ləğvidir. Minsk qrupunun ləğvi yekun sülh sazişinin imzalanması üçün Azərbaycanın iki şərtindən biri idi. Bu baxımdan, ötən ilin avqust ayında ATƏT-in Minsk prosesinin, ATƏT-in fəaliyyətdə olan sədrinin Minsk konfransının müzakirəsində olan münaqişə üzrə şəxsi nümayəndəsi və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun bağlanması barədə ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciətin imzalanması Azərbaycanın mühüm siyasi-diplomatik uğuru oldu. Beləliklə, Ermənistan uzun müddət ATƏT-in Minsk qrupunun hüquqi ləğvinə qarşı direniş göstərsə də, Azərbaycanın qətiyyətli və prinsipial mövqeyi qarşısında geri çəkilməli oldu.

ATƏT Nazirlər Şurası tərəfindən ötən ilin sentyabrın 1-də qəbul olunan Minsk prosesi və əlaqəli strukturlarının bağlanmasına dair qərara əsasən sözügedən strukturların bağlanmasından irəli gələn təşkilati və texniki məsələlərin 1 dekabr 2025-ci il tarixindən gec olmayaraq yekunlaşdırılması ATƏT Katibliyinə tapşırılmışdı. Dekabrın 1-də bu barədə ATƏT tərəfindən verilən açıqlamada qeyd olundu ki, ATƏT Nazirlər Şurasının 1 sentyabr 2025-ci il tarixində qəbul edilmiş qərarına uyğun olaraq, 30 noyabr 2025-ci il tarixində saat 23:59-da Minsk prosesinin və onun əlaqədar strukturlarının bağlanması yekunlaşdı.

Minsk prosesinə hüquqi müstəvidə son qoyulması o deməkdir ki, tarixin Qarabağ savaşı səhifəsi bağlanıb. Başqa cür desək, keçmişdə qalmış Qarabağ məsələsini artıq müzakirə edəcək hər hansı bir siyasi mexanizm və ya format yoxdur. Sülh sazişi layihəsinin mətninin paraflanması ilə yanaşı, bu hadisə 2025-ci ildə Azərbaycanın aktivinə yazılan daha bir mühüm hadisə oldu. Hazırda yekun sülh sazişinin imzalanması üçün Azərbaycanın yeganə şərti Ermənistan konstitusiyasından Azərbaycana qarşı olan ərazi iddialarının çıxarılmasıdır. Bu, Ermənistanın qarşısında duran əsas ev tapşırığıdır. Vaşinqtonda paraflanan və mətni razılaşdırılan sülh sazişi Azərbaycanın tələbi yerinə yetirildikdən sonra istənilən vaxt imzalana bilər.

Azərbaycan və ABŞ prezidentlərinin və Ermənistanın baş nazirinin Vaşinqtonda keçirilən görüşünün nəticəsi olaraq Azərbaycan və Ermənistan liderləri tərəfindən, habelə şahid qismində ABŞ Prezidenti tərəfindən imzalanan Birgə Bəyannamədə sülh sazişi ilə bağlı əldə olunan bütün razılaşmalar hüquqi baxımdan təsbit olundu. Və bu sənədin məzmunu bütövlükdə Azərbaycanın irəli sürdüyü sülh gündəliyini özündə tam ehtiva etdi. Bu sənəddə Azərbaycanla Ermənistan arasında ölkədaxili,



ikitərəfli və beynəlxalq nəqliyyatın təmini məqsədilə kommunikasiyaların açılması ilə bağlı müddəanın yer alması, yəni Zəngəzur dəhlizinin açılması ilə bağlı razılaşmanın əldə edilməsi respublikamızın daha bir milli prioritetinin həyata vəsiqə almasının göstəricisidir.

Vaşinqtonda sülh sazişinin paraflanmasını və əldə olunan digər razılaşmanı birləşdirən ən mühüm siyasi faktor isə Azərbaycan dövlətinin Vətən müharibəsi və antiterror tədbirlərinin nəticəsi olaraq regionda yaratdığı yeni reallıqların beynəlxalq səviyyədə tam qəbul edilməsidir. Hətta Vaşinqton Zirvəsindən sonra vaxtilə Ermənistanın qatı təəssübkeşi kimi çıxış edən siyasi mərkəzlərin belə Azərbaycanın yaratmış olduğu reallıqları tanımaqdan başqa yolu qalmadı. Beləliklə, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli siyasi diplomatiyası nəticəsində dünya ictimaiyyəti Azərbaycanın təməlində ədalət və beynəlxalq hüquq prinsipləri dayanan qələbələrini qəbul edir. Bütün bunlar həm də ondan xəbər verir ki, rəsmi Bakının regionda sülhün, təhlükəsizliyin və sabitliyin gücləndirilməsi istiqamətində beynəlxalq hüququn normalarına söykənən ardıcıl və prinsipial mövqeyi beynəlxalq miqyasda təqdir olunur.

Prezident İlham Əliyevin ötən ilin avqustunda Vaşinqtona etdiyi səfərin əsas siyasi hadisələrindən biri də Azərbaycan-ABŞ münasibətlərinin yeni mərhələyə yüksəldilməsinə xidmət edən razılaşmalar oldu. ABŞ-nin əvvəlki administrasiyası məqsədli şəkildə iki ölkə arasındakı münasibətlərin tarixdə görünməmiş dərəcədə pisləşməsinə səbəb olmuşdu. Donald Tramp ABŞ Prezidenti seçilməsindən sonra əvvəlki administrasiyanın yanlış siyasətindən imtina etdi və bununla da Bakı ilə Vaşinqton arasında siyasi əlaqələrin müsbətə doğru dəyişməsi istiqamətində yeni imkanlar açıldı. Ötən ilin avqustunda Vaşinqtonda "Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu"nun imzalanması hər iki tərəfin münasibətlərin inkişafı ilə bağlı siyasi iradəsini nümayiş etdirdi. Prezident İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində bildirib ki, Azərbaycanla Amerika arasındakı əlaqələr çox praktik və nəticəyə hesablanmış istiqamətdə cərəyan edir: "Oktyabr ayından bu yana mənim tərəfimdən Amerikaya nazirlərdən və özəl sektor nümayəndələrindən, digər məsul şəxslərdən ibarət dörd rəsmi heyət ezam edilmişdir. Demək olar ki, əsas istiqamətlər üzrə strateji xartiyanın hazırlanması və qarşılıqlı sərmayə qoyuluşu, onun təşkili və münasibətlərimizin iqtisadiyyat, ticarət, nəqliyyat, hərbi-sənaye istiqamətlərinin əhatə edilməsi məsələləri müzakirə olunur. Yəni ümidlərimiz böyükdür, nəticələr də kifayət qədər təsirlidir. Ona görə bu nöqteyi-nəzərdən 2025-ci ili təbii ki, çox uğurlu və tarixi il saymaq olar".

### Mütərəqqi xarici siyasət kursu

Ötən il Azərbaycanın xarici siyasəti üçün mühüm uğurlarla yadda qaldı. Bu sırada Çin Xalq Respublikası ilə əlaqələrin strateji səviyyəyə yüksəldilməsi xüsusi qeyd edilməlidir. Hələ 2024-cü ilin iyul ayında Qazaxıstanın paytaxtı Astanada keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısı zamanı Azərbaycanla Çin arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamənin imzalanması iki dövlət arasındakı münasibətlərdə strateji tərəfdaşlığın əsasını qoyub.

2025-ci ilin aprelində isə bu ölkə ilə strateji tərəfdaşlıqda yeni hüquqi qərarlar qəbul edildi. Belə ki, həmin vaxt Prezident İlham Əliyevin Çin Xalq Respublikasına etdiyi dövlət səfəri zamanı imzalanan "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat" iki dövlətin strateji tərəfdaşlığını tamamilə yeni səviyyəyə yüksəltdi. Bu sənədə əsasən, Azərbaycanla Çin öz maraqlarının, suverenliklərinin, təhlükəsizliklərinin və ərazi bütövlüklərinin qorunmasında bir-birinə qətiyyətli dəstək verirlər. Azərbaycan dünyada yalnız vahid bir Çinin mövcudluğunu, Tayvanın Çin ərazisinin ayrılmaz tərkib hissəsi olduğunu, ÇXR hökumətinin bütün Çini təmsil edən yeganə qanuni hökumət olduğunu tanıyır. Öz növbəsində Çin Azərbaycanın sülh gündəliyini qətiyyətlə dəstəkləyir və qarşıdurmaya yönəlmiş geosiyasi oyunları qeyri-məhsuldar hesab edir.

Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində bu barədə deyib: "Mən hesab edirdim ki, böyük əhəmiyyət daşıyan hadisələrdən biri də bizim Çinlə olan strateji tərəfdaşlığımızdır. Keçən il mənim Çinə dövlət səfərim zamanı Hərtərəfli strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalanmışdır və bu da çox böyük uğur sayıla bilər. Çünki Çin də dünyada aparıcı ölkələrdən biridir və bu siyasi çərçivə, siyasi platforma, əlbəttə ki, bizim uğurlu diplomatiyamızın təzahürü sayıla bilər".

Respublikamızın İqtisadi Əməkdaşlıq Təşkilatına (D-8) üzv qəbul edilməsi də ötən il Azərbaycanın tarixinə mühüm nailiyyət kimi həkk olundu. Milli Məclis tərəfindən qəbul olunan "İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının Nizamnaməsi"nə qoşulmaq haqqında Azərbaycan Respublikasının Qanunu ötən il martın 15-də Prezident İlham Əliyev tərəfindən təsdiq edildi. Bununla da Azərbaycan 2012-ci il noyabrın 22-də İslamabadda imzalanmış D-8 Nizamnaməsinə rəsmən qoşuldu.

1996-cı ildə yarandıqdan sonra bu təşkilata əlavə üzv qəbul edilməyib. Azərbaycanın bu təşkilata üzv qəbul edilməsi isə ölkəmizin nüfuzunu, eyni zamanda beynəlxalq aləmdə rolumuzun yüksək olduğunu göstərir. D-8 təşkilatına üzvlük Azərbaycan üçün perspektivdə çox böyük strateji və iqtisadi imkanlar yaradır, ticarət dövriyyəmizin daha da genişləndirilməsi baxımından mühüm önəm daşıyır.

2025-ci ilin daha bir siyasi hadisəsi Azərbaycanın Mərkəzi Asiya ölkələrinin Məşvərət Şurasının da tam hüquqlu üzvü seçilməsi oldu. Bu hadisə bir daha Azərbaycanın regional və qlobal səviyyədə aparıcı rolunun növbəti təsdiqinə çevrildi.

Bütün bunlarla yanaşı, ötən il Prezident İlham Əliyevin Nyu Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyasında, Kopenhagendə "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında, ABŞ Prezidenti Donald Trampın və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə Yaxın Şərq Sülh Sammitində, habelə Çinə işgüzar səfəri və "ŞƏT plyus" formatında keçirilən görüşdə iştirakı Azərbaycanın xarici siyasətinə ardıcıl həkk olunan mühüm uğurlar oldu.

Bütün bunlarla yanaşı, 2025-ci ildə respublikamız Azərbaycan Prezidenti İlham Əliyevin, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Pakistan Baş naziri Məhəmməd Şahbaz Şərifin Zirvə Görüşünə, XII Qlobal Bakı Forumuna, İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşünə, Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşünə və digər mötəbər beynəlxalq tədbirlərə evsahibliyi etdi. Hər bir tədbir Azərbaycanın yüksəlişinin təntənəsinə çevrildi, zəfərimizi və digər nailiyyətlərimizi dünyaya bəyan etdi.

### 2025-ci ildə Böyük qayıdış sürətlə davam etdi

Vətən müharibəsindən sonra Azərbaycanın əsas milli prioritetlərindən biri Qarabağ və Şərqi Zəngəzurun bərpası, keçmiş məcburi köçkünlərin doğma el-obalarına qayıdışıdır. Ötən 5 ildə bu sahədə görülən işlər olduqca qürurvericidir. İşğaldan azad edilmiş bütün şəhər və rayonlarımızda aparılan bərpa və quruculuq işləri bir daha Azərbaycan dövlətinin qüdrətini dünyaya nümayiş etdirir.

Prezident İlham Əliyev 2025-ci il yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində bildirmişdi: "Bu il üçün bizim planlarımızda daha 20-yə yaxın yaşayış məntəqəsinə keçmiş köçkünləri qaytarmaqdır. O şəhər və kəndlərin adları artıq seçilib, layihələr icra edilir. Bir çox kəndlərdə, şəhərlərdə indi inşaat işləri gedir və bu ilin sonuna qədər 30-a yaxın yaşayış məntəqəsində keçmiş köçkünlər məskunlaşacaqlar. Biz əsas infrastruktur layihələrini yəqin ki, bir-iki ilə başa çatdıracağıq".

Prezident İlham Əliyevin rəhbərliyi və Birinci vitse-prezident Mehriban Əliyevanın yaxından iştirakı ilə işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri 2025-ci ildə də sürətlə davam etdirildi. Statistika göstərir ki, Qarabağ və Şərqi Zəngəzurun bərpası və keçmiş məcburi köçkünlərin doğma evlərinə qayıdışı ilə bağlı qarşıya qoyulan vəzifələr ötən il yüksək səviyyədə icra olunub. İl ərzində Qarabağ və Şərqi Zəngəzurda köç prosesi daha da intensivləşərək yeni yaşayış məntəqələrini əhatə edib. Belə ki, bu dövrdə 22 yeni yaşayış məntəqəsinə - 2 şəhər, 3 qəsəbə və 17 kəndə köç olub, Kəlbəcər və Ağdam şəhərləri, Qırmızı Bazar və Hadrut qəsəbələri, Ağdərə rayonunun Həsənriz, Suqovuşan, Kolatağ, Vəngli, Ağdam rayonunun Sarıcalı, Kəngərli, Laçın rayonunun Bəylik, Ağdam rayonunun Xıdırlı, Cəbrayıl rayonunun Horovlu, Xankəndi şəhərinin Kərkicahan, Zəngilan rayonunun Məmmədbəyli, Xocavənd rayonunun Sos, Xocalı rayonunun Xanyurdu, Təzəbinə, Şuşakənd, Badara, Seyidbəyli, Daşbulaq kəndləri sakinlərinə qovuşub.

İndiyə qədər 24 mindən çox keçmiş məcburi köçkün Qarabağ və Şərqi Zəngəzura qayıdıb. Ümumilikdə isə işğaldan azad edilmiş ərazilərimizdə 70 minə yaxın vətəndaşımız yaşayır. "Biz Böyük qayıdış proqramını uğurla icra edirik və işğaldan azad edilmiş ərazilərdə bu gün böyük quruculuq işləri aparılır və artıq 70 minə yaxın insan orada yaşayır, çalışır, təhsil alır. Keçmiş köçkünlər 32 kənd, qəsəbə və şəhərdə yerləşiblər və onlar üçün ən gözəl şərait yaradılmışdır", - deyə Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində bildirib.

### Bu il nailiyyətlərimizin miqyası daha əzəmətli olacaq

2025-ci il respublikamızın iqtisadi və sosial həyatı üçün də müsbət məqamlarla yadda qaldı. Belə ki, ötən il ərzində mürəkkəb qlobal iqtisadi proseslər fonunda Azərbaycan iqtisadiyyatında inkişaf və makroiqtisadi sabitlik davam etdi. Qeyri-neft sektorunun iqtisadi artımın əsas mənbələrindən birinə çevrilməsi istiqamətində keçirilən islahatlar yeni nəticələr verdi, investisiya fəallığı yüksək səviyyədə oldu. Bu baxımdan, əvvəlki illərdə olduğu kimi, ötən il də respublikamızın sosial-iqtisadi inkişafının davamlı olması, əhalinin rifah halının daha da yaxşılaşdırılması, ölkənin beynəlxalq nüfuzunun əhəmiyyətli dərəcədə yüksəldilməsi, milli və dövlətçilik maraqlarının təmin olunması baxımından mühüm mərhələ oldu.

Statistik rəqəmlər də təsdiq edir ki, 2025-ci ildə ölkədə makroiqtisadi sabitlik möhkəmlənib. İl ərzində xarici borcumuz azalıb, valyuta ehtiyatlarımız artıb, kredit reytinqləri investisiya səviyyəsinə yüksəlib. Belə ki, bu dövrdə Azərbaycanın xarici dövlət borcu 4,9 milyard ABŞ dollarına (ÜDM-in 6,4 faizi) enib. Valyuta ehtiyatlarımız isə 83,6 milyard ABŞ dollarına çataraq borcu 17 dəfə üstələyib. Qeyri-neft-qaz ÜDM-i 3,2 faiz, ixracı 7,3 faiz artıb, orta aylıq əməkhaqqı 9,4 faiz yüksəlib. Prezident İlham Əliyevin bildirdiyi kimi, nəhəng investisiya layihələrini və Qarabağın yenidən qurulmasını nəzərə alsaq, bu, həqiqətən iqtisadiyyatımızın güclü dayanıqlılığını nümayiş etdirir. Elə buna görə də beynəlxalq reytinq agentlikləri olan "Moody's" və "Fitch" Azərbaycanın kredit reytinqini investisiya dərəcəsinə qaldırıb.

Göründüyü kimi, 2025-ci il Azərbaycanın tarixində növbəti yüksəliş dövrü oldu. İl ərzində həyata keçirilən tədbirlər Azərbaycanın suverenliyinin real və dayanıqlı əsaslar üzərində möhkəmləndirildiyini nümayiş etdirdi. Bütün bunlar onu deməyə əsas verir ki, 2026-cı ildə nailiyyətlərimizin miqyası daha əzəmətli olacaq.

*Səttar MÖHBALIYEV,*
*Milli Məclisin deputatı*

## Azərbaycanın dünyada artan nüfuzunun təsdiqi

**Tarixi Zəfərimizin və suverenliyimizin bərpasının reallıqları fonunda Azərbaycanın beynəlxalq münasibətlər sistemində artan rolu göz qabağındadır. Ölkəmiz ayrı-ayrı dövlətlərlə istər ikitərəfli, istərsə də beynəlxalq təşkilatlar daxilində əlaqələrin inkişafına xüsusi önəm verir, yeni əməkdaşlıq formatlarının yaradılmasının müəllifi kimi çıxış edir.**



Bu gün regionda və dünya siyasətində yeni reallıqlar yarandığını deyən Milli Məclisin deputatı Vüqar Rəhimzadə "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, belə mürəkkəb, çoxqütblü mühitdə müstəqil və çevik xarici siyasət yürütmək, milli maraqları qlobal səviyyədə səmərəli şəkildə müdafiə etmək hər bir dövlət üçün xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın xarici siyasətinin dəyişməz prinsipləri hər zaman dünya birliyinin fəal üzvü kimi mövqeyinin möhkəmlənməsini şərtləndirir. "Ölkəmiz bütün dövlətlərlə bərabərhüquqlu, qarşılıqlı maraq və hörmət prinsipləri əsasında əlaqələr qurur, heç bir dövlətin daxili işinə müdaxilə etmir, eyni zamanda öz daxili işinə müdaxiləni yolverilməz hesab edir. Sabitlik, təhlükəsizlik, əməkdaşlıq çağırışları dövlətimizin xarici siyasətində xüsusi yer tutur", - deyə o deyib.

Deputat ötən ilin ən mühüm uğurlarından birinin Prezident İlham Əliyevin ABŞ-yə uğurlu səfəri olduğunu vurğulayarq əlavə edib ki, bu səfər həm Azərbaycan-Amerika ikitərəfli münasibətləri, həm də Azərbaycan-Ermənistan sülh gündəliyi, regional sabitlik və qlobal təhlükəsizlik kontekstində xüsusi əhəmiyyət kəsb edib. Birləşmiş Ştatların Prezidenti Donald Trampın dəvəti ilə gerçəkləşən səfər tarixi xarakter daşıdı. Azərbaycan ilə Birləşmiş Ştatlar arasında münasibətlər təkcə ənənəvi diplomatik əməkdaşlıq çərçivəsində inkişaf etməklə kifayətlənməyərək, eyni zamanda keyfiyyətcə yeni - strateji müttəfiqlik səviyyəsinə yüksəlir. Azərbaycanın təşəbbüsü ilə başlayan və irəliləyən sülh danışıqları öz məntiqi nəticəsini verir. Bunu Vaşinqtonda imzalanan "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş" də təsdiqləyir.

V.Rəhimzadə xatırladıb ki, Prezident İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində xarici siyasət sahəsində qazandığımız uğurlara da toxunub. Dövlət başçısı ötən ilin böyük əhəmiyyət daşıyan hadisələrdən biri kimi Çinlə olan strateji tərəfdaşlığımızı qeyd etdi: "Keçən il mənim Çinə dövlət səfərim zamanı Hərtərəfli strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalanmışdır və bu da çox böyük uğur sayıla bilər. Çünki Çin də dünyada aparıcı ölkələrdən biridir və bu siyasi çərçivə, siyasi platforma, əlbəttə ki, bizim uğurlu diplomatiyamızın təzahürü sayıla bilər". Beynəlxalq ictimaiyyət tərəfindən etibarlı tərəfdaş kimi qəbul edilən Azərbaycan qlobal güc mərkəzləri ilə siyasi və iqtisadi əlaqələrini uğurla inkişaf etdirir. Bu baxımdan, Çin Xalq Respublikası ilə Azərbaycanın yüksələn xətlə inkişaf edən əlaqələri mühüm əhəmiyyət kəsb edir. Azərbaycan-Çin strateji tərəfdaşlığı artıq qlobal əməkdaşlığa çevrilib. D-8 təşkilatına və Mərkəzi Asiya Məşvərət Şurasına tamhüquqlu üzv seçilməyimiz, Qəbələdə Türk Dövlətləri Təşkilatının Zirvə Görüşünün təşkili, dövlət başçısının xarici səfərləri, bir çox xarici dövlət, hökumət başçılarının Azərbaycana gəlmələri, ölkəmizdə keçirilən nüfuzlu beynəlxalq tədbirlər ötən ilin ən mühüm uğurları sırasındadır.

Deputat bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu xarici siyasət, qlobal güc mərkəzləri ilə qurulan əməkdaşlıq Azərbaycanın dünyada artan nüfuzunun, gücünün, geosiyasi çəkisinin təsdiqidir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## "Bənəniyar" su anbarını qidalandıran kanal yenidən qurulur

**"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq, Əlincəçaydan su götürən və Culfa rayonunun ərazisində yerləşən "Bənəniyar" su anbarını qidalandıran kanalın yenidən qurulması işləri həyata keçirilir.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, layihə çərçivəsində 6550 metr uzunluğunda kanal yenilənərək, 4850 metri beton kanal şəklində inşa ediləcək. Kanalın 1700 metrlik hissəsində isə diametri 1600 millimetr olan şüşə lifli borulardan istifadə olunmaqla, yeni xətt çəkiləcək.

Görülən işlər çərçivəsində 1700 metrlik kanalın tikintisi başa çatdırılıb. Hazırda sudurulducu qurğuda müvafiq işlər aparılır.

Layihə tam yekunlaşdıqdan sonra kanalın suötürmə qabiliyyəti saniyədə 5 kubmetrə çatdırılacaq. Yenidənqurma işlərinin 2027-ci ilin aprel ayında başa çatdırılması nəzərdə tutulur.

**"Uzun illərin həsrəti arxada qaldı, haqq-ədalət Zəfər çaldı. Azərbaycan öz ərazi bütövlüyünü, suverenliyini bərpa etdi. Azərbaycanlılar öz dədə-baba torpaqlarına qayıdıblar və burada qürurla yaşayacaqlar, xoşbəxt yaşayacaqlar, rahat yaşayacaqlar".**



# Qayıdışın mənəvi zəfəri

## Prezident İlham Əliyevin keçmiş məcburi köçkünlərlə səmimi görüşləri tarixi və unudulmaz anlarla yadda qalır

Prezident İlham Əliyevin yanvarın 13-də Ağdərə rayonunun Aşağı Oratağ kəndində Aşağı Oratağ, Çıldıran, Heyvalı və Çapar kəndlərinin sakinləri ilə görüşü zamanı dediyi kimi, illər boyu həsrəti ilə yaşadıqları doğma yurdlarına qovuşan keçmiş məcburi köçkünlər üçün bu günlərin hər biri tarixi və unudulmaz anlarla yadda qalır.

Ötən müddətdə keçmiş məcburi köçkünlər torpaq nisgili ilə yaşamağa məhkum oldular, maddi-mənəvi məhrumiyyətlər çəkdilər, çadırlarda, vaqonlarda, yataqxanalarda acınacaqlı şəraitlərdə yaşadılar, amma heç zaman yurda dönüş ümidlərini itirmədilər. Budur artıq bu insanlarımız bir zamanlar ağlaya-ağlaya tərk etdikləri yurdlarına, evlərinə sevinclə yenidən qədəm qoyurlar. Əziz qonaqlarını öz evlərində gülərüzlə qarşılayırlar.

### Həyat yenidən canlanır

2003-cü ildə Azərbaycana rəhbərliyə başladıqdan sonra Prezident İlham Əliyevin siyasətinin başlıca prioriteti torpaqlarımızın işğaldan azad edilməsi, suverenliyimizin bərpası və keçmiş məcburi köçkünlərin yurdlarına qayıdışı olub. O da təsadüfi deyildi ki, dövlətimizin başçısı işğal illərində diqqəti, qayğısı ilə daim bu insanlarımızın yanında olub. Mütəmadi olaraq həmin vətəndaşlarımızla görüşən ölkə rəhbəri onların problemləri ilə şəxsən maraqlanıb, həlli istiqamətində göstərişlər verib. Prezident İlham Əliyevin keçmiş məcburi köçkünlərlə olan bütün görüşlərində onlara mütləq öz yurdlarına qayıdacaqlarını qətiyyətlə söyləməsi isə bu insanlara ən böyük mənəvi dəstək olub.

Qarabağın xilaskarı İlham Əliyevin gerçəkləşdirdiyi hərbi, diplomatik siyasət nəticəsində hazırda qalib Azərbaycan xalqı tarixi günlər yaşayır. 2020-ci il Vətən müharibəsində qazanılan şanlı zəfər sayəsində ərazi bütövlüyümüz, suverenliyimiz tam təmin olunub, Qarabağ və Şərqi Zəngəzur quruculuq ünvanına çevrilib. Demək olar ki, hər ötən gün bu yerlərə qayıdış köçləri həyata keçirilir, doğma sakinləri yurdlarına qovuşdurulur.

Azadlığından sonra mütəmadi olaraq Qarabağ və Şərqi Zəngəzura səfərlər edən Prezident İlham Əliyev həm burada həyata keçirilən quruculuq və bərpa işləri ilə tanış olur, obyektlərin açılışlarını edir, yeni təməllər qoyur, həm də el-obalarına dönən keçmiş məcburi köçkünlərlə doğma evlərində görüşür, onların yurd sevinclərini bölüşür.

Bu görüşlər zamanı dövlət başçısı sakinlərlə səmimi söhbət edərək onların hazırkı yaşayış şəraiti ilə yaxından maraqlanır, qayıdış sevinclərinə şərik olur. Prezidentin keçmiş məcburi köçkünlərlə sadə, səmimi ünsiyyəti bu vətəndaşlarımızın hər birinin rifahının daim dövlətimizin, şəxsən cənab İlham Əliyevin diqqətində olduğunu göstərir. Doğma ocaqlarda baş tutan bu görüşləri obrazlı şəkildə həm də qayıdışın mənəvi zəfəri adlandırmaq olar.

### "Qarabağın qəhrəman oğlu"

Yanvarın 13-də Qarabağın xilaskarı İlham Əliyevin Ağdərə rayonunun Aşağı Oratağ, Çıldıran, Heyvalı və Çapar kəndlərinin sakinləri ilə görüşü də bu qəbildən oldu.

Görüş zamanı ölkəmizin rəhbəri söylədi ki, bütün bu kəndlərdə olub: "Evlər gözəl təmir olunub, bərpa edilib. Son iki il ərzində biz işğaldan azad edilmiş Ağdərə rayonunun bütün qəsəbələrində, kəndlərində monitorinq aparmışıq. Birinci mərhələdə bərpa olunan kəndləri müəyyən etmişik və artıq Ağdərə rayonunun doqquz kəndinə keçmiş köçkünlər qayıtmışlar".

Ölkəmizin rəhbəri onu da əlavə etdi ki, son iki il ərzində, - antiterror əməliyyatından sonra, - 2023-cü ildən bu yana bütün bu bölgələrdə - Ağdərədə, Xocalıda, Xankəndidə, Xocavənddə həyat bərpa edilir: "Beş il bundan əvvəl isə vaxtilə işğal altında olmuş digər ərazilərə köçkünlər qayıtmağa başlayıblar. Bu gün artıq 73 min insan - həm keçmiş köçkün, həm də ki, köçkün olmayan, amma azad edilmiş ərazilərdə işləyənlər, çalışanlar, oxuyanlar yerləşiblər və hər ay Qarabağa qayıdan vətəndaşların sayı artır. Burada şərait yaradılıb - işıq, su, qaz, yollar, iş yerləri".

Ağdərədə səmimi dialoqlarla yaddaşlara yazılan bu görüş zamanı qürur, sevinc və duyğu dolu anlar yaşandı.

Sakinlərin Prezidentə xitabən səsləndirdikləri, "Siz dünyaya sübut etdiniz ki, Qarabağ Azərbaycandır! Sağ olun, var olun", "...Siz dünyada Azərbaycan xalqının fəxrisiniz...", "...Mən bir şəhidin anasıyam, bir şəhidin də bacısıyam... ...Bu gün mənim yanımda ikinci bir oğlum yoxdur. Azərbaycanın qeyrətli oğlanları mənim oğlumdur. Oğlum məni Sizə əmanət edib. Mən Azərbaycanın bütün şəhid anaları adından Sizə "Qarabağın qəhrəman oğlu" deyirəm".

"Siz də bizim ata yurdumuza, şəhidlərin qanı qədər, haqqı qədər müqəddəs olan Qarabağa, Ağdərəyə xoş gəlmisiniz", - fikirləri bu insanların Müzəffər lider İlham Əliyevə olan böyük etimadının, sevgisinin təzahürüdür.

Yaxud "Mənim ən böyük sevincim Vətənimə qayıtmaq olsa da, həyatda ən böyük arzum cənab Prezidentlə görüşmək idi. Getdiyim bütün yerlərdə deyirdim ki, bir gün mənim əlim o kişiyə çatacaq. Mənim əlim çatdı. Ən böyük sevincim cənab Prezidentlə görüşməkdir", "Çox istərdim ki, gələcəkdə bir dəfə də Ağdərədə, Çaparda mənim evimin qonağı olasınız. Allahım Sizi qorusun", - deyə sakinlərin fikirlərini səmimi şəkildə dilə gətirmələri onların dövlətimizin rəhbəri İlham Əliyevi özlərinin ən yaxınları, doğmaları saymalarının, ən böyük arxa-dayaqları hesab etmələrinin göstəricisidir. Bu, həm də keçmiş məcburi köçkünlərin torpaq həsrətlərinə son qoyan xilaskar liderə duyduqları minnətdarlıq hisslərinin ifadəsidir.

Bəli, dədə-baba yurdlarından zorla qovulmuş, faciələr yaşamış, maddi-mənəvi əzablarla üzləşmiş keçmiş məcburi köçkünlər bu gün illərlə arzuladıqları xoşbəxt həyata qədəm qoyublar.

Prezident İlham Əliyevin keçmiş məcburi köçkünlərlə doğma yurdlarında görüşərək onların sevinc hisslərini bölüşməsi, gözaydınlığı verməsi isə təbii ki, bu insanlarımıza əlavə mənəvi güc verir.

Dövlətimizin başçısı Aşağı Oratağ kəndində keçirilən görüşlə bağlı fikirlərini belə ifadə etdi: "İndi də burada, - bir tərəfdə şəhid anası, bir tərəfdə ağbirçək, - sizinlə bərabər durmuşuq. Bu, çox xoşbəxt bir hissdir, xoşbəxt bir gündür, gözəl bir gündür. Sizi ürəkdən təbrik edirəm, burada xoşbəxt yaşayın".

Bütün bunlar Prezident İlham Əliyevin şəxsi diqqəti və rəhbərliyi altında həyata keçirilən qayıdış prosesinin yalnız infrastruktur deyil, mənəvi dirçəliş olduğunu da göstərir.

Doğma ocaqlarına qayıdan keçmiş məcburi köçkünlərin üzlərindəki sevinc, dillərindəki minnətdarlıqlar bu insanların illər əvvəl yarımçıq qalan arzularının gerçəkləşməsini özündə daşıyır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Torpağın altındakı "gizli qatil"

## Ermənistanın mina terroru
## Böyük qayıdışın qarşısındakı əsas maneədir

**Azərbaycan və Ermənistan arasında qanlı savaş 2020-ci ilin noyabrında başa çatsa da, azad edilmiş torpaqlarımızın bağrında "səssiz qatillər" - minalar qalmaqdadır. Hələ də torpaq altındakı "gizli ölüm"ün qurbanına çevrilən vətəndaşlarımız var. Müharibə və münaqişəni bitirsək də, torpağın altındakı terrorla mübarizəmiz davam edir. Ermənistanın onilliklər ərzində ilmə-ilmə toxuduğu "mina xalçası" öz qurbanları arasında ayrı-seçkilik etmir. Yalnız hərbi qulluqçular deyil, çoxsaylı mülki şəxslər, öz xidməti vəzifələrini və peşə borclarını yerinə yetirmək üçün işğaldan azad edilmiş bölgələrə ezam olunmuş insanlar, o cümlədən media nümayəndələri mina terrorunun qurbanı olublar.**

2026-cı il yanvarın 11-də Ağdərə rayonunun Qızıloba kəndi ərazisində növbəti mina hadisəsi baş verib. Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) məlumatına görə, humanitar minatəmizləmə əməliyyatlarına cəlb edilən qeyri-hökumət təşkilatının əməkdaşı 1988-ci il təvəllüdlü Kərimov Elvin Həmiddin oğlu piyada əleyhinə minaya düşüb və sağ ayağı topuq nahiyəsindən amputasiya olunub. Ötən il dekabrın 17-də Ağdam rayonunun Çəmənli kəndində 1982-ci il təvəllüdlü Məmmədov Qədir Malik oğlu traktorla yer şumlayarkən tank əleyhinə mina partlayışı nəticəsində xəsarət alıb. Ondan bir ay öncə Bərdə sakini Natiq Əliyev Ağdərə rayonunun Sırxavənd kəndi ərazisində minaya düşərək ağır yaralanıb, sol ayağı amputasiya edilib.

1991-ci ildən bəri mina qurbanlarının ümumi sayı 3400-ü keçib ki, onların 359-u uşaq, 38-i qadındır. Son dörd ildə baş verən partlayışlar nəticəsində 410-dan çox insan zərər çəkib, onlardan 71-i dünyasını dəyişib, 338-i müxtəlif dərəcəli xəsarətlər alıb. ANAMA-nın 2025-ci ildə icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumatında qeyd olunub ki, ötən il Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 4 min 963, tank əleyhinə 1861 mina və 52 min 392 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib. Həmçinin 69 min 205,7 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib. Partlamamış hərbi sursat sayı isə 52 min 392 ədəddir.

Ümumilikdə 233 min hektardan çox ərazi təmizlənsə də, hələ də milyonlarla kvadratmetr sahə təhlükəli olaraq qalır. Təxmini hesablamalara görə, işğaldan azad edilmiş ərazilərdə 1,5 milyondan çox mina basdırılıb və bu, Azərbaycanı dünyanın minalarla ən çox çirkləndirilmiş ölkələrindən birinə çevirib. 2026-cı ilin hədəfləri minatəmizləmə prosesində süni intellekt və dron texnologiyalarından daha geniş istifadə edərək bu ölümcül statistikada artımın qarşısını almaqdır.

Rəsmi Bakının beynəlxalq qurumlar vasitəsilə mina xəritələrinin əldə olunması istiqamətindəki çoxsaylı cəhdlərinə baxmayaraq, Ermənistan beynəlxalq humanitar hüququn prinsiplərinə zidd olaraq bu məlumatları gizlətməkdə davam edir. Halbuki Ermənistanın mina terroru lokal problem deyil, qlobal humanitar cinayətdir. 2020-ci ildən bəri yüzlərlə vətəndaşımızın həyatına son qoyan, yaxud onları ömürlük əlil edən bu "görünməz müharibə" sülh müqaviləsi haqqında danışan tərəfin real simasını, qeyri-səmimiyyətini də ortaya qoyur. Əgər Ermənistan hökuməti postmünaqişə mərhələsinin reallıqlarını qəbul edirsə, o halda qalıcı sülhü stimullaşdıran addımlar atmalıdır. Bu addımlardan biri çirkləndirilmiş ərazilərin mina xəritələrini qeyd-şərtsiz Azərbaycana təqdim etməkdir.

Bu məsələni Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov 2025-ci ilin yekunlarına həsr olunan mətbuat konfransında gündəmə gətirib. Nazir bildirib ki, Azərbaycan işğaldan azad olunmuş ərazilərdəki minaların xəritəsini Ermənistandan 2026-cı ildə də israrla tələb edəcək. XİN başçısı açıqlamasında kritik məqamlara da toxunub: "Ermənistan iddia edir ki, onların əlində mina xəritəsi yoxdur, hamısını veriblər. Bu səbəbdən




minalarla bağlı vəziyyət kifayət qədər mürəkkəbdir. Bir sıra ərazilərdə minalar 2021-2023-cü illər ərzində basdırılıb. Həmçinin ərazilərimizdə 2020-ci ildən sonra ümumilikdə yüz minlərlə mina basdırılıb. Bu minaların tam təhlükəsiz şəkildə çıxarılması qısa müddətdə mümkün görünmür və uzunmüddətli, planlı əməliyyatlar tələb edir".

Ceyhun Bayramovun bəyanatı mina məsələsinin 2026-cı ildə prioritet olacağını təsdiqləyir. Ermənistanın "əlimizdə mina xəritəsi yoxdur" iddiası şübhəlidir. Ən azından 2021-2023-cü illərdə torpaqlarımızda minaların basdırılması faktı İrəvanın "bizdə xəritə yoxdur" bəhanəsini sarsıdır. Çünki bu minalar 10-20 il əvvəl deyil, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatdan sonra, sülh danışıqları getdiyi müddətdə yerləşdirilib. "Xəritə yoxdur" manipulyasiyası beynəlxalq hüquq müstəvisində "müharibə cinayətlərinin gizlədilməsi" kimi də qiymətləndirilə bilər. Hərbi nizamnamələrə görə, basdırılan hər bir mina sahəsinin formulyarı (xəritəsi) tərtib olunmalıdır. Nazirin "qısa müddətdə mümkün görünmür" xəbərdarlığı isə məsələnin texniki mürəkkəbliyinə işarə edir. Dağlıq ərazilərdə, sıx meşələrdə və çay yataqlarında minaların təmizlənməsi həm bahalı, həm də həyati risk daşıyan bir prosesdir. Azərbaycan faktiki olaraq Ermənistanın törətdiyi ekoloji və humanitar cinayətin nəticələrini öz daxili büdcəsi və məhdud beynəlxalq donor yardımı ilə təmizləmək məcburiyyətindədir. Minaların təmizlənməsi sülhün sadəcə, kağız üzərində deyil, torpaq üzərində də bərqərar olması deməkdir.

Azərbaycan hökuməti müxtəlif beynəlxalq platformalarda Ermənistanın mina terroru siyasətini ifşa etməkdə davam edir. Çünki minalar sadəcə, fiziki təhlükə yaratmır, həm də işğaldan azad edilmiş torpaqlarda yenidənqurma işlərini ləngidir. Keçmiş məcburi köçkünlərin öz evlərinə sürətli şəkildə qayıtmasına mane olur. Ən əsası isə bölgədə dayanıqlı sülhün və təhlükəsizliyin bərqərar edilməsi prosesini çətinləşdirir. İki ölkə arasında sülh sazişinin mətninin ilkin razılaşdırılması istiqamətində mühüm diplomatik irəliləyiş qeydə alınsa da, mina problemi bu prosesin ən ağrılı və həlli vacib tərəfi olaraq qalmaqdadır. Hazırda işğaldan azad edilmiş ərazilərdə çalışan quruculuq işçiləri və mülki şəxslər hər an bu təhlükə ilə üz-üzədirlər. Azərbaycan öz daxili imkanlarını və bütün resurslarını bu qlobal təhlükəni aradan qaldırmaq üçün səfərbər edib. Lakin dəqiq xəritələr olmadan minatəmizləmə prosesinin illərlə uzanacağı qaçılmazdır. Beynəlxalq ekspertlərin fikrincə, ərazilərin tamamilə təhlükəsiz hala gətirilməsi üçün Azərbaycanın onilliklərə və nəhəng maliyyə resurslarına ehtiyacı var. Bu səbəbdən beynəlxalq birlik İrəvana dəqiq və tam xəritələrin verilməsi üçün təzyiqləri artırmalıdır. Xarici tərəfdaşlar və parlamentlər Azərbaycana bu texniki və maliyyə baxımından ağır olan minatəmizləmə prosesində praktiki dəstək verməlidirlər. İnsan haqları təşkilatları mülki əhalinin yaşamaq və təhlükəsizlik hüquqlarının pozulmasına qarşı səssiz qalmamalıdır. Bölgədə sülhün bərqərar olması və insanların təhlükəsiz qayıdışı birbaşa olaraq mina probleminin beynəlxalq səviyyədə ədalətli həllindən asılıdır.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Su idarəçiliyində yeni mərhələ: süni intellekt Azərbaycanda su təsərrüfatını necə dəyişir?

**Müasir dünyada su ehtiyatlarının idarə olunması məsələsi təkcə kommunal təsərrüfat problemi deyil, eyni zamanda milli təhlükəsizlik, iqtisadi inkişaf və ekoloji davamlılıq məsələsi kimi qiymətləndirilir.**

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, hazırda dünya əhalisinin təxminən 2,2 milyardı təhlükəsiz içməli suya çıxış imkanından məhrumdur. Digər tərəfdən, qlobal miqyasda içməli suyun orta hesabla 25-30 faizi paylayıcı şəbəkələrdə texniki itkilər səbəbindən istifadəsiz qalır. Bu reallıqlar su təchizatı, tullantı və yağış suları sistemlərinin yenidən qurulmasını, həmçinin innovativ texnologiyaların tətbiqini zəruri edir. Bu baxımdan süni intellekt (AI) texnologiyaları su təsərrüfatında keyfiyyətcə yeni mərhələnin əsas hərəkətverici qüvvələrindən biri kimi çıxış edir. Böyükhəcmli məlumatların toplanması, emalı və real vaxt rejimində qərarların qəbulu imkanları su infrastrukturunun səmərəliliyini əhəmiyyətli dərəcədə artırır.

### Su təchizatı sistemlərində səmərəliliyin artırılması

Beynəlxalq Su Assosiasiyasının (IWA) hesabatlarına əsasən, inkişaf etməkdə olan ölkələrdə su itkilərinin səviyyəsi bəzi hallarda 40 faizi ötür, inkişaf etmiş ölkələrdə isə bu göstərici orta hesabla 15-20 faiz təşkil edir. Süni intellekt əsaslı monitorinq sistemləri bu itkilərin minimuma endirilməsində mühüm rol oynayır.

Ağıllı sensorlar, IoT (Əşyaların İnterneti) cihazları və rəqəmsal sayğaclar vasitəsilə toplanan məlumatlar AI alqoritmləri tərəfindən təhlil olunur. Məsələn, Yaponiyada və Avropa ölkələrində aparılan pilot onu deməyə əsas verir ki, süni intellekt və IoT əsaslı su şəbəkələrində sızmaların aşkarlanma müddəti əhəmiyyətli dərəcədə azalır; bəzi sənaye hesabatlarına görə bu azalma təxminən 25-40 faizə yaxındır. Təzyiq dalğalanmaları, axın sürətindəki anomaliyalar və qeyri-adi istehlak nümunələri avtomatik şəkildə aşkarlanır.

Bununla yanaşı, süni intellekt su tələbatının proqnozlaşdırılmasında da istifadə olunur. Demoqrafik dəyişikliklər, mövsümi amillər və iqlim göstəriciləri nəzərə alınmaqla hazırlanan proqnoz modelləri su ehtiyatlarının daha balanslı bölüşdürülməsinə imkan yaradır.

### Tullantı sularının təmizlənməsində süni intellektin rolu

Tullantı sularının düzgün idarə olunmaması torpaq və su hövzələrinin çirklənməsinə, ictimai sağlamlıq risklərinin artmasına səbəb olur. Dünya Bankının məlumatına görə, qlobal səviyyədə istehsal olunan tullantı sularının təxminən 80 faizi kifayət qədər və ya heç təmizlənmədən təbiətə buraxılır.

Süni intellekt tullantı suyun bioloji təmizləmə proseslərini optimallaşdırır, aerasiya səviyyəsini tənzimləyir və nəticədə enerji sərfiyyatını azaldır. Məsələn, bəzi AI əsaslı sistemlər aerasiya enerjisinin təxminən 30 faiz azalmasını təmin edib və AI modelləri proses səmərəliliyini yüksəldir. Avropa İttifaqında aparılan tədqiqatlara əsasən, süni intellekt tətbiqi tullantı suyun emalı prosesində enerji xərclərini təxminən 15-20 faiz azalda bilir.

Eyni zamanda süni intellekt sistemləri sənaye tullantılarında ağır metalların və toksik maddələrin erkən mərhələdə aşkarlanmasına şərait yaradır.




### Yağış suları və daşqın risklərinin idarə olunması

İqlim dəyişiklikləri fonunda ekstremal hava hadisələrinin artması şəhər drenaj sistemlərinin üzərinə əlavə yük qoyur. BMT-nin İqlim Dəyişiklikləri üzrə Hökumətlərarası Panelinin (IPCC) hesabatlarında qeyd olunur ki, son 50 ildə intensiv yağıntı hadisələrinin tezliyi qlobal miqyasda artıb.

Süni intellekt əsaslı hidroloji modellər meteoroloji proqnozları, torpaq səthinin xüsusiyyətlərini və drenaj şəbəkəsinin mövcud vəziyyətini birgə analiz edir. Bu modellər daşqın risklərini əvvəlcədən müəyyənləşdirərək yerli idarəetmə orqanlarına preventiv tədbirlər görməyə imkan yaradır.

Yaponiya, Niderland və Cənubi Koreyada tətbiq edilən AI dəstəkli yağış suları idarəetmə sistemləri şəhər daşqınlarından yaranan iqtisadi zərərləri on milyonlarla dollar azaltmağa imkan verib. Bütün bu qlobal təcrübələr və texnoloji yeniliklər Azərbaycanın su təsərrüfatı üçün hansı perspektivləri formalaşdırır?

### Azərbaycan üçün aktual çağırışlar və imkanlar

Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyasında su ehtiyatlarının səmərəli idarə olunması mühüm yer tutur. Dövlət Statistika Komitəsi və beynəlxalq tərəfdaşların məlumatlarına görə, ölkədə su itkilərinin azaldılması və tullantı sularının təmizlənməsi istiqamətində rəqəmsal həllərin tətbiqi prioritet hesab olunur. Azərbaycanda su itkisi hələ də yüksək səviyyədə qalır: hazırda içməli su sistemlərində itkilər təxminən 50 faiz olub, bu isə su resurslarının daha səmərəli istifadəsi ehtiyacını ortaya qoyur.

Dövlət səviyyəsində qəbul edilmiş 2026-2035-ci illər üçün Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair Dövlət Proqramı su itkisi və infrastruktur problemlərinin həllini prioritet istiqamət kimi müəyyənləşdirir. Proqram çərçivəsində həm içməli su itkisini azaltmaq, həm də su sistemlərinin Avropa standartlarına uyğunlaşdırılması planlaşdırılır.

Su itkisini azaltmaq və səmərəliliyi artırmaq üçün rəqəmsal yanaşmaların tətbiqi də nəzərdə tutulur. Məsələn, ölkə içərisində içməli su sayğaclarının quraşdırılması səviyyəsinin 2027-ci ildə 100 faizə çatdırılması planlaşdırılır ki, bu da su istifadəsinin dəqiq ölçülməsi və idarə edilməsi üçün əsasdır. Təkmil sayğaclaşma su itkisini azaltmağa və su resurslarının effektiv idarə olunmasına potensial dəstək verir.

Azərbaycanda su ehtiyatlarının məhdud olması da əlavə çağırış yaradır. Məsələn, ölkənin şirin su ehtiyatları azalmaqdadır və əhalinin yalnız təxminən üçdə biri müasir tullantı su xidmətləri ilə təmin olunub ki, bu da tullantı sularının idarə edilməsi sahəsində innovativ texnologiyaların tətbiqini aktuallaşdırır.

Belə bir məkan və infrastruktur çağırışları fonunda ağıllı su idarəetməsi və süni intellekt əsaslı monitorinq və proqnozlaşdırma sistemləri ölkədə su itkisini azaltmaq, tullantı sularının daha effektli emalını təmin etmək və yağış suları sistemlərinin davamlılığını yüksəltmək baxımından real imkan hesab edilir. Qarabağ və Şərqi Zəngəzurda yeni inşa olunan su təsərrüfatı infrastrukturu isə süni intellekt və rəqəmsal idarəetmə sistemlərinin tətbiqi üçün unikal imkanlar yaradır. Burada mövcud köhnəlmiş şəbəkələrin yenilənməsi və tamamilə yeni sistemlərin qurulması nəzərdə tutulduğundan, AI əsaslı monitorinq, sızmaların aşkarlanması, tullantı sularının avtomatlaşdırılmış idarə olunması və yağış suları sistemlərinin proqnozlaşdırılması kimi texnologiyaların inteqrasiyası daha asan və sərfəli olacaq. Bu yanaşma yalnız su itkisini azaltmaqla kifayətlənməyəcək, həm də enerji səmərəliliyini yüksəldəcək, suyun keyfiyyətli və davamlı istifadəsini təmin edəcək, regionda su təhlükəsizliyini və dayanıqlı infrastrukturun inkişafını gücləndirəcək. Bu yanaşma uzunmüddətli perspektivdə su təhlükəsizliyinin təmin edilməsinə və dayanıqlı inkişafa töhfə verə bilər.

### Süni intellektin texnoloji mexanizmləri və Azərbaycan üçün tətbiq perspektivləri

Azərbaycan su təsərrüfatının modernləşdirilməsi üzrə qəbul edilmiş dövlət proqramları rəqəmsal idarəetmə sistemlərinin tətbiqini də nəzərdə tutur. Dövlət proqramı çərçivəsində "ağıllı su şəbəkələri" və itkilərin aşkarlanması üçün müasir texnologiyalar tətbiq ediləcək. Bu sahədə smart sayğaclaşdırma və innovativ monitorinq sistemlərinin qurulması planlaşdırılır ki, bu da itkilərin azaldılmasına birbaşa dəstək verə bilər.

Bu məsələlər "Su ehtiyatlarından səmərəli istifadəyə dair" Milli Strategiyada da yer alıb. Strategiya çərçivəsində real vaxt monitorinq sistemlərinin yaradılması və Elektron Məlumat Sisteminin tətbiqi nəzərdə tutulur ki, bu da su ehtiyatlarının idarə edilməsində şəffaflığı və effektivliyi yüksəldəcək.

### Rəqəmsal su idarəetməsi və AI texnologiyalarının tətbiqi imkanları

Süni intellekt və IoT əsaslı sistemlər Azərbaycan üçün spesifik faydalar verə bilər:

- Su itkisi və sızmaların monitorinqi - AI alqoritmləri vasitəsilə sistemdəki anomaliyaların tez aşkarlanması, sayğac məlumatlarının təhlili və nasazlıqların proqnozlaşdırılması mümkündür.
- Su şəbəkəsinin səmərəliliyi - ölkədə 100 faiz su sayğaclaşdırılması planı, AI-lə təhlil edilən məlumatların istifadəsi su resurslarının balanslaşdırılmasına kömək edəcək.
- Tullantı sularının təmizlənməsi - müasir tullantı su sistemi infrastrukturunun yenilənməsi, proseslərin avtomatlaşdırılması və enerji səmərəliliyinin artırılması AI tətbiqləri üçün əlverişli zəmin yaradır (xüsusən yeni qurğuların layihələndirilməsi və modernləşdirilməsi planlaşdırılan ərazilərdə).
- Yağış sularının idarə olunması - artan ekstremal yağışlarla bağlı infrastrukturların modernləşdirilməsi üçün AI dəstəyi şəhər drenaj sistemlərinin proqnozlaşdırılması və idarə edilməsi potensialını artırır.

Beləliklə, Azərbaycan üçün süni intellekt əsaslı su idarəetmə sistemlərinin tətbiqi yalnız texnoloji yenilik deyil, eyni zamanda dövlət siyasətinin prioritet hədəfi və infrastruktur modernləşməsi strategiyasının ayrılmaz hissəsidir. Qısamüddətli perspektivdə süni intellekt pilot layihələr çərçivəsində tətbiq edilə bilər ki, bu da su itkilərinin operativ aşkarlanmasına və şəhər şəbəkələrinin monitorinqinə yönələcək. Ortamüddətli mərhələdə "ağıllı tullantı suyu" təmizləmə qurğularının genişləndirilməsi və yağış suları sistemlərinin rəqəmsallaşdırılması mümkün görünür. Uzunmüddətli perspektivdə isə ölkədə tam inteqrasiya olunmuş, özünü öyrədən və proqnozlaşdıran su idarəetmə ekosisteminin formalaşdırılması real hədəf kimi qiymətləndirilir.

Bu yanaşma Azərbaycanın su təhlükəsizliyinin möhkəmləndirilməsinə və dayanıqlı inkişaf strategiyasına mühüm töhfə verə bilər.

# REGİONLAR

# Ata yolu

**44 günlük müharibədə vətən yolunda canından-qanından keçən oğullardan biridir Masim Qurbanov. 7 yanvar 2001-ci ildə Masallı rayonunun Ərəb kəndində dünyaya göz açıb, 2017-ci ildə kəndlərindəki ümumi orta məktəbi, 2019-cu ildə isə qonşu Xırmandalı kənd tam orta məktəbini bitirib. 2019-cu ilin 10 yanvarında hərbi xidmətə yollanıb. 2020-ci ilin iyul ayında müddətli hərbi xidmətini başa vurub.**

Arzusu FHN-nin Cənub Regional Mərkəzində mülki müdafiə kursu keçərək işə düzəlmək idi. Lakin iyulda Tovuz hadisələri, ermənilərin neft kəmərlərimizə hücumları və yeni ərazi iddiaları baş verəndə gənc Masim seyrçi qala bilmədi.

Uşaqlıq çağlarında atası Hafiz kişi tez-tez övladına əfsanəvi "Babək-44" taboru və Milli Qəhrəman Əliyar Əliyevin başçılıq etdiyi dəstədə döyüş yolu keçdiyi silahdaşlarından söz açardı. Birinci Qarabağ savaşının iştirakçısı, 2-ci dərəcəli müharibə əlili, qazi Hafiz Qurbanovun oğlu olması gənc Masimi hələ kiçik yaşlarından gözüaçıq etmişdi. Könüllü olaraq orduya qayıtmaq qərarına gəlməsi əbəs deyildi. Hadisələr çox gözlətmir. Sentyabrın 27-də Vətən savaşı başlayır və düşmənlə vuruşa atılanların öncüllərindən biri də M.Qurbanov olur. Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlıda gedən döyüşlərdə rəşadətlə vuruşur, komandirlərinin tapşırıqlarını canla-başla yerinə yetirir, igidlik nümayiş etdirir.

Ata-anasına son zəngi oktyabrın 29-da olub. "Şəhid olsam, haqqınızı hala edin", - deyib. Təqribən 2 gün sonra Qubadlının strateji nöqtələrindən olan Qanlıtəpə yüksəkliyi uğrundakı qanlı döyüşdə şəhidlik zirvəsinə yüksəlib. Masallının Ərkivan qəsəbəsindən döyüşlərə qatılmış Sənan Seyfullayevlə Masimin cansız bədənləri bir müddət tapılmayıb. Hətta atası Hafiz kişi 2021-ci ildə vaxtilə özünün döyüşdüyü o yerlərə yollanıb, itkinini axtarmalı olub. Nəhayət, anadan olduğu gün - yanvarın 7-də Masimlə Sənanın cəsədləri qar örtüyünün altından tapılıb. Həmin il yanvarın 10-da Masim Hafiz oğlu Qurbanov boya-başa çatdığı Ərəb kəndində torpağa tapşırılıb. Ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.




Doğma kəndində adına küçə verilib, digər 4 şəhidlə birlikdə şərəfinə şəhid bulağı inşa olunub. Hər il yanvar ayının 10-da rayon ictimaiyyəti igid döyüşçünün ad gününü və anım gününü keçirərək məzarını ziyarət edir.

Bu il də istisna olmadı, şəhadətinin 5-ci ildönümü ilə əlaqədar anım mərasimi keçirildi. Anım mərasimində rayon rəhbərliyi, müharibə iştirakçıları, şəhid ailələrinin  üzvləri din xadimləri, kənd ictimaiyyətinin nümayəndələri iştirak etdi. Çıxışlar zamanı bildirildi ki, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda canlarını fəda etmiş şəhidlərimizin qəhrəmanlığı heç zaman unudulmayacaq, onların keçdiyi şərəfli döyüş yolu gənc nəsil üçün əsl vətənpərvərlik nümunəsidir.

Anım mərasimində iştirak edən şəhidin ailə üzvləri onlara göstərilən diqqət və qayğıya görə hər kəsə minnətdarlıqlarını bildirdilər.

***S.QUBADOĞLU,***
***"Azərbaycan"***

## Ötən ilin uğurlu yekunları

# Göygöl: artan istehsal, genişlənən abadlıq, yaddaqalan festivallar

**Ötən ili müxtəlif sahələrdə nailiyyətlərlə yola salan göygöllülər indi cari ildə görüləcək işləri götür-qoy edir, üzərlərinə düşən vəzifələri müəyyənləşdirirlər. 2025-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş yığıncaqda da bu barədə ətraflı söhbət getdi.**




Rayon icra hakimiyyətinin başçısı Vüqar Novruzovun hesabat məruzəsindən məlum oldu ki, keçən il Göygöl üzrə 4857 hektarda taxıl əkilmiş, hər hektardan 30,6 sentner olmaqla 14897 ton məhsul götürülmüşdür. Bu, əvvəlki ildəkindən 4 sentner çoxdur. Cari ilin məhsulu üçün isə 6459 hektar payızlıq şum aparılmış, 5369,5 hektara taxıl toxumu səpilmişdir.

Heyvandarlıq sahəsində də uğurlu göstəricilərə nail olunmuşdur. Öncə onu qeyd edək ki, hazırda rayon üzrə 20,4 min baş qaramal, 117,2 min baş davar heyvan var. Ötən il ət istehsalı 3018,6, süd istehsalı 23605,3 tona, yumurta istehsalı 9,7 milyon ədədə çatmışdır.

Hesabatdan o da məlum oldu ki, ötən il də rayonda abadlıq və quruculuq, yaşıllaşdırma işləri genişlənmiş, sakinlərin rahatlığının təmin olunması üçün müxtəlif infrastruktur layihələri həyata keçirilmişdir. İlk növbədə Heydər Əliyev xiyabanında cari təmir işləri aparılmış, eləcə də şəhərin mərkəzi küçələrində evlərin fasadlarında əsaslı təmir işləri görülmüş, su arxları və səkilər təmir edilmişdir. Paralel olaraq Gəncə-Kəlbəcər-Laçın avtomobil yolunun kənarında yerləşən yaşayış və qeyri-yaşayış sahələrinin fasad hissələri təmir olunmuş, yararsız dam örtükləri yenisi ilə əvəzlənmişdir. Şəhidlər xiyabanı da əsaslı təmir olunmuşdur. Yaşıllaşdırmaya da diqqət artırılmışdır. Təkcə keçən il 6 hektarda 10 mindən artıq ağac əkilmişdir.

Keçən il rayonun bir çox yaşayış məntəqələrinin qaz xətləri də yenilənmişdir. Tədbirlər Planına uyğun olaraq, rayon mərkəzinin bəzi küçələrində, Quşqara və Çaylı kəndlərində ümumilikdə 3300 poqonometr qaz xətləri dəyişdirilmişdir. Eyni zamanda yeni tipli 11 qaz tənzimləyici qurğu quraşdırılmış, 9 qaz bağlayıcı siyirtmə yenisi ilə əvəz olunmuşdur.

Əhalinin dayanıqlı su təminatına gəldikdə, bu məqsədlə Bənövşəli ərazisində 144 kubmetrlik sututarının tikintisinə başlanılmışdır. Obyektin cari ilin birinci rübündə yekunlaşması nəzərdə tutulur. Qızılqaya və Mollacılilli kəndlərində isə daxili su şəbəkəsinin qurulması ilə bağlı layihə-smeta sənədləri hazırlanmışdır.

Keçən il Göygöl beynəlxalq səviyyəli idman yarışlarına evsahibliyi etməsi ilə də fərqlənmişdir. Cüdo üzrə Avropa Kuboku və III MDB Oyunları çərçivəsində sambo və cüdo yarışları Göygöl Olimpiya İdman Kompleksində keçirilmişdir. Tədbirlərdən söz düşmüşkən, 2025-ci ildə Göygöldə keçirilən bir neçə tədbir yaddaqalan olmuşdur. Avqustda Yeni Zod kəndi ərazisində keçirilən "IV Milli Yaylaq Festivalı"nda unikal elat mədəniyyəti təbliğ olunmuşdur. Bundan başqa, Keşkü kəndi ərazisində keçirilən "II Moruq Festivalı" da regionda geniş əks-səda doğurmuşdur. Belə bir əks-sədalı tədbir "Göygöl Brendi-Konyak Günü" olmuşdur. Tədbirin açılış mərasimində Almaniya, İsveç, Latviya, Avstriya və digər ölkələrin Azərbaycandakı səfirləri və bir sıra səlahiyyətli nümayəndələr iştirak etmişlər.

Yığıncaqda o da vurğulandı ki, 2025-ci il ölkəmizdə "Konstitusiya və suverenlik İli" kimi yadda qalmışdır. Rayon icra hakimiyyəti il ərzində bununla bağlı bir çox tədbir keçirmiş, Konstitusiya dəyərlərinin təbliği, dövlət suverenliyinin möhkəmləndirilməsi və vətəndaşların hüquqi maarifləndirilməsi məqsədilə konfranslar, "dəyirmi masa"lar, seminarlar və digər tədbirlər keçirmişdir. Tədbirlərdə Ulu Öndər Heydər Əliyevin müstəqilliyimizin qorunması, milli Konstitusiyamızın qəbul olunması və dövlətçilik ənənələrinin inkişafında göstərdiyi müstəsna xidmətlərdən, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının Vətən müharibəsində qazandığı tarixi Zəfərdən ətraflı söhbət açılmışdır.

Sonra yığıncaqda keçən il görülən işlərlə bağlı çıxışlar dinlənilmişdir. Cari ilin hədəflərini əks etdirən qərar qəbul olunduqdan sonra yığıncaq iştirakçıları Prezident İlham Əliyevə müraciət qəbul etmişlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Qusarda payızlıq və çoxillik əkinlərin bəyan qəbulu başa çatıb

**Qusarda payızlıq və çoxillik əkinlərin Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində (EKTİS) bəyan qəbulu artıq başa çatıb. Prosesin səmərəli və operativ şəkildə həyata keçirilməsində Qusar Dövlət Aqrar İnkişaf Mərkəzinin (DAİM) əməkdaşları tərəfindən fermerlərə hərtərəfli dəstək göstərilib.**



Bəyan prosesinin DSUM-də aparılması ona imkan verir ki, fermerlər əkin sahələrinə dair torpaq sənədlərini və əkin məlumatlarını EKTİS-ə daxil edərkən qarşılaşdıqları texniki və prosedur məsələlərlə bağlı yerində məsləhət, istiqamətləndirmə və praktiki kömək ala bilsinlər. Bu zaman mərkəzin mütəxəssisləri fermerləri sistemdən düzgün istifadə qaydaları, əkin növlərinin düzgün qeydiyyatı və subsidiya mexanizmləri barədə ətraflı məlumatlandırırlar ki, o da bəyan prosesinin şəffaf və vaxtında tamamlanmasına imkan yaradır.

Rayon meyvəçilik üzrə ixtisaslaşdığı üçün bu günə qədər EKTİS-ə daxil edilmiş bəyanların 43 faizi (8467 bəyan) çoxillik, qalan hissəsi isə payızlıq əkinlərə aiddir. Ümumilikdə indiyəcən rayon üzrə bütün  əkin sahəsi artıq bəyan olunub ki, bu da fermerlərin elektron sistemə marağının və dövlət dəstək mexanizmlərindən yararlanmaq istəyinin göstəricisidir.

Qusar DAİM tərəfindən fermerlərin məlumatlandırılması məqsədilə mütəmadi maarifləndirmə işləri aparılır. Fermerlər üçün qəbul günləri təşkil olunur və kənd təsərrüfatı istehsalçılarının sualları operativ şəkildə cavablandırılır. Bu yanaşma fermerlərin işini asanlaşdırmaqla yanaşı, dövlət-fermer əməkdaşlığının güclənməsinə də töhfə verir.

Qeyd edək ki, payızlıq əkinlərin EKTİS-də bəyan qəbulu artıq  başa çatıb.  Bol və bərəkətli Qusar torpağında çoxillik və payızlıq bitkilərin gələcəkdə keyfiyyətli məhsul verəcəyi isə şübhəsizdir. Çünki bunu qusarlılar dəfələrlə sübut edib.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Əkinçinin işi qışda da azalmır

**Keçən ili uğurla yekunlaşdıran tovuzlu torpaq sahibləri artıq yaz tarla işlərinə başlamışlar.**

Dolanışığını torpaqdan çıxaran rayon fermerləri əvvəlki illərdə olduğu kimi, keçən il də əksər sahələr üzrə uğurlar qazanmışlar. 11318 hektarda biçin aparan taxılçılar hər hektardan 40,9 sentner olmaqla 46302 ton məhsul toplamışlar. Taxılçılar ilk dəfə olaraq  9313 hektardan 38802 ton buğda, 2005 hektardan 7500 ton arpa tədarük etmişlər. Bundan savayı, əkinçilər 1087,6 hektardan 24793,2 ton tərəvəz, 4492 hektardan 136803 ton kartof, 238,6 hektardan 594 ton günəbaxan, 2639,8 hektardan 17275 ton yazlıq qarğıdalı, 58 hektardan 1129,7 ton bostan məhsulları toplamışlar.

Rayonda fəaliyyət göstərən "Aqro Dairy" və "Tovuz Aqro" MMC-ləri və Tovuz  Aqrokompleks xüsusilə fərqlənmişlər. "Aqro Dairy" MMC 5617 hektar sahənin hər hektarından 47,5 senter olmaqla 26706,3, "Tovuz Aqro" MMC 254 hektar sahənin hər hektarından 46,9 sentner olmaqla 1192, Tovuz Aqrokompleks 300 hektar sahənin hər hektarından 45,1 sentner olmaqla 1353,8 ton taxıl biçmişlər.

Rayonda ayrı-ayrı fiziki şəxslər də taxıl istehsalında nümunə göstərmişlər. Ədalət Məhərrəmov 82 hektar sahənin hər hektarından 51 sentner məhsul götürərək 418,2, İlqar Kərimov isə 4 hektar sahənin hər hektarından 35 sentner məhsul götürərək 14 ton taxıl istehsal etmişlər.

Tovuz fermerləri cari ildə taxıl sahələrinin həcmini xeyli artırmışlar. Onlar 14325 hektarda taxıl səpini aparmışlar. Bunun 12117 hektarı payızlıq buğda, 2148 hektarı payızlıq arpadır. Bundan başqa, təsərrüfat sahibləri kartof və tərəvəz səpini üçün 5600 hektardan artıq sahədə şum qaldırılması işlərinə, həmçinin meyvə və üzüm bağlarında cərgəarası becərmə işlərinə başlamışlar.

Qeyd edək ki, rayonda yaz tarla işlərinin vaxtında aparılması üçün lazımi sayda texnika hazırlanmışdır. Bunun üçün böyük və kiçik 420 traktorlar, 200 kotan, 30 mala, 80 taxılsəpən, 17 taxılbiçən kombayn və digər texnikalar saz vəziyyətə gətirilmişdir. Nəzərdə tutulmuşdur ki, bu il  5000 hektara yaxın sahədə karof, 1200 hektarda tərəvəz və bostan bitkilərinin əkini aparılsın. Bütün bu işlərin vaxtında görülməsi üçün bütün hazırlıq işləri yüksək səviyyədə həyata keçirilmişdir.

***S.YUNİSOĞLU,***
***"Azərbaycan"***

# Bərəkətli Cəlilabad torpağı kəndlinin təknəsini boş qoymur

**İllər bir-bir arxada qalır. İnsan əlləri, insan əməlləri ilə böyüklüyü və kiçikliyindən asılı olmayaraq nə varsa hamısı dəyişir. Doğma Azərbaycanımızın bütün sakinləri kimi, cəlilabadlılar da 2025-ci illə vidalaşdılar, ötən ili nailiyyətlərlə yola salıb 2026-cı ili üzüağ, alnıaçıq qarşıladılar.**



Çox dərinə getməyək, sadəcə, statistik rəqəmlərə nəzər salaq: keçən il rayon üzrə ümumi məhsul buraxılışının dəyəri 756,3 milyon manata yaxın olub. Bunun 85,7 milyon manatı sənayenin, 412,3 milyon manatı kənd təsərrüfatının, 19,7 milyon manatı tikintinin, 11,9 milyon manatı nəqliyyatın, 4,1 milyon manatı informasiya və rabitənin, 222,4 milyon manatı ticarət və iaşə xidmətinin payına düşüb.

Məlum olduğu kimi, Cəlilabad iri kənd təsərrüfatı rayonudur. Keçən il burada 188 min 324 ton buğda, 42 min 335 ton arpa, 11 min 650 ton vələmir, 7 min 901 ton noxud, 660 ton mərci, 69 ton lərgə, 93 min 44 ton kartof, 1224 ton tərəvəz, 263 ton qarğıdalı, 640 ton günəbaxan, 18 min 390 ton çiyələk, 18 min 870 ton üzüm istehsal edilib və beləliklə, ölkəmizdəki məhsul bolluğuna cəlilabadlılar da öz layiqli töhfələrini veriblər. Fermerlər, sahibkarlar tərəfindən yetişdirilən ərzaq məhsullarının müəyyən hissəsi daxili bazarlarda satılıb, qalanı isə əsasən Rusiya Federasiyasına və Ukraynaya ixrac olunub. Fermerlər daha yaxşı qazanc əldə etmək üçün kartof və çiyələyin müəyyən hissəsini sellofan altında yetişdiriblər. Örtülü şəraitdə becərilən bu məhsullar açıq havada becərilənə nisbətən daha tez yetişir. Nübar məhsul isə baha satıldığından gəliri yüksək olur.

İl ərzində eyni əkin sahəsindən iki dəfə məhsul götürmək rayon fermerləri arasında artıq adət halını almışdır. Onlar taxılı biçdikdən və ya bəzi bitkilərin məhsulunu yığıb başa çatdırdıqdan sonra yerinə digər bitkilər əkib-becərirlər. Təkrar əkin aparmaqla keçən il rayonda 1275 ton qarğıdalı, 903 ton günəbaxan, 20 min 400 ton payızlıq kartof tədarük edilib.

Bəzən elə təsəvvür yaranır ki, kəndli-fermer üçün qış ayları istirahər dövrüdür. Düzdür, yaz, yay, payız dövrü ilə müqayisədə kənddə iş nisbətən az olur. Lakin fərqinə varanda görürsən ki, kəndlinin bu fasildə də boş vaxtı yoxdur. İstehsalat prosesi kəndli üçün bir növ "konveyer" xarakteri daşıyır. Məsələn, payızın məhsulunu yığıb qurtarmamış gərək gələn il üçün taxıl əkini aparılsın. Bitkinin birinin yığımı digərinin becərmə dövrünə düşür.

Cəlilabadlı fermerlər 2026-cı ilin məhsulu üçün 50 min 372 hektara buğda, 16 min 90 hektara arpa, 4 min 962 hektara vələmir toxumları səpiblər. Onlar hər bir işi optimal müddətdə, aqrotexniki qaydalara əməl etməklə həyata keçirməyə çalışırlar. Çalışırlar ki, əkdikləri toxum, ya şitil yüksək məhsul versin. Bu məqsədlə bir çox fermer kartof toxumundan, eləcə də çiyələk şitilindən ötrü Rusiyaya, Türkiyəyə,  hətta İtaliyaya və digər ölkələrə gedir.

Heyvandarlıq rayonun kənd təsərrüfatı sektorunda mühüm yer tutur. Yeri gəlmişkən, qeyd edək ki, keçən il heyvandarlar üçün asan olmadı. Ölkə ərazisində yayılan dabaq xəstəliyi onların da qayğılarını xeyli artırdı. Yaxşı ki, heyvandarlıqla məşğul olan fermerlər, baytar həkimləri səylərini birləşdirərək xəstəliyin törədə biləcəyi fəsadları aradan qaldıra bildilər. İri və xırdabaşlı mal-qara arasında cəmi 2 ölüm faktı qeydə alındı. Heyvanlarını qışlamadan sağlam və gümrah çıxarması üçün bu gün rayonda kifayət qədər qaba və qüvvəli yem tədarük edilib. Mal-qaranın sayına gəldikdə, hazırda qaramalın sayı 93,5 min, davarınkı 113,4 min, quşlarınkı 577,2 min başa çatıb. Bu sahəyə aid digər fakt: keçən il rayon üzrə 14 min 639 ton ət, 72 min 449 ton süd, 28 milyon ədəddən çox yumurta və 230 ton yun istehsal edilib. Heyvanların cins tərkibini yaxşılaşdırmaq işi də diqqət mərkəzində saxlanılıb. 5 min 173 baş inəkdən süni mayalanma yolu ilə 2 min 335 baş bala alınıb.

Aqrar sektorla bağlı onu da qeyd edək ki, kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət tərəfindən verilən subsidiyaların ləngidilməsi və bu sahədəki başqa çatışmazlıqlar, demək olar, aradan qaldırılıb.

Rayonda aparılan tikinti-quruculuq və abadlıq işləri keçən il ərzində  də davam edib. İnşa edilən binalar, çəkilən yollar, salınan yaşıllıqlar Cəlilabad və Göytəpə şəhərlərinin, qəsəbə və kəndlərin simasını xeyli dəyişib. Kənd adamlarının əkin-biçindən götürdükləri gəlirlərin nəticəsi olaraq rayonda hara getsən, müasir tipli fərdi evlərin tikildiyini görürsən. Keçən il park və xiyabanlarda əsaslı təmir işləri aparılıb. Ən əsası Cəlilabad və Göytəpə şəhərlərində binaların kanalizasiya xəttində yaranmış nöqsanlar aradan qaldırılıb. Təmir-bərpa, yeni su və kanalizasiya xətlərinin çəkilişi ilə bağlı vətəndaşların müraciətlərinə vaxtında baxılıb, göstərilən ünvanlarda texniki şərt əsasında su və kanalizasiya xətləri çəkilib.

Təhsilə gəldikdə, ötən il Göytəpə şəhərində 650 şagirdlik 2 saylı tam orta məktəbin binasının tikintisi başa çatdırılaraq şagird və müəllimlərin istifadəsinə verilib. Rayon Təhsil Sektorunun binasında, bir çox şəhər və kənd məktəblərində, eləcə də Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin binasında isə əsaslı və cari təmir işləri aparılıb.

Təəssüf ki,  rayonun səhiyyə sistemində vəziyyət fərqlidir. Tibb müəssisələrinin azlığı və mövcud tibb məntəqələrinin bərbad vəziyyətdə olması səbəbindən əhalinin səhiyyəyə əlçatanlığı sahəsində ciddi problemlər yaşanır. 11 kənddə həkim məntəqəsinin əsaslı təmirinə və 58 kənddə isə tibb məntəqələri üçün binaların tikilməsinə ehtiyac var.

Ehtiyac olan təkcə bu sahə də deyil. 116 yaşayış məntəqəsində subartezian quyularının qazılmasına, Privolnoye və Uzuntəpə kəndlərində əhalinin mərkəzləşdirilmiş qaydada su təminatı sisteminə qoşulması işlərinin başa çatdırılmasına, eyni zamanda fermerlərin suvarma suyuna olan tələbatlarının ödənilməsi üçün əkin sahələrində subartezian quyularının qazılmasına və torpaq kanallarının beton üzlüklə üzlənməsinə zəruri ehtiyac yaranıb.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

Sağlam və təhlükəsiz həyat naminə

# Narkomaniyaya qarşı mübarizə ümumxalq işinə çevrilməlidir

**Müasir dövrün ən ciddi qlobal çağırışlarından biri olan narkotik vasitələrin qanunsuz dövriyyəsi və narkomanlıq problemi artıq milli sərhədləri aşaraq bəşəriyyətin bu günü və gələcəyi üçün real təhlükə mənbəyinə çevrilmişdir. Bu mənfi tendensiyanın doğura biləcəyi sosial, iqtisadi və mənəvi fəsadların qarşısının alınması məqsədilə dünya dövlətləri narkomanlığa qarşı mübarizə mexanizmlərini və müalicə metodlarını daim təkmilləşdirir, beynəlxalq əməkdaşlıq çərçivəsində birgə fəaliyyət imkanlarını genişləndirirlər.**



Azərbaycanda həyata keçirilən dövlət siyasətinin əsas prioritetlərindən biri insan sağlamlığının qorunması və əhalinin rifahının yüksəldilməsidir. Prezident İlham Əliyevin praqmatik və uzaqgörən siyasəti, sistemli və ardıcıl yanaşmaya əsaslanan məqsədyönlü qərarları, sosial-iqtisadi və hüquqi sahələrdə həyata keçirdiyi islahatlar ölkəmizin hərtərəfli inkişafını təmin etmiş, Azərbaycanı regionun aparıcı və qüdrətli dövlətlərindən birinə çevirmişdir. Dövlətimizin çoxşaxəli siyasətində insan amili, xüsusilə sağlam həyat tərzinin təşviqi və sosial təhlükəsizliyin təmin olunması mühüm yer tutur.

Bu gün milli maraqların qorunması əsas götürülməklə dövrün çağırışlarına adekvat cavab verən ölkəmiz narkotiklərlə mübarizə sahəsində beynəlxalq təşəbbüslərdə iştirakını daha intensiv və səmərəli şəkildə davam etdirir, narkotik vasitələrin qanunsuz dövriyyəsi və narkomanlıqla mübarizə istiqamətində institusional və əməli-praktiki tədbirlərin həyata keçirilməsini təmin edir. Görülmüş tədbirlərin davamlığının və sistemliyinin təmin olunması məqsədilə Prezident İlham Əliyevin 17 sentyabr 2025-ci il tarixli sərəncamı ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı" təsdiq olunub. Dövlət proqramının Tədbirlər Planında narkotik vasitələrin qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsinin qarşısının alınması istiqamətində əməliyyat-axtarış və profilaktik tədbirlərin gücləndirilməsi, narkomaniya xəstəliyi ilə əlaqədar tibb müəssisəsinin fəaliyyətinin təmin edilməsi, reabilitasiya mərkəzlərinin yaradılması, həkim-narkoloq və klinik (tibbi) psixoloqların sayının artırılması, narkotik asılılıqdan əziyyət çəkən şəxslərin müalicə prosesində tətbiqi üçün psixoloji dəstək proqramlarının hazırlanması, beynəlxalq təcrübədən istifadə etməklə, əməkdaşların peşəkarlığının yüksəldilməsi və təcrübə mübadiləsi məqsədilə seminar və interaktiv təlimlərin və digər tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Dövlət proqramında narkotiklərlə mübarizə sahəsində müşahidə olunan qlobal trendlər və onların ölkənin mövcud potensialına mümkün təsirləri qiymətləndirilmiş, mövcud vəziyyət hərtərəfli təhlil edilmiş və uzunmüddətli dövr üçün strateji baxış formalaşdırılmışdır. Eyni zamanda hədəf göstəriciləri və prioritet istiqamətlər müəyyən edilmiş, icra müddətləri göstərilməklə tədbirlər planı, əsas və digər icraçı qurumlar, gözlənilən nəticələr və icra mexanizmləri təsbit olunmuşdur. Sənəddə nəzərdə tutulan vəzifələrin icrası Azərbaycanda narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz daşınmasının qarşısının alınması istiqamətində əməliyyat-axtarış və profilaktik tədbirlərin gücləndirilməsinə, narkomanlığın maarifləndirmə yolu ilə qarşısının alınmasına, narkoloji xidmətin keyfiyyətinin yüksəldilməsinə, habelə beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklər çərçivəsində effektiv əməkdaşlığın təmin olunmasına və qaçaqmalçılıq risklərinin azaldılmasına töhfəsini verməkdədir.

## Qanunvericiliyin təkmilləşdirilməsi vacib şərtdir

Normativ-hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində qanunsuz dövriyyədən çıxarılmış və ya müsadirə olunmuş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi prosesinin səmərəli təşkili məqsədilə külli və xüsusilə külli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə müvafiq komissiyalar yaradılmış, az və xeyli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv olunması ilə bağlı rayon (şəhər) komissiyaları yenidən formalaşdırılmışdır.

Bununla yanaşı, narkoloji xəstələr üçün fəaliyyət məhdudiyyəti nəzərdə tutularaq peşə və vəzifələr üzrə əmək münasibətlərinin tənzimlənməsi üçün əmək müqaviləsi bağlanılarkən narkoloji mərkəzlərdə və ya dispanserlərdə qeydiyyatda olma vəziyyətini təsdiq edən arayışın tələb edilməsi, habelə bu tələblərin pozulmasına görə inzibati məsuliyyətin müəyyən edilməsi ilə bağlı Azərbaycan Respublikasının Əmək Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə dəyişikliklərin edilməsi barədə qanun və fərman layihələri hazırlanaraq aidiyyəti üzrə göndərilmişdir.



Həmçinin vətəndaşların narkotik istifadəçisi kimi qeydiyyatda olub-olmaması barədə arayışların verilməsi prosesinin sadələşdirilməsi məqsədilə bu xidmətin "ASAN xidmət" mərkəzləri tərəfindən həyata keçirilməsinin təmin edilməsi üçün qanunvericiliyə dəyişiklik edilməsi, habelə bu xəstəliyə düçar olan şəxslərin müalicəsi və reabilitasiyası sahəsində qanunvericiliyin təkmilləşdirilməsi nəzərdə tutulmuşdur.

## Hüquq-mühafizə orqanları tərəfindən görülən işlər konkret nəticələr verir

Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz yollarla respublikaya gətirilməsinin qarşısının alınması üçün gömrük-sərhəd keçid məntəqələrinə nəzarət, aidiyyəti dövlət orqanları ilə qarşılıqlı əlaqələr və əməliyyat-axtarış fəaliyyəti gücləndirilmiş, sərhəd keçid məntəqələrindən kənar marşrutların müəyyən edilməsi, göstərilən sahədə müasir texnologiyaların tətbiqinin genişləndirilməsi, bu növ cinayətlərlə məşğul olan şəxslərin və mütəşəkkil cinayətkar dəstələrin müəyyən olunaraq istintaqa cəlb edilmələri istiqamətində təşkilat və praktik tədbirlərin səmərəliliyi daha da artırılıb.

2025-ci ilin yanvar-noyabr ayları ərzində narkomanlığa və narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizənin nəticələri Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən müqayisəli şəkildə təhlil edilərək ümumiləşdirilib.

Hüquq-mühafizə orqanları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilən kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində ümumilikdə 7441 cinayət faktı aşkar olunub. Onlardan 2403-ü narkotik vasitələrin qanunsuz satışı, 4850-si narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması, 186-sı narkotik tərkibli bitkilərin qanunsuz əkilib becərilməsi, 2-si bu kateqoriyadan olan digər cinayətlərlə bağlı olub. 8 ton 334 kq 712 qram narkotik vasitələrin və psixotrop maddələrin 7 ton 037 kq 413 qramını marixuana, 745 kq 500 qramını heroin, 144 kq 728 qramını tiryək, 75 kq 384 qramını həşiş, 153,551 qramını kokain, 181 kq 871 qramını digər narkotik vasitələr və 149 kq 660 qramını psixotrop maddələr təşkil edib. Həmçinin göstərilən dövr ərzində 15 516 ədəd metadon, 18 938 ədəd çətənə bitkisi, eləcə də 1 kq 111 qram, 108 həb və 39 kapsul güclü təsir edən maddə qanunsuz dövriyyədən götürülüb. Hesabat dövründə Daxili İşlər Nazirliyinin təşkilatçılığı və digər aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə 1201,5 hektar sahədən yaş kütləsi 304 ton 762 kq olan 2 600 707 ədəd yabanı halda bitmiş narkotik tərkibli bitkilər müəyyən olunaraq müvafiq qaydada məhv edilib. Qanunsuz dövriyyədən çıxarılmış 8 ton 334 kq 712 qram narkotik vasitələrin və psixotrop maddələrin ümumi dəyəri isə 219 milyon 573 min manat olub.

Narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı 4961-i kişi, 156-sı qadın olmaqla 5117 nəfər cinayət məsuliyyətinə cəlb edilib. Məsuliyyətə cəlb edilmiş 85 xarici ölkə vətəndaşından ümumilikdə 936 kq 501 qram müxtəlif növ narkotik vasitə və psixotrop maddə, habelə 271 qram çətənə bitkisi götürülüb.

Hüquq-mühafizə orqanları tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı 231 fakt aşkar edilib. Fakt üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 3 ton 847 kq 095 qram və 15 516 həb metadon narkotik vasitə və psixotrop maddə, 13 194 ədəd həb və 5,7 qram güclü təsir edən maddə çıxarılıb. Ümumilikdə aşkar edilən cinayətlərin 274-ü qrup halında törədilmiş və həmin faktlar üzrə qanunsuz dövriyyədən çəkisi 2 ton 658 kq 377 qram narkotik vasitə, psixotrop maddə və 309 kq 436 qram güclü təsir edən maddə müsadirə edilib. 2439 cinayət faktı əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilmiş və onlardan 2 ton 044 kq 413 qram müxtəlif növ narkotik vasitə və psixotrop maddə müsadirə olunub.

Aparılan təhlil göstərir ki, 2024-cü ilin yanvar-noyabr ayları ilə müqayisədə ötən ilin müvafiq dövründə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı hüquq-mühafizə orqanları tərəfindən aşkar edilən faktların ümumi sayı 1108, qanunsuz satışla bağlı faktların sayı 434, satış məqsədi olmadan qanunsuz əldə edilib saxlanılması ilə əlaqədar faktların sayı 628, narkotik tərkibli bitkilərin qanunsuz kultivasiya edilməsi faktlarının sayı 42, bu kateqoriyadan olan digər cinayət faktlarının sayı 4, qaçaqmalçılıqla bağlı faktların sayı 4, qrup halında törədilmiş cinayətlərin sayı 39 fakt, məsuliyyətə cəlb olunmuş şəxslərin sayı isə 1576 nəfər azalıb. Bununla yanaşı, qanunsuz dövriyyədən çıxarılan narkotiklərin çəkisi 1 ton 931 kq 065 qram artıb.

Qeyd edək ki, müsadirə edilmiş müxtəlif növ narkotik vasitələrin 7 ton 037 kq 413 qramını (84,4 faiz) marixuana təşkil edib. Onun 6 ton 204 kq 757 qramı (88,1 faiz) tərkibi psixotrop maddələrlə zənginləşdirilmiş xarici ölkə mənşəli olub. 832 kq 655 qramı (11,8 faiz) isə iqlim şəraitinə uyğun olaraq ölkə ərazisindəki istixanalarda, zirzəmilərdə, həyətyanı sahələrdə, meşə ovalıqlarında və çay yataqlarında qanunsuz kultivasiya edilmiş vasitələrdir.

Dövlət Komissiyasının İşçi Qrupunun təşkilatçılığı ilə 2025-ci ilin 28 yanvar və 29 may tarixlərində qanunsuz dövriyyədən çıxarılmış və ya müsadirə olunmuş külli və xüsusilə külli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə komissiya tərəfindən ümumilikdə 2358 məhkəmə qərarına əsasən, barəsində məhvetmə qərarı qəbul edilərək 10 ton 121 kq 801 qram müxtəlif növ narkotik vasitə, psixotrop maddə və onların prekursorları, 8644 ədəd çətənə bitkisi məhv edilib.

Eyni zamanda hesabat dövründə qanunsuz dövriyyədən çıxarılmış və ya müsadirə edilmiş az və xeyli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə komissiyaların birgə təşkilatçılığı ilə 64 rayon və şəhərdə 2317 məhkəmə hökmü üzrə barəsində məhvetmə qərarı qəbul edilmiş və ümumi çəkisi 57 kq 812 qram və 21 həb müxtəlif narkotik vasitənin, psixotrop maddələrin, 4 kapsul güclü təsir edən maddənin və 562 ədəd çətənə bitkisinin yox edilməsi təmin olunub.

Narkotik asılılığı olan şəxslərin müəyyən edilməsi və müalicəsi, bu sahədə aparılan tədqiqatlara gəlincə qeyd edək ki, Daxili İşlər Nazirliyi tərəfindən bütün növ sərxoşluq hallarının müəyyənləşdirilməsi məqsədilə Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinə 87765 nəfər istiqamətləndirilib. Onlardan narkotiklərdən istifadənin müəyyən edilməsi məqsədilə tibbi müayinədən keçirilmiş 5179 nəfərdən 2719 nəfərinin istifadəçi olması müəyyən edilərək zəruri tədbirlər görülüb.

Hazırda metadonla əvəzedici müalicə proqramı üzrə 3 məntəqədə (Respublika Narkoloji Mərkəzində 282, QİÇS-lə Mübarizə Mərkəzində 315, Sumqayıt Narkoloji Mərkəzində 124 nəfər) ümumilikdə 721 xəstə müalicə alır. Respublika QİÇS-lə Mübarizə Mərkəzinin verdiyi məlumata əsasən, ölkədə narkomanlar arasında İnsanın İmmunçatışmazlığı Virusuna yeni yoluxma hallarının sayında azalma müşahidə edilir. 2025-ci ilin noyabr ayının sonunadək aşkarlanmış İİV-ə yoluxmuş Azərbaycan vətəndaşları arasında 54 nəfər (4,9 faiz) infeksion narkotik istifadəçiləri olub.

## Narkomanlığa qarşı mübarizədə təbliğat, profilaktika və monitorinq işinin təşkili

Azərbaycan Respublikası Audiovizual Şurası Dövlət Komissiyasının müvafiq iclaslarında qəbul edilmiş qərarlara əsasən, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə mövzusunun ümumölkə televiziya kanallarında işıqlandırılmasının monitorinqini həyata keçirib. Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən təqdim olunan sosial çarxların televiziya kanalları vasitəsilə 2025-ci il ərzində televiziya və radio kanallarında 20 min dəfəyə yaxın yayımın həyata keçirilməsi, televiziya kanallarında ekspertlərin iştirakı ilə 100-dən artıq xüsusi verilişin təşkil edilməsi, habelə narkomanlığın zərəri ilə bağlı müəllif süjetlərinin hazırlanması təmin olunub.

Ötən ilin iyun ayından etibarən "802-Qaynar xətt" xidmətinin fəaliyyət istiqamətlərinə dair hazırlanmış sosial çarx ümumölkə və regional yerüstü radio yayımçılarının efirində yayımlanıb. Həmçinin narkotik vasitələrin, psixotrop maddələrin qəbulu və bununla bağlı yaranan problemlər haqqında vətəndaşlar arasında maarifləndirmə işinin daha səmərəli təşkili məqsədilə ölkə üzrə fəaliyyət göstərən 17 çap və 46 onlayn media subyektinə müvafiq tövsiyələr verərək, ümumilikdə 13000 maarifləndirici materialın dərci təmin edilib.

Qeyd edək ki, ötən il "802-Qaynar xətt" telefon xidmətinə, "055 600-08-02" mobil telefon nömrəsi vasitəsilə "Vatsap", "070-400-08-02" mobil telefon nömrəsi vasitəsilə isə "Teleqram" hesablarına ümumilikdə 1225 müraciət daxil olub. Müraciətlərdən 138-i narkotik vasitələrin qanunsuz satışı (32 müraciət əsasında cinayət işləri başlanılıb, 37 müraciət nəzarətə götürülüb), 57-si narkomaniyadan müalicə (24 nəfər stasionar müalicəyə cəlb olunub), 1030-u isə digər məsələlərlə (təkrar müraciətlər, qanunvericiliyin müddəalarının izah edilməsi, məcburi müalicəyə dair prosedurlar və s.) bağlı idi. Qeyd olunan müraciətlər üzrə müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti orqanlara 195 məktub ünvanlanıb və zəruri tədbirlər də görülüb.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birgə həyata keçirilən SMS maarifləndirmə layihəsi çərçivəsində sağlam həyat tərzinin təbliği və narkomanlığın zərəri ilə bağlı "Azərfon", "Bakcell" MMC və "Azercell Telekom" MMC vasitəsilə ümumilikdə 9,1 milyon aktiv abunəçiyə SMS bildirişlərinin göndərilməsi təmin edilib.

Gənclər Fondu ilə antinarkotik təbliğat işinin gücləndirilməsi məqsədilə imzalanmış birgə Tədbirlər Planına əsasən, "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş Səyyar Gənclər Xidməti layihəsi çərçivəsində 14 rayonda 130 kənd üzrə yeniyetmə və gənclər "Gənclər siyasəti və dövlətçilik", "Zərərli vərdişlərə yox deyək", "Peşə seçimi və karyera" və "Sağlam və təhlükəsiz həyat" mövzularında təlimlərə cəlb olunublar. Layihə çərçivəsində ümumilikdə keçirilmiş 53 tədbirdə 9600 yeniyetmə iştirak edib.

Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun, Daxili İşlər Nazirliyinin Narkotiklərlə Mübarizə Baş İdarəsinin, Səhiyyə Nazirliyinin Bakı şəhər Narkoloji Mərkəzinin və digər aidiyyəti dövlət orqanlarının nümayəndələrinin iştirakı ilə ümumtəhsil məktəblərinin şagirdləri arasında narkomanlıqla bağlı hüquqazidd hərəkətlərin qarşısının alınması, onların gələcəkdə təkrarlanmaması və zərərli vərdişlərdən uzaqlaşdırılması məqsədilə, habelə narkotik asılılığı problemində ailələrin rolu və valideyn məsuliyyəti nəzərə alınmaqla valideynlərin iştirakı təmin edilməklə qabaqlayıcı profilaktik tədbirlər həyata keçirilib.

Cəzaçəkmə müəssisələrində cəza çəkən şəxslər arasında antinarkotik təbliğat işinin gücləndirilməsi, penitensiar müəssisələrin əməkdaşları üçün təlimlərin keçirilməsi üçün Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Dövlət Komissiyasının İşçi Qrupu ilə imzaladığı tədbirlər planına uyğun olaraq aidiyyəti dövlət orqanlarının iştirakı ilə maarifləndirmə tədbirləri həyata keçirilib.

İnternat tipli ümumi təhsil müəssisələrində təhsil alan, valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqların narkomanlıq və onun fəsadları barədə məlumatlılıq səviyyəsinin artırılması məqsədilə ümumi təyinatlı internat tipli ümumtəhsil məktəblərində "Sağlam gələcək naminə" mövzusunda söhbətlər aparılıb. Narkotik və psixotrop maddələr haqqında məlumatlığın artırılması məqsədilə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu rayon və şəhər icra hakimiyyətləri ilə birgə ümumi təhsil müəssisələrinin rəhbərləri, müəllimləri, psixoloqları, valideynlər şuralarının üzvləri və şagirdlər üçün maarifləndirici tədbirlər keçirib. Bunadan başqa, qeyri-hökumət təşkilatları nümayəndələrinin narkotik vasitələrə və psixotrop maddələrə dair təyin edilmiş ekspertizalar, həmçinin narkotik asılılığından müalicə və reabilitasiya prosesi barədə məlumatlandırılması məqsədilə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun təşkilatçılığı ilə Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzində və Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzində qeyri-hökumət təşkilatlarının rəhbər və nümayəndələri üçün məlumatlandırıcı görüşlər təşkil edilib. 2025-ci il ərzində Dövlət Komissiyasının İşçi Qrupunun təşkilatçılığı ilə aidiyyəti dövlət qurumlarının iştirakı təmin edilməklə ümumilikdə 200 tədbir (122 maarifləndirici və təşkilati tədbir, 63 təlim, 13 sosial layihə, 2 televiziya proqramında iştirak) keçirilib.

Narkomanlığa qarşı mübarizə üzrə təlimlərin təşkili, yeniyetmə və gənclər, o cümlədən gənc idmançılar, tələbələr və könüllülər arasında narkotik asılılıq və onun formalaşma mərhələlərinə dair biliklərin artırılması məqsədilə maarifləndirmə işlərinin aparılması, gənclər təşkilatları üçün təlim və seminarların, ali, orta ixtisas və peşə təhsili müəssisələrinin tələbələri üçün ictimai mühazirələrin keçirilməsi, ənənəvi "Yay Fest" çərçivəsində və internat məktəblərinin yuxarı sinif şagirdləri üçün düşərgələrin təşkili və infoturların keçirilməsi, habelə cəzaçəkmə müəssisələrində antinarkotik təbliğat işinin gücləndirilməsi məqsədilə Gənclər Fondu, Azərbaycan Milli Antidopinq Agentliyi, Ədliyyə Nazirliyinin Penitensiar Xidməti və Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu arasında bu günlər 2026-cı il üçün Tədbirlər Planının imzalanması planlaşdırılır.

*__Fəqan ŞAHVERDİYEV,__*
*__Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun rəhbəri__*

# Azərbaycanın voleybol hakimi beynəlxalq təyinat alıb



**Azərbaycanlı hakim Kəmalə Əsgərova Avropa Voleybol Konfederasiyası tərəfindən təyinat alıb.**

AZƏRTAC xəbər verir ki, o, qadın voleybolçuların Çelenc Kubokunun 1/8 final mərhələsində Serbiyanın “Srvena Zvezda” və Danimarkanın “Holte IF” komandaları arasında keçiriləcək qarşılaşmada ikinci hakim olacaq. Matçın baş hakimi vəzifəsini xorvatiyalı Ana Stipanicev yerinə yetirəcək.

Qeyd edək ki, oyun yanvarın 15-də Serbiyada keçiriləcək.

# “Okeanın o tayında Azərbaycan bayrağını dalğalandırmaq üçün döyüşürəm”



**Hazırda Taylandda yaşayan Azərbaycan kikboksçusu Nihad Tağızadə (54 kiloqram) AZƏRTAC-ın suallarını cavablandırıb.**

*- Taylandda təlim prosesi necə keçir? Oradakı məşq sistemində nə kimi fərqliliklər var?*

- Məşqlər gündə iki dəfə olmaqla, səhər və axşam keçirilir. Məşqlər ağır olur, amma artıq 12 ildir bu idman növü ilə məşğulam. Bədən artıq bu ritmə öyrəşib.

*- Artıq üç aydır oradasınız. Bu müddətdə sizin üçün ən çətin olan nə olub? Döyüşlər, məşqlər, yoxsa adaptasiya?*

- İlk gələndə hava şəraiti çox ağır gəldi, nəfəs almaqda çətinlik çəkirdim. Amma döyüş və məşq məsələsinə gəlsək, artıq bu idmanın içindəyik, hər çətinliyə hazırıq. Düşünürəm ki, hər nə qədər əziyyətli olsa da, Azərbaycan bayrağını okeanın o tayında dalğalandırmaq və bu kimi hədəflər uğrunda çalışmaq bütün çətinlikləri unutdurur. Hazırda Taylandda öz hesabımıza məşq edirik. Maddi baxımdan hər hansı dəstəyimiz yoxdur. Bu da burada qalmaq və məşqləri davam etdirmək baxımından müəyyən çətinliklər yaradır.

*- Üç döyüş keçirmisiniz və hər birində qələbə qazanmısınız. Özünüzdən belə nəticələr gözləyirdinizmi? Ümumiyyətlə, performansınızı necə qiymətləndirirsiniz?*

- Bəli, artıq üç döyüş və üç qələbəm var. Onlardan ikisi nakautla nəticələnib. Bu qədər əziyyətdən sonra düşünürəm ki, qələbəyə layiqik. Qürbətdə olsaq da, sosial şəbəkələrdə insanların dəstəyi bizə əlavə motivasiya verir.

*- Nakautla qazandığınız döyüşlərdə hansı taktikanız işə yaradı?*

- Daha çox əllərdən istifadə edirdim. Amma qeyd etməliyəm ki, ayaq zərbələrim də kifayət qədər güclüdür.

*- Taylandlı döyüşçülərlə mübarizə aparmaq necə təcrübə idi? Onların hansı xüsusiyyətləri sizi təəccübləndirdi?*

- Taylandlı idmançılar uşaqlıqdan bu idmanın içindədirlər. Əlcək, avadanlıq onlar üçün oyuncağa çevrilib. İdman zallarında böyüyürlər. Döyüşdə çox soyuqqanlı və dözümlüdürlər. Nə qədər zərbə alsalar da, yerə yıxılsalar belə, dərhal qalxıb döyüşə davam edirlər. Bu xüsusiyyətləri məni təəccübləndirdi.

*- Gələcək planlarınız nələrdir? Taylandda qalmağa davam edəcəksiniz, yoxsa Azərbaycana qayıdırsınız?*

- Hələ ki Taylanddayam və qarşıda döyüşlər var. Həmişəki kimi döyüşlərə hazıram. Planım isə “ONE Championship” təşkilatında iştirak üçün lisenziya qazanmaqdır. O hədəfə doğru irəliləyirəm və inanıram ki, tezliklə həmin rinqdə də Azərbaycan bayrağını dalğalandıracağam.

*- Azərbaycan və Taylanddakı döyüş idmanları sistemi arasında hansı əsas fərqləri görürsünüz?*

- Əsas fərq ondan ibarətdir ki, Taylandda dözümlülük və güc üzərində daha çox çalışırlar. Bu da onları fiziki baxımdan daha dayanıqlı edir. Amma hesab edirəm ki, bizim idmançılar da heç bir baxımdan onlardan geri qalmır.

# Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasının iclasında bir sıra qərarlar qəbul olunub

**Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasının (AKAF) İdarə Heyətinin 2025-ci ilin yekunları üzrə hesabat xarakterli iclası keçirilib.**

AKAF-dan AZƏRTAC-a bildirilib ki, əvvəlcə baş katib Fərhad Əliyev maliyyə hesabatını və ötən il ərzində federasiya tərəfindən həyata keçirilmiş layihələrin, qazanılmış nəticələrin hesabatını təqdim edib. Daha sonra iclasın gündəliyində yer alan digər məsələlər müzakirəyə çıxarılaraq bir sıra qərarlar qəbul olunub. Belə ki, Federasiyanın Hakimlər Kollegiyası yaradılıb, İlqar Tağıyev kollegiyaya sədr seçilib. Aleksandr Jukovskinin kanoe üzrə yığmaya baş məşqçi vəzifəsinə təyin edilməsi təsdiqlənib. Akademik avarçəkmə üzrə komandanın baş məşqçisi Volodimir Morozovun növbəti Olimpiya dövrü üçün fəaliyyətinin davam etdirilməsinə qərar verilib. Həmçinin federasiyaya yeni üzvlər seçilib.

Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 14 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmişdir

# "Azərbaycan Mədəniyyəti-2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası

### 1. Qısa xülasə

Hüquqi, dünyəvi və demokratik dövlət, sosial rifah və mədəni müxtəliflik prinsiplərinin dərin kök saldığı müasir Azərbaycanda mədəniyyətin intibahı dövrün regional və qlobal çağırışları müstəvisində mühüm əhəmiyyət daşıyır. Azərbaycan Respublikasının ərazi bütövlüyünün və dövlət suverenliyinin tam bərpası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin azərbaycançılıq məfkurəsi əsasında yeni milli ideologiyanın və buna əsaslanan yeni mədəniyyət siyasətinin formalaşdırılmasını şərtləndirir.

"Azərbaycan mədəniyyəti-2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası (bundan sonra - Konsepsiya) qlobal və ölkədaxili çağırışlar nəzərə alınmaqla, Azərbaycanın milli kimliyinə əsaslanan müasir mədəniyyət modelinin yaradılması, inkişafı və 2040-cı ilədək digər mədəniyyətlərlə qarşılıqlı əlaqələrinin genişləndirilməsi üçün dövlət mədəniyyət siyasətinin istiqamətlərini müəyyən edən və mədəniyyət sahəsi ilə bağlı fəaliyyətə vahid, sistemli və dayanıqlı yanaşmanı təmin edən strateji planlaşdırma sənədidir.

Sağlam mədəni və yaradıcı həyat tərzi fərdin, cəmiyyətin, dövlətin, habelə xalqın inkişafına hər zaman əhəmiyyətli təsir göstərmişdir. Mədəniyyətin həyat tərzinin tərkib hissəsi olması bu inkişafın əsas amillərindəndir. Azərbaycan mədəniyyətinin müasir modeli fərdin mədəni həyatda daha geniş və yaradıcı iştirakına şərait yaratmaqla, dövlətin sosial, siyasi, iqtisadi və digər sahələrdə qarşısına qoyduğu strateji məqsəd və hədəflərə daha sürətlə çatmasına imkanlar açır. Bu model Azərbaycan Respublikasında dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin bərqərar olması, ölkənin rəqabətli insan kapitalı və innovasiyalar məkanına çevrilməsi üçün əsas vasitələrdən biri kimi çıxış edir.

Azərbaycan mədəniyyətinin müasir modeli qlobal çağırışlara cavab verməklə yanaşı, milli-mənəvi dəyərlərin qorunub saxlanılmasını təmin edən mədəniyyət modelidir. Bu məqsədlə Konsepsiya milli mədəniyyətə yeni strateji baxışı şərtləndirir. Konsepsiyanın uğurla həyata keçirilməsi və müasir mədəniyyət modelinin işlək olması üçün normativ hüquqi bazanın təkmilləşdirilməsi, idarəetmə formasının, müasir sosial-iqtisadi yanaşmanın və ahəngdar fəaliyyətin təmin edilməsi zəruridir.

Azərbaycan Respublikasının mədəniyyət siyasəti dövlət siyasətinin tərkib hissəsi olmaqla, mədəni həyatın təmin edilməsi üçün əlverişli mühit yaradılmasına, milli-mənəvi dəyərlərin qorunmasına, mədəniyyətin tərbiyə potensialına və şəxsiyyətin formalaşması prosesində mədəniyyətdən istifadəyə əsaslanan istiqamətdir. Mədəniyyət sahəsində dayanıqlı inkişafa və Konsepsiyada müəyyən edilən məqsədlərə nail olmaq üçün bu sahədə dövlət siyasətinin mərkəzləşdirilmiş və əlaqələndirilmiş şəkildə həyata keçirilməsi zəruridir.

Konsepsiya çərçivəsində Azərbaycan mədəniyyətinin müasir modeli aşağıdakıları nəzərdə tutur:

1. mədəniyyətin həyat tərzinin ayrılmaz tərkib hissəsinə çevrilməsini;
2. mədəniyyətin fundamentallığını qorumaqla, fərqli müasir alətlər vasitəsilə bu sahənin funksionallığının təmin edilməsini;
3. mədəniyyətin elm, təhsil və innovasiyalarla qarşılıqlı əlaqəsinin təmin edilməsini;
4. Azərbaycan cəmiyyətinin mədəni müxtəlifliyinin və birliyinin qorunmasını;
5. mədəniyyətin bütün sahələrini inkişaf etdirməklə, Azərbaycan mədəniyyətinin potensialından tam istifadə edilməsini;
6. mədəniyyətə hərtərəfli əlçatanlığın (coğrafi, rəqəmsal, fiziki, iqtisadi və s.) təmin edilməsini;
7. qloballaşma şəraitində milli kimliyin və milli-mənəvi dəyərlərin qorunmasını;
8. sürətli rəqəmsallaşma mühitində ənənəvi ünsiyyətin qorunmasını;
9. Azərbaycan mədəniyyətinin beynəlxalq mədəni mübadilədə iştirakının genişləndirilməsini.

Bu məqsədlə mədəniyyət sahələrindən, habelə mədəniyyətin funksionallığının artırılmasına xidmət edən əsas alətlərdən (mədəni və yaradıcı sənaye, mədəniyyət diplomatiyası, rəqəmsallaşma və s.) səmərəli istifadə ilə bağlı davamlı və hədəfli fəaliyyətin həyata keçirilməsi zəruridir.

Konsepsiyada mədəniyyətin aşağıdakı əsas sahələri əhatə olunur:

1. Azərbaycan dili;
2. davranış mədəniyyəti;
3. bilgi mədəniyyəti;
4. ədəbiyyat;
5. incəsənət;
6. mədəni irs.

Konsepsiyada "Azərbaycanın mədəniyyət dəyərləri" aşağıdakıları əhatə edir:

1. milli-mənəvi dəyərlər;
2. tolerantlıq;
3. Azərbaycan dili;
4. fərdilik və özünəməxsusluq;
5. əlçatanlıq;
6. dövlət rəmzlərində təsbit edilən dəyərlər;
7. tarixi şüur, dövlətçilik, milli həmrəylik;
8. hüququn aliliyi, ədalətlilik, bərabərlik, azadlıq və digər ümumbəşəri dəyərlər.

Konsepsiyanın aşağıdakı mərhələlərdə tədbirlər planları əsasında həyata keçirilməsi nəzərdə tutulur:

1. birinci mərhələ: 2026-2030-cu illər;
2. ikinci mərhələ: 2031-2035-ci illər;
3. üçüncü mərhələ: 2036-2040-cı illər.

Növbəti mərhələ üzrə tədbirlər planı əvvəlki mərhələ üçün tədbirlər planının nəticələrinin qiymətləndirilməsi əsasında tərtib edilir.

Konsepsiya çərçivəsində aşağıdakı dövlət proqramlarının layihələrinin hazırlanması nəzərdə tutulur:

1. Azərbaycan dilinin və ədəbiyyatının inkişafı ilə bağlı dövlət proqramı;
2. Azərbaycanın mədəni və təbii irsinin qorunması ilə bağlı dövlət proqramı;
3. İncəsənətin inkişafı ilə bağlı dövlət proqramı;
4. Audiovizual sənayenin inkişafı ilə bağlı dövlət proqramı;
5. Davranış mədəniyyətinin və bilgi mədəniyyətinin inkişafı ilə bağlı dövlət proqramı;
6. Mədəni və yaradıcı sənayenin inkişafı ilə bağlı dövlət proqramı.

Bundan əlavə, Konsepsiyanın əsas hədəflərindən biri də Azərbaycanın öz tarixi coğrafiyasına mədəni qayıdışını, Azərbaycan xalqının məhv edilən və dağıdılan tarixi-mədəni irsinin bərpasını təmin etmək, birləşdirici amil kimi Azərbaycan dilinin regional rolunun bərpasına nail olmaqdır. Təşkilatlanmış mədəni iştirakçılıq Azərbaycan Respublikasının regional maraqlarının səmərəli şəkildə təmin edilməsində və qonşu ölkələrlə dostluq münasibətlərinin gücləndirilməsində mühüm rol oynayacaqdır.

### 2. Qlobal trendlər

BMT Baş Assambleyasının 2015-ci il sentyabrın 25-də təsdiq etdiyi 17 dayanıqlı inkişaf məqsədindən və 169 hədəfdən ibarət "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"də (bundan sonra - 2030 Gündəliyi) "şəhərləri və yaşayış məntəqələrini inklüziv, təhlükəsiz, davamlı və dayanıqlı etmək" adlı 11-ci dayanıqlı inkişaf məqsədinin 11.4-cü "Dünyanın mədəni və təbii irsinin qorunması və mühafizə edilməsi üçün səyləri gücləndirmək" hədəfində mədəniyyət ilk dəfə qlobal səviyyədə davamlı inkişaf amili olaraq tanınmışdır. 2030 Gündəliyinin dayanıqlı inkişaf məqsədləri və hədəflərinin milli və yerli səviyyədə həyata keçirilməsinə mədəniyyətin töhfəsinin ölçülməsi və izlənilməsi məqsədilə UNESCO tərəfindən 22 tematik göstərici müəyyən edilmişdir.

Mədəni özünüifadə müxtəlifliyinin qorunması müasir dövrdə mədəniyyətin qlobal funksiyaları sırasında yer alır. Mədəniyyətlərarası hörmət və sülh mədəniyyəti naminə əhatəli və tarazlı mədəni mübadilənin genişləndirilməsində cəmiyyətin bütün təbəqələrinin iştirakı zəruridir. Bu səbəbdən mədəniyyətlərarası dialoq təşviq edilməli, mədəni fəaliyyət, mədəniyyət məhsulları və xidmətləri özünəməxsusluq, dəyər və məna daşıyıcısı kimi tanınaraq, onların səciyyəvi xüsusiyyətləri qorunmalıdır. Bu baxımdan UNESCO-nun "Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında" 2005-ci il 20 oktyabr tarixli Konvensiyasından irəli gələn tədbirlərin icrası bu Konsepsiyanın əsas məqsədlərindəndir.

UNESCO-nun "Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında" Konvensiyasının icrası ilə əlaqədar hazırladığı "İnkişaf üçün mədəni ifadələrin müxtəlifliyini təşviq edən onillik" (2015) və "İnkişaf üçün yaradıcılığı inkişaf etdir" (2018) adlı hesabatlarında mədəniyyətin yeni vəzifələri və bu sahədəki çağırışlar vurğulanmışdır.

BMT-nin "İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası"na (bundan sonra - Çərçivə Konvensiyası), Çərçivə Konvensiyasına dair Kioto Protokoluna və Paris Razılaşmasına uyğun olaraq UNESCO 2017-ci ildə qəbul etdiyi "İqlim dəyişmələri ilə əlaqədar etik prinsiplərə dair bəyanat"da üzv dövlətləri və onların mərkəzi, yerli dövlət və özünüidarə orqanlarını, icmaları, fərdləri, elmi və beynəlxalq təşkilatları qərar qəbul etmə və fəaliyyətləri zamanı mədəniyyətə əsaslanan, iqlim dəyişikliyi ilə mübarizəyə yönəlmiş 6 prinsipə - ədalət, davamlı inkişaf, həmrəylik, qərarların qəbulunda elmi bilik və dürüstlük, ehtiyatlı yanaşma və zərərin qarşısının alınması prinsiplərinə əməl etməyə çağırmışdır.

Türk Dövlətləri Təşkilatının "Türk Dünyası 2040 Vizyonu" sənədində türk dünyası ölkələrinin ortaq mədəni irsinin qorunması, təbliği və mədəni fəaliyyətin inkişaf etdirilməsinin vacibliyi qeyd olunmuşdur.

Çərçivə Konvensiyasının Tərəflər Konfransının 2024-cü il noyabrın 11-22-də Bakı şəhərində keçirilmiş 29-cu sessiyasında (COP29) Azərbaycan Respublikası "İqlim üçün mədəniyyət" (C4C) təşəbbüsünü irəli sürmüşdür. Bu təşəbbüsün məqsədi ənənələrin, incəsənətin və irsin davamlı təcrübə və dəyərləri necə inkişaf etdirə biləcəyini vurğulayaraq, mədəniyyəti müsbət iqlim fəaliyyəti üçün təsirli qüvvəyə çevirməkdir.

Azərbaycan Respublikası mədəniyyət sahəsində dövlət siyasətini qeyd edilən qlobal trendləri nəzərə almaqla həyata keçirir.

### 3. Mövcud vəziyyətin təhlili

2003-2025-ci illər ərzində Azərbaycan Respublikasında mədəniyyət sahəsində əhəmiyyətli işlər görülmüşdür.

Azərbaycan mədəniyyətinin inkişafı məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 14 fevral tarixli 273 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası" uğurla icra olunmuşdur.

Kinematoqrafiyanın və kino sənayesinin inkişafına dövlət dəstəyi göstərilmiş, akademik, milli və aparıcı teatrların sayı artmış, ölkə ərazisində 100-dən artıq beynəlxalq festival, xarici ölkələrdə isə 60-dan çox Azərbaycan mədəniyyəti günləri, 100-dən artıq yubiley və digər mədəniyyət tədbirləri keçirilmişdir.

Qeyd olunan illərdə ölkədə mədəniyyət sahələri üzrə fəaliyyət göstərən yaradıcılıq ittifaqlarına və birliklərinə davamlı dövlət qayğısı göstərilmişdir.

Mədəni irsin qorunması sahəsində də mühüm işlər görülmüş, 2003-2023-cü illər ərzində Azərbaycanın 4 mədəni və təbii irsi - Qobustan qaya sənəti mədəni landşaftı (2007-ci il), Xan sarayı ilə Şəki şəhərinin tarixi mərkəzi (2019-cu il), Hirkan meşələri (2023-cü il) və Xınalıq Köç yolu (2023-cü il) UNESCO-nun "Dünya irsi siyahısı"na daxil edilmiş, bununla da həmin siyahıda Azərbaycanın mədəni və təbii irsinin sayı 5 olmuşdur. Bakı şəhəri (2017-ci il), Şəki şəhəri (2018-ci il) və Lənkəran şəhəri (2019-cu il) UNESCO-nun "Yaradıcı Şəhərlər Şəbəkəsi"nə daxil edilmişdir. Azərbaycanın 24 qeyri-maddi mədəni irs nümunəsi UNESCO-nun "Qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısı"nda (22 nümunə) və "Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısı"nda (2 nümunə) yer almışdır. Azərbaycan üzrə "Tibb və farmakologiyaya aid orta əsrlər əlyazmaları" adı altında 3 əlyazma (Rüstəm Cürcaninin "Zəxireyi-Nizamşahi", Əbülqasim Zəhravinin "Əl-məqələtus-sələsim", Əbu Əli ibn Sinanın "Əl-qanun fit-tibb" əsərləri) 2005-ci ildə, Məhəmməd Füzulinin "Divan"ının surəti 2017-ci ildə, Xurşidbanu Natəvanın "Gül dəftəri" - illüstrasiyalı şeirlər albomu" 2023-cü ildə UNESCO-nun "Dünya yaddaşı reyestri"nə daxil edilmişdir.

Ölkədə fəaliyyət göstərən muzey və qalereyalarda 42700-dən artıq sərgi təşkil olunmuş, ölkə üçün xüsusi əhəmiyyət kəsb edən 36 eksponat xaricdən geri qaytarılmış, 20085 eksponat bərpa olunmuşdur.

Həmçinin ölkədə yeni muzey və rəsm qalereyaları yaradılmış, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 3 dekabr tarixli 2316 nömrəli Sərəncamı əsasında Bakı şəhərində Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinin açılışı olmuşdur. İşğaldan azad edilmiş ərazilərdə İşğal və Zəfər muzeyləri komplekslərinin təməli qoyulmuşdur.

Mədəniyyət sahəsində təhsil fəaliyyətini həyata keçirən müəssisələr yaradılmış, habelə son 20 il ərzində 60-dan çox mütəxəssis dövlət dəstəyi ilə xarici təhsil müəssisələrində mədəniyyət ixtisasları üzrə təhsil almışdır.

2003-2024-cü illərdə Azərbaycanda mədəniyyət sahəsində 14 qlobal və 100-dən artıq regional tədbir keçirilmişdir. Mədəniyyətlərarası dialoqu genişləndirmək məqsədilə "Bakı Prosesi" qlobal mədəni təşəbbüsü, ümumdünya mədəniyyətlərarası dialoq forumlarının da daxil olduğu həmin tədbirlər nəticəsində Azərbaycan Respublikası beynəlxalq müstəvidə mədəni-siyasi nüfuz sahibinə çevrilmişdir. Beynəlxalq əməkdaşlığın inkişafı məqsədilə 6 xarici ölkədə (Almaniya, Avstriya, Fransa, İtaliya, Özbəkistan,Türkiyə) Azərbaycan mədəniyyət mərkəzi yaradılmışdır. Müxtəlif illərdə Azərbaycan Respublikasının 3 şəhəri İslam Dünyasının Mədəniyyət Paytaxtı (Bakı - 2009-cu il üçün, Naxçıvan - 2018-ci il üçün, Şuşa - 2024-cü il üçün), 2 şəhəri Türk Dünyasının Mədəniyyət Paytaxtı (Şəki - 2016-cı il üçün, Şuşa - 2023-cü il üçün) elan edilmişdir.

Həmçinin dövlətin mədəniyyət siyasətinə ictimai dəstək olaraq Heydər Əliyev Fondu tərəfindən mədəniyyət sahəsində milli və beynəlxalq proqram və layihələr (Milli Muğam Müsabiqəsi, "Muğam aləmi" Beynəlxalq Musiqi Festivalı, "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı, Qəbələ Beynəlxalq Musiqi Festivalı, Üzeyir bəy Hacıbəyli Beynəlxalq Musiqi Festivalı və s.) həyata keçirilmiş, insanların yaradıcı potensialının aşkara çıxarılmasına, qabiliyyətlərinin inkişaf etdirilməsinə şərait yaradılmışdır.

Azərbaycan mədəniyyətinin sahələr üzrə inkişafı və mahiyyətcə zənginləşdirilməsi ilə bərabər, mədəniyyət infrastrukturu da inkişaf etdirilmişdir. Mədəni və yaradıcı sənayenin (bundan sonra - MYS) iqtisadi və sosial təsirlərinin qiymətləndirilməsi və Ümumi Daxili Məhsulda (bundan sonra - ÜDM) payının ölçülməsi üçün beynəlxalq praktikaya uyğun metodologiya müasir təmayüllərdəndir. Azərbaycanda hazırda bu sahədə metodoloji işlər davam etdirilir. İlkin hesablamalara əsasən, MYS-nin ÜDM-dəki payı 2018-ci ildə 0,6 faiz, 2019-cu ildə 0,8 faiz, 2020-ci ildə 0,9 faiz, 2021-ci ildə 0,69 faiz, 2022-ci ildə 0,6 faiz, 2023-cü ildə 0,72 faiz, 2024-cü ildə isə 0,8 faiz təşkil etmişdir.

MYS-nin qeyri-neft sektorunda payı 2021-ci il (1,1 faiz) ilə müqayisədə artaraq 1,2 faiz təşkil etmişdir. 2024-cü ildə MYS-nin ölkənin mal ixracında payı 2022-ci illə müqayisədə 2,5 dəfə artmışdır.

MYS subyektlərinin ümumi sayı və MYS ilə məşğul olan hüquqi şəxslərin sayı 2022-ci illə müqayisədə artmışdır.

2003-cü ildən etibarən Ümumdünya Əqli Mülkiyyət Təşkilatının müvafiq metodik göstərişlərinə istinadən, milli iqtisadiyyatın strukturuna və statistikasına uyğunlaşdırılaraq, Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi tərəfindən müəlliflik hüququ və əlaqəli hüquqlara əsaslanan iqtisadiyyatın (bundan sonra - yaradıcı iqtisadiyyat) ÜDM-də payının ölçülməsinə imkan verən metodika tətbiq edilməkdədir. Həmin metodikaya görə, yaradıcı iqtisadiyyat "müəlliflik hüququnun əsas sahələri", "qarşılıqlı asılılıq münasibətlərində olan sahələr", "müəllif hüququna qismən əsaslanan sahələr" və "köməkçi sahələr" olmaqla, 4 fəaliyyət qrupunu əhatə edir. Qeyd edilən metodikaya uyğun Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyində aparılan hesablamalara əsasən, bütövlükdə yaradıcı iqtisadiyyatın ÜDM-də payı getdikcə artmaqdadır: bu pay 2010-cu ildə 3,5 faiz, 2023-cü ildə 5,2 faiz təşkil etmişdir.

Mədəniyyət sisteminin ümumi təhlili göstərir ki, ölkədə mədəniyyət sahəsində əldə edilmiş nailiyyətlərlə bərabər çağırışlar da mövcuddur.

Həmin çağırışlar aşağıdakılardır:

**1. Mədəniyyət sahəsində idarəetmə ilə bağlı çağırışlar:**

1.1. mədəniyyət sahəsində uzunmüddətli və dayanıqlı hədəflərə hesablanmış vahid dövlət siyasətinin həyata keçirilməsi, normativ hüquqi bazanın təkmilləşdirilməsi, geniş ictimai iştirakçılığın təmin edilməsi;

1.2. insan resurslarının inkişafı, sahələr üzrə ixtisaslaşmanın təmin edilməsi, mədəniyyət sahəsində təhsilin məzmununun, ixtisasların və peşələrin, işə qəbul qaydalarının müasirləşdirilməsi;

1.3. maliyyə mənbələrinin diversifikasiyası, mədəniyyət sahəsində təşviq mexanizmlərinin yaradılması, dövlət-özəl tərəfdaşlığı və digər layihələr hesabına investisiyalar cəlb edilməsi, maddi-texniki bazanın gücləndirilməsi, rəqəmsallaşma səviyyəsinin artırılması;

1.4. beynəlxalq təcrübə nəzərə alınmaqla, əqli mülkiyyət hüquqlarının səmərəli qorunması sahəsində qurumlararası əlaqələndirilmiş fəaliyyətin həyata keçirilməsi, müasir təsir mexanizmlərinin yaradılması və təşviqi;

1.5. Azərbaycan mədəniyyəti barədə yerli və beynəlxalq səviyyədə vahid kommunikasiya siyasətinin həyata keçirilməsi, sosial medianın imkanlarından və müasir texnologiyalardan istifadənin genişləndirilməsi;

1.6. mədəniyyətin elm, təhsil və innovasiyalara inteqrasiyası, mədəniyyətlə bağlı elmi araşdırmaların dairəsinin, sayının və keyfiyyətinin artırılması, bu məqsədlə təşviq mexanizmlərinin yaradılması;

1.7. cəmiyyətdə nəsillərarası və digər dialoqun genişləndirilməsi, yüksək yaradıcı nailiyyətləri olan şəxslərin ictimai rolunun artırılması;

1.8. ümumi təhsil, xüsusilə ibtidai təhsil fənləri üzrə dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin məzmununun Azərbaycanın mədəniyyət dəyərlərinə uyğunluğunun təmin edilməsi;

1.9. Azərbaycan mədəniyyətinə qarşı törədilmiş qanunsuz əməllər (mədəni sərvətlərin dağıdılması, talan edilməsi, mənimsənilməsi, xaricə satışı və digər şəkildə ölkədən qanunsuz çıxarılması), habelə vurulmuş zərər barədə məlumatın beynəlxalq səviyyədə yayılması, dəymiş zərərin əvəzinin tələb edilməsi və digər məsuliyyət məsələlərinin həlli istiqamətində əlaqələndirilmiş siyasi, hüquqi, diplomatik, iqtisadi və digər tədbirlərin həyata keçirilməsi.

**2. Azərbaycan dili ilə bağlı çağırışlar:**

Azərbaycan dilinin inkişafı, o cümlədən beynəlxalq aləmdə təbliği və təşviqi ilə bağlı əlaqələndirilmiş fəaliyyətin həyata keçirilməsi, Azərbaycan dilində elmi, elmi-publisistik və bədii əsərlərin sayının və keyfiyyətinin artırılması.

**3. Davranış mədəniyyəti və bilgi mədəniyyəti ilə bağlı çağırışlar:**

3.1. Azərbaycanda davranış mədəniyyəti və bilgi mədəniyyəti ilə bağlı sistemli araşdırma və təhlil aparılması, bu sahələrin mədəniyyətin tərkib hissəsi kimi dövlət siyasətinin əsas istiqamətləri olaraq müəyyən edilməsi;

3.2. ictimai yerlərdə davranış, cəmiyyətdə dialoq, məişət davranışı, nitq, etiket, gigiyena, estetik zövqlər və davranış mədəniyyətinin digər formalarına dair cəmiyyətin üzvləri arasında əlaqələndirilmiş fəaliyyətin həyata keçirilməsi, geniş maarifləndirmə və təbliğat aparılması;

3.3. bilgi mədəniyyətinin funksionallığının artırılması, imkanlarının və təsirlərinin araşdırılıb qiymətləndirilməsi, elmi etikanın təşviq olunması;

3.4. davranış mədəniyyətinin və bilgi mədəniyyətinin tərkib hissəsi olaraq əqli mülkiyyət mədəniyyətinin gücləndirilməsi.

**4. Ədəbiyyat və incəsənətlə bağlı çağırışlar:**

4.1. Azərbaycan ədəbiyyatının və incəsənətinin araşdırılması, inkişafı və beynəlxalq aləmdə təbliği məqsədilə müasir yanaşmalara əsaslanan sistemli fəaliyyətin həyata keçirilməsi;

4.2. ölkədə peşəkar sənət mühitinin zənginləşdirilməsi və peşəkar sənət əsərlərinin keyfiyyətinin artırılması;

4.3. nəşriyyat işi ilə bağlı dəyər zəncirinin təkmilləşdirilməsi;

4.4. kitabxana sistemində nəticələrə hesablanmış yeni idarəetmə və maliyyələşdirmə modellərinin yaradılması, infrastrukturun təkmilləşdirilməsi və xidmətlərin keyfiyyətinin artırılması;

4.5. əqli mülkiyyət hüquqlarının qorunmasının gücləndirilməsi.

**5. Mədəni irsin qorunması ilə bağlı çağırışlar:**

5.1. nəticələrə hesablanmış yeni idarəetmə və maliyyələşdirmə modellərinin yaradılması;

5.2. mədəniyyət əmlakının siyahılarının yenilənməsi, abidələrin balans mənsubiyyəti, sərhədləri və mühafizə zonalarının dəqiqləşdirilməsi, mədəni irsin qorunması və idarə edilməsinin qabaqcıl təcrübəyə uyğunlaşdırılması;

5.3. daşınar mədəni sərvətlərin yaradılması, qeydiyyatı və mühafizəsi işinə və dövriyyəsinə dair qaydaların təkmilləşdirilməsi.

**6. MYS ilə bağlı çağırışlar:**

6.1. MYS-nin iqtisadiyyata inteqrasiyası məqsədilə ÜDM-də payının ölçülməsi üçün normativ baza yaradılması, beynəlxalq təcrübəyə uyğun metodologiyanın müəyyən edilməsi;

6.2. MYS-yə xüsusilə birbaşa xarici investisiyaların həcminin artırılması və diversifikasiyası, peşəkar "təşkilatlanma mühiti"nin (klasterləşmə, yaradıcı sənaye parkları, qovşaqlar, inkubatorlar və digər ekosistem) gücləndirilməsi;

6.3. yaradıcı istedadların MYS-yə girişini asanlaşdıran, eləcə də təşviq edən təhsil və inkubasiya fəaliyyətinin həyata keçirilməsi, MYS ilə təhsil sahələri arasında sıx əməkdaşlığın qurulması;

6.4. mədəniyyət məhsulları və xidmətlərinin istehsal coğrafiyasının və əhatə dairəsinin genişləndirilməsi, keyfiyyətinin və rəqabət qabiliyyətinin artırılması;

6.5. rəqabətədavamlı və müasir audiovizual sənayenin, o cümlədən kino sənayesinin yaradılması, audiovizual sənayedə dəyər zəncirinin formalaşdırılması.

**7. Mədəniyyət diplomatiyası ilə bağlı çağırışlar:**

7.1. Azərbaycan mədəniyyətinin beynəlxalq aləmdə təbliği və Azərbaycanın "yumşaq gücü"nün artırılması üçün mədəniyyət diplomatiyasından geniş istifadə olunması;

7.2. hədəfli və dayanıqlı beynəlxalq mədəni mübadilənin sistemli şəkildə aparılması;

7.3. keyfiyyətli mədəniyyətlərarası dialoq üçün yeni alətlərin işlənilib tətbiq edilməsi;

7.4. dünya azərbaycanlıları arasında milli-mənəvi dəyərlərin öyrənilməsi və təbliği işinin aparılması, xaricdəki Azərbaycan mədəni irsi nümunələrinin aşkarlanması, Azərbaycan mədəni irsinin mənimsənilməsinə qarşı qabaqlayıcı və sonrakı fəaliyyətin həyata keçirilməsi.

*Ardı 10-cu səh.*

Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 14 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmişdir

# "Azərbaycan Mədəniyyəti-2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası

*Əvvəli 9-cu səh.*

### 4. Konsepsiyanın hədəf göstəriciləri

4.1. Konsepsiyanın icrası nəticəsində aşağıdakı hədəflərə nail olunması nəzərdə tutulur:

4.1.1. Azərbaycanın mədəniyyət dəyərlərinin qorunması və Azərbaycan mədəniyyətinin mütərəqqi modelinin formalaşdırılması;

4.1.2. Azərbaycan dilinin dünya dilləri arasında mövqeyinin möhkəmləndirilməsi, regional ünsiyyət vasitəsi kimi rolunun artırılması, beynəlxalq səviyyədə təbliğinin və təşviqinin genişləndirilməsi;

4.1.3. yeni kommunikasiya modellərinin və alətlərinin tətbiqi vasitəsilə, həmçinin mədəniyyətin həyat tərzinin tərkib hissəsinə çevrilməsini təmin etməklə cəmiyyətdə ünsiyyətin və sosial əlaqələrin keyfiyyətinin artırılması;

4.1.4. mədəni irsin müəyyən edilməsi, araşdırılması, bərpası, qorunması və təbliği sahəsində mütərəqqi sistemin yaradılması;

4.1.5. mədəni turizmin inkişafı;

4.1.6. MYS-nin inkişafı, MYS məhsullarının ixracının artırılması;

4.1.7. mədəniyyətə investisiyaların cəlb edilməsi, infrastrukturun təkmilləşdirilməsi, mədəniyyətin rəqəmsallaşdırılması və rəqəmsal mədəniyyətin inkişafı;

4.1.8. mədəniyyət diplomatiyasının inkişafı.

### 5. Konsepsiyanın məqsədləri

5.1. Konsepsiya aşağıdakı məqsədlərə nail olunmasına xidmət edir:

5.1.1. mədəniyyət sahəsində idarəetmənin təkmilləşdirilməsi;

5.1.2. Azərbaycanın mədəniyyət dəyərlərinin qorunmasının və təbliğinin, beynəlxalq miqyasda tanıdılmasının siyasi, iqtisadi və sosial təsirlərinin genişləndirilməsi;

5.1.3. Azərbaycan dilinin, incəsənətin və ədəbiyyatın mədəniyyətdə payının, funksionallığının, cəmiyyətin tərəqqisində, fərdlərin məntiqi, tənqidi və yaradıcı təfəkkürünün, estetik zövqünün, dünyagörüşünün, həyat fəlsəfəsinin formalaşmasında rolunun artırılması;

5.1.4. davranış mədəniyyətinin, bilgi mədəniyyətinin fərdin və cəmiyyətin həyatında rolunun, sosial və siyasi təsirinin artırılmasını təmin edən sistemin formalaşdırılması;

5.1.5. MYS-nin inkişafı və iqtisadiyyata inteqrasiyası, o cümlədən MYS sahəsində iqtisadi fəaliyyət və peşə növlərinin sayının, məşğulluq səviyyəsinin, ixrac edilən mal və xidmətlərin sayının, həcminin və rəqabətədavamlılığının artırılması;

5.1.6. mədəniyyətin ÜDM-də payının artırılması;

5.1.7. mədəni irsin qorunmasının və mədəni irslə əlaqəli infrastrukturun müasir tələblərə uyğun təkmilləşdirilməsi;

5.1.8. mədəni turizmdə müasir dəyər zəncirinin formalaşdırılması;

5.1.9. mədəniyyət sahəsində əqli mülkiyyət hüquqlarının qorunması və təminatı ilə bağlı mexanizmlərin təkmilləşdirilməsi;

5.1.10. mədəniyyət sahəsində vahid informasiya və kommunikasiya siyasətinin formalaşdırılması;

5.1.11. mədəniyyətin rəqəmsallaşma səviyyəsinin artırılması və mədəniyyət sahəsində rəqəmsal ekosistemin formalaşdırılması;

5.1.12. Azərbaycan mədəniyyətinin beynəlxalq mədəni mübadilədə səmərəli iştirakı, Azərbaycanın mədəniyyət dəyərlərinin geniş təbliği, Azərbaycanın beynəlxalq imicinin yüksəldilməsi;

5.1.13. Azərbaycan mədəniyyəti nümunələrinin beynəlxalq siyahılara daxil edilməsinin və mədəniyyət sahəsində beynəlxalq öhdəliklərin icrasının əlaqələndirilmiş şəkildə həyata keçirilməsi;

5.1.14. mədəniyyətə cəlb edilən investisiyaların artırılması və diversifikasiyası;

5.1.15. işğaldan azad edilmiş ərazilərdə mədəniyyət institutlarının bərpası, yeni infrastrukturun yaradılması, mədəni həyatın canlandırılması və mədəni irsin qorunması.

### 6. Konsepsiyanın prioritet istiqamətləri

6.1. Konsepsiya çərçivəsində aşağıdakı prioritet istiqamətlər üzrə tədbirlər həyata keçiriləcəkdir:

**6.1.1. Mədəniyyət sahəsində idarəetmənin təkmilləşdirilməsi:**

**6.1.1.1. Əsaslandırma:** Azərbaycan Respublikasında mədəniyyətin hər bir fərdin və bütövlükdə cəmiyyətin inkişafında rolunun artırılması məqsədilə, ilk növbədə, mədəniyyət sahəsində idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi zəruridir;

**6.1.1.2. Görüləcək tədbirlər:**

6.1.1.2.1. mədəniyyət sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi;

6.1.1.2.2. mədəniyyət sahəsində institusional islahatlar aparılması;

6.1.1.2.3. mədəniyyətə əlçatanlığın və inklüzivliyin təmin edilməsi;

6.1.1.2.4. mədəniyyət sahəsində maliyyələşdirmənin optimallaşdırılması və investisiyaların təşviqi;

6.1.1.2.5. mədəniyyət sahəsində insan kapitalının inkişafı və kadr hazırlığının artırılması;

6.1.1.2.6. mədəniyyət infrastrukturunun təkmilləşdirilməsi;

6.1.1.2.7. mədəniyyət sahəsində rəqəmsal inkişaf və rəqəmsal mədəniyyətin formalaşdırılması;

6.1.1.2.8. müasir mədəniyyət kommunikasiyası modellərinin tətbiqi;

**6.1.1.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.1.3.1. normativ hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə müvafiq normativ hüquqi akt layihələri hazırlanacaqdır;

6.1.1.3.2. mədəniyyət sahəsində institusional islahatlar aparılacaq, ixtisaslı kadrların sayı artırılacaqdır;

6.1.1.3.3. mədəniyyət sahəsində davamlı sosial əlaqələr, əməkdaşlıq və dialoq genişləndiriləcək, yeni və keyfiyyətli məzmun yaradılacaqdır;

6.1.1.3.4. mədəniyyət sahəsinin maliyyələşdirilməsi mexanizmləri təkmilləşdiriləcək, dövlət-özəl tərəfdaşlığı modellərindən istifadə olunacaqdır;

6.1.1.3.5. mədəniyyət sahəsində kadr hazırlığı sistemi təkmilləşdiriləcəkdir;

6.1.1.3.6. mədəniyyət əmlakı inventarlaşdırılacaq və siyahılar tərtib ediləcəkdir;

6.1.1.3.7. mədəniyyət sahəsində göstərilən xidmətlər rəqəmsallaşdırılacaqdır;

**6.1.1.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.1.4.1. inventarlaşdırılma və rəqəmsallaşdırılmaüçün maliyyə vəsaitinin qarşılanması məqsədilə sahibkarlarla sıx əməkdaşlıq qurulması, eləcə də dövlət-özəl tərəfdaşlığından istifadə edilərək maliyyələşdirilmənin təmin edilməsi ilə bağlı tədbirlər görülə bilər;

**6.1.2. Azərbaycan dilinin inkişafı:**

**6.1.2.1. Əsaslandırma:** Azərbaycan dilinin mədəniyyətdəki rolunun gücləndirilməsinə, onun mahiyyətcə inkişafına, həmçinin beynəlxalq səviyyədə təbliğinə və təşviqinə ehtiyac vardır;

**6.1.2.2. Görüləcək tədbirlər:**

6.1.2.2.1. Azərbaycan dilinin rolunun artırılması məqsədilə sistemli fəaliyyətin həyata keçirilməsi;

6.1.2.2.2. Azərbaycan dilinin inkişafı, təbliği və təşviqi ilə bağlı fəaliyyətin gücləndirilməsi;

**6.1.2.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.2.3.1. Azərbaycan ədəbi dili inkişaf edəcəkdir;

6.1.2.3.2. Azərbaycan dilində yeni əsərlər yaradılacaqdır;

6.1.2.3.3. Azərbaycan ədəbi dilindən istifadə artacaqdır;

6.1.2.3.4. Azərbaycan dilindən rəqəmsal platformalarda daha geniş istifadə olunacaqdır;

**6.1.2.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.2.4.1. araşdırma və elmi tədqiqatlar üçün maliyyə vəsaitinin təmin edilməsi məqsədilə sahibkarlarla sıx əməkdaşlıq qurulması, eləcə də qrant proqramları və dövlət-özəl tərəfdaşlığından istifadə edilərək maliyyələşdirilmənin aparılması ilə bağlı tədbirlər görülə bilər;

**6.1.3. Davranış mədəniyyəti və bilgi mədəniyyəti:**

**6.1.3.1. Əsaslandırma:** Davranış mədəniyyəti və bilgi mədəniyyəti sağlam və inkişaf etmiş cəmiyyətin formalaşmasında əsas amillərdən biridir. Davranış mədəniyyəti fərdin milli-mənəvi dəyərlərə əsaslanaraq digər fərdlərlə, qruplarla əlaqə və ünsiyyət qurmaqda, ətraf dünya ilə rəftarda ifadə olunan davranış formalarının məcmusudur. Bilgi mədəniyyəti isə elmin, təhsilin və maarifləndirmənin Azərbaycanın mədəniyyət dəyərlərinə əsaslanmaqla həyata keçirilməsini, fərdlərin və cəmiyyətin gündəlik həyatında informasiya daxil olmaqla bilgidən istifadəni istiqamətləndirən yanaşma, baxış və ifadə formalarının məcmusunu nəzərdə tutur. Azərbaycan Respublikasında bu sahələrin inkişaf etdirilməsi və funksionallığının təmin olunması məqsədilə müasir alətlərin və modellərin hazırlanması, effektiv tədbirlərin görülməsi şərtdir;

**6.1.3.2. Görüləcək tədbirlər:**

6.1.3.2.1. Azərbaycanda davranış mədəniyyətinin rolunun artırılması istiqamətində qurumlararası əlaqələndirilmiş fəaliyyətin həyata keçirilməsi;

6.1.3.2.2. Azərbaycan cəmiyyətinin elmi əsaslı çoxmeyarlı (ünsiyyət, qiymətləndirmə, rəhbərlik etmə, qərar vermə, etibar etmə, razılaşmama/fikir ayrılığı, vaxta/planlaşdırmaya münasibət, inandırma) davranış mədəniyyəti modelinin və onun əsasında cəmiyyətdaxili və dünya mədəniyyətləri ilə səmərəli kommunikasiya alətlərinin hazırlanması və təbliği;

6.1.3.2.3. milli-mənəvi dəyərlərin əsas daşıyıcısı kimi ailə institutunun nüfuzunun gücləndirilməsi istiqamətində qurumlararası əlaqələndirilmiş fəaliyyətin həyata keçirilməsi;

6.1.3.2.4. ictimai iştirakçılıq təmin edilməklə, Azərbaycanda inkulturasiya, akkulturasiya və assimilyasiya imkanlarının araşdırılması;

6.1.3.2.5. Azərbaycanda bilgi mədəniyyətinin funksionallığının artırılması istiqamətində qurumlararası əlaqələndirilmiş tədbirlər həyata keçirilməsi;

**6.1.3.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.3.3.1. ictimai yerlərdə davranış, cəmiyyətdə dialoq, məişət davranışı, nitq, etiket, gigiyena, estetik zövqlər və davranış mədəniyyətinin digər formaları inkişaf edəcəkdir;

6.1.3.3.2. bilgi mədəniyyətinin funksionallığı artacaqdır;

**6.1.3.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.3.4.1. prosesə cəlb edilə biləcək mütəxəssislərin və araşdırmaların məhdudluğu nəzərə alınaraq, xarici mütəxəssislərin prosesə cəlb edilməsi və araşdırmaların genişləndirilməsi ilə bağlı tədbirlər görülə bilər;

**6.1.4. Ədəbiyyatın inkişafı:**

**6.1.4.1. Əsaslandırma:** Azərbaycan ədəbiyyatı mədəniyyətin inkişafında, eləcə də fərdlərin məntiqi, tənqidi və yaradıcı təfəkkürünün formalaşmasında mühüm rol oynamaq potensialına malikdir. Ədəbiyyatın rolunun artırılması, təbliğinin, o cümlədən nəşriyyat işinin inkişafı sistemli fəaliyyət şəklində həyata keçirilməlidir;

**6.1.4.2. Görüləcək tədbirlər:**

6.1.4.2.1. mədəniyyətin inkişafında, eləcə də məntiqi, tənqidi və yaradıcı təfəkkürün formalaşmasında ədəbiyyatın rolunun artırılması;

6.1.4.2.2. ədəbiyyatın təbliğinin, o cümlədən nəşriyyat işinin inkişafı;

**6.1.4.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.4.3.1. elmi və ədəbi yaradıcılıq inkişaf edəcəkdir;

6.1.4.3.2. kitabxanaların fəaliyyəti təkmilləşdiriləcək, o cümlədən fiziki və rəqəmsal kitabxana resursları zənginləşdiriləcəkdir;

6.1.4.3.3. ədəbiyyata və nəşriyyat işinə dair sənət növləri inkişaf edəcəkdir;

6.1.4.3.4. nəşriyyat işi dəyər zənciri müasirləşdiriləcəkdir;

**6.1.4.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.4.4.1. tədbirlərin həyata keçirilməsi ilə bağlı mexanizmlərin nəticəyönlü metod və metodologiyadan istifadə edilməklə hazırlanmasına, xarici mütəxəssislər daxil olmaqla, mütəxəssislər cəlb edilə bilər;

6.1.4.4.2. tədbirlərin həyata keçirilməsi sahibkarların və digər maraqlı tərəflərin maliyyə vəsaiti hesabına təmin edilə bilər. Sahibkarların və digər maraqlı tərəflərin vəsaiti tədbirlərin tam həcmdə həyata keçirilməsi üçün kifayət etmədikdə, maliyyələşmənin bu Konsepsiyanın 7-ci hissəsində qeyd olunan digər mənbələr hesabına təmin edilməsi nəzərdə tutulur;

**6.1.5. İncəsənətin inkişafı:**

**6.1.5.1. Əsaslandırma:** Azərbaycan incəsənətinin mədəniyyətdə rolu kifayət qədər genişdir. Bu rolun effektivliyinin artırılması, incəsənətin inkişafının təmin edilməsi, ölkədə peşəkar sənət mühitinin zənginləşdirilməsi üçün tədbirlər görülməsi zəruridir;

**6.1.5.2. Görüləcək tədbirlər:**

6.1.5.2.1. mədəniyyətin, cəmiyyətin və fərdlərin inkişafında incəsənətin rolunun artırılması;

6.1.5.2.2. incəsənətin sahələr üzrə inkişafı;

**6.1.5.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.5.3.1. incəsənət inkişaf edəcəkdir;

6.1.5.3.2. unudulmuş və ya unudulmaqda olan sənət növləri bərpa olunacaqdır;

6.1.5.3.3. teatrların fəaliyyəti, infrastrukturu və repertuarları təkmilləşdiriləcəkdir;

6.1.5.3.4. Azərbaycanın musiqi irsinin qorunması təmin olunacaqdır;

**6.1.5.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.5.4.1. tədbirlərin həyata keçirilməsi sahibkarların və digər maraqlı tərəflərin maliyyə vəsaiti hesabına təmin edilə bilər. Sahibkarların və digər maraqlı tərəflərin vəsaiti tədbirlərin tam həcmdə həyata keçirilməsi üçün kifayət etmədikdə, maliyyələşmənin bu Konsepsiyanın 7-ci hissəsində qeyd olunan digər mənbələr hesabına təmin edilməsi nəzərdə tutulur;

6.1.5.4.2. yaradılan incəsənət məzmununun yayılması üçün müasir mexanizmlər və mühit müvafiq dövlət və yerli özünüidarəetmə orqanları, eləcə də ictimaiyyət nümayəndələri arasında əməkdaşlığın gücləndirilməsi yolu ilə təmin edilə bilər.

**6.1.6. Mədəni irsin qorunması və inkişafı:**

**6.1.6.1. Əsaslandırma:** Azərbaycan mədəni irsi Azərbaycan mədəniyyətinin tərkib hissəsidir. Mədəni irs cəmiyyətin keçmişinə aid dəyərləri özündə ehtiva etməklə yanaşı, onları gələcək nəsillərə ötürmək üçün əsas vasitə rolunu oynayır. Mədəni irsin qorunmasının təkmilləşdirilməsi məqsədilə davamlı və sistemli fəaliyyətin həyata keçirilməsi, həmçinin beynəlxalq mədəni mübadilədə iştirakın genişləndirilməsi istiqamətində tədbirlər görülməsi zəruridir;

**6.1.6.2. Görüləcək tədbirlər:**

6.1.6.2.1. vahid yanaşma tətbiq edilməklə, mədəni irsin qorunması sahəsində nəticəəsaslı yeni idarəetmə və maliyyələşdirmə modellərinin yaradılması, mədəni irslə əlaqəli infrastrukturun müasirləşdirilməsi və təkmilləşdirilməsi;

6.1.6.2.2. mədəni irsin qorunması, o cümlədən bərpası sahəsində fəaliyyətin təkmilləşdirilməsi, bu sahədə yeni təşviq və dəstək mexanizmlərinin, açıq və şəffaf idarəetmə və nəzarət sisteminin yaradılması, dövlət-özəl tərəfdaşlığının və dövlət-vətəndaş əlaqələrinin genişləndirilməsi;

6.1.6.2.3. mədəni irslə bağlı məlumat bazalarının təkmilləşdirilməsi, o cümlədən mədəniyyət əmlakı siyahılarının yenilənməsi, abidələrin balans mənsubiyyətinin, sərhədlərinin və mühafizə zonalarının dəqiqləşdirilməsi;

6.1.6.2.4. qeyri-maddi mədəni irsin araşdırılması, sistemləşdirilməsi, qeydiyyatı və qorunmasının gücləndirilməsi;

6.1.6.2.5. Azərbaycan xalqının yaratdığı mədəni irsin yerləşdiyi tarixi coğrafiyada Azərbaycan xalqının mədəni irsinin atribusiyası, qorunması və restitusiyası ilə bağlı fəaliyyətin həyata keçirilməsi;

6.1.6.2.6. işğaldan azad edilmiş ərazilərdə mədəni irsin, o cümlədən arxeoloji abidələrin qorunması ilə bağlı fəaliyyətin təkmilləşdirilməsi, mədəni irsə vurulmuş zərərlə bağlı beynəlxalq ictimaiyyətin məlumatlılığının artırılması və dəymiş zərərin əvəzinin ödənilməsi məqsədilə tədbirlər görülməsi;

**6.1.6.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.6.3.1. mədəni irsə vahid yanaşma təmin olunacaqdır;

6.1.6.3.2. mədəni irslə bağlı məlumat bazaları təkmilləşdiriləcəkdir;

6.1.6.3.3. mədəni irsin qorunması, o cümlədən bərpası sahəsində fəaliyyət təkmilləşdiriləcəkdir;

6.1.6.3.4. mədəni sərvətlərin yaradılması, qeydiyyatı, dövriyyəsi, mühafizəsi işi təkmilləşdiriləcəkdir;

6.1.6.3.5. muzey və qalereyaların fəaliyyəti və infrastrukturu təkmilləşdiriləcək, inklüzivlik və əlçatanlıq təmin olunacaqdır;

6.1.6.3.6. mədəni turizm inkişaf edəcəkdir;

**6.1.6.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.6.4.1. mədəni irsin inventarlaşdırılması və infrastrukturun yenilənməsi üçün tələb olunacaq maliyyə vəsaitinin qarşılanması məqsədilə dövlət-özəl tərəfdaşlığı və digər əməkdaşlıq modelləri çərçivəsində tədbirlər görülə bilər. Sahibkarların və digər maraqlı tərəflərin vəsaiti tədbirlərin tam həcmdə həyata keçirilməsi üçün kifayət etmədikdə, maliyyələşmənin bu Konsepsiyanın 7-ci hissəsində qeyd olunan digər mənbələr hesabına təmin edilməsi nəzərdə tutulur;

6.1.6.4.2. mədəni irsin yeni qorunma modelinin, o cümlədən texniki normativ hüquqi aktların layihələrinin hazırlanmasına və tətbiqinə əlavə mütəxəssislər cəlb edilə, nəticəyönümlü beynəlxalq əməkdaşlıq tədbirləri həyata keçirilə bilər;

**6.1.7. Mədəni və yaradıcı sənayenin inkişafı:**

**6.1.7.1. Əsaslandırma:** MYS-nin ölkə iqtisadiyyatında rolu genişlənməkdədir. Azərbaycan Respublikasında MYS-nin inkişafı MYS-nin ÜDM-də payının artırılması və yaradıcı şəxslərin məşğulluğunun təmin edilməsi baxımından zəruridir;

**6.1.7.2. Görüləcək tədbirlər:**

6.1.7.2.1. MYS-nin dinamik inkişafını təmin edən qanunvericilik və institusional islahatların həyata keçirilməsi;

6.1.7.2.2. MYS-nin maliyyələşdirilməsi mənbələrinin diversifikasiyası, bu sahəyə investisiya qoyuluşu və təşviqi imkanlarının, habelə dövlət-özəl tərəfdaşlığının genişləndirilməsi;

6.1.7.2.3. MYS-nin müqayisəli üstünlüyə malik sahələri üzrə dəyər zəncirinin formalaşdırılması, milli brendlərin yaradılması;

6.1.7.2.4. kino sənayesində dövlət sifarişi sisteminin, dəyər zəncirinin, o cümlədən kütləvi nümayiş və yayım sisteminin təkmilləşdirilməsi;

6.1.7.2.5. filmlərin dublyajı ekosisteminin təkmilləşdirilməsi;

**6.1.7.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.7.3.1. MYS-yə investisiya qoyuluşları artacaqdır;

6.1.7.3.2. MYS üzrə dəyər zənciri təkmilləşdiriləcəkdir;

6.1.7.3.3. MYS üzrə ixrac potensialı gücləndiriləcəkdir;

6.1.7.3.4. MYS üzrə fəaliyyət sahələri inkişaf edəcək və məşğulluq artacaqdır;

**6.1.7.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.7.4.1. tədbirlərin həyata keçirilməsi sahibkarların və digər maraqlı tərəflərin maliyyə vəsaiti hesabına təmin edilə bilər.Sahibkarların və digər maraqlı tərəflərin vəsaiti tədbirlərin tam həcmdə görülməsi üçün kifayət etmədikdə, maliyyələşmənin bu Konsepsiyanın 7-ci hissəsində qeyd olunan digər mənbələr hesabına təmin edilməsi nəzərdə tutulur;

**6.1.8. Mədəniyyət diplomatiyasının inkişafı:**

**6.1.8.1. Əsaslandırma:** Azərbaycan Respublikasının beynəlxalq aləmdə təbliği prosesində mədəniyyət diplomatiyası əsas alətlərdən biridir. Azərbaycanın "yumşaq gücü"nün artırılması məqsədilə bu sahədə həyata keçirilən dövlət siyasəti siyasi, iqtisadi və sosial təsir gücünə malik olmalıdır;

**6.1.8.2. Görüləcək tədbirlər:**

6.1.8.2.1. Azərbaycan mədəniyyətinin və mədəniyyət dəyərlərinin beynəlxalq aləmdə təbliği ilə bağlı fəaliyyətin, o cümlədən Azərbaycan Respublikası diplomatik nümayəndəliklərinin tabeliyində olan mədəniyyət mərkəzlərinin fəaliyyətinin təkmilləşdirilməsi;

6.1.8.2.2. Azərbaycan dilinin yayılma coğrafiyasının genişləndirilməsi və beynəlxalq ünsiyyətdəki rolunun artırılması məqsədilə tədbirlər görülməsi;

6.1.8.2.3. Azərbaycanın mədəni irsinin beynəlxalq aləmdə təbliği, tanıdılması və qorunması məqsədilə qurumlararası əlaqələndirilmiş fəaliyyətin həyata keçirilməsi;

6.1.8.2.4. Azərbaycanın mədəni irs nümunələrinin təbliği, o cümlədən nüfuzlu onlayn platformalarda yerləşdirilməsi, sərgilənməsi, araşdırılması və digər qaydada tanıdılması üçün normativ hüquqi bazanın və prosedurların təkmilləşdirilməsi;

6.1.8.2.5. Azərbaycanın sənədli irsinin UNESCO-nun "Dünya Yaddaşı Reyestri"nə daxil edilməsi ilə bağlı tədbirlər görülməsi;

6.1.8.2.6. Azərbaycanın dünyadakı izinin dərinləşdirilməsi məqsədilə Azərbaycanda dayanıqlı beynəlxalq mədəniyyət tədbirlərinin təşkili, Azərbaycan mədəniyyətinin xarici və beynəlxalq mədəniyyət tədbirlərində təmsil edilməsinin və təbliğinin genişləndirilməsi;

6.1.8.2.7. Azərbaycanın dünyadakı izinin araşdırılması, o cümlədən Azərbaycan mənşəli mədəni irs nümunələrinin və mədəni sərvətlərin yerləşmə xəritəsinin hazırlanması, tədqiqi və atribusiyası, habelə mümkün olduqda restitusiyası və qaytarılması ilə bağlı məsələlərin sistemli şəkildə həll edilməsi;

6.1.8.2.8. dünyanın aparıcı muzeylərində Azərbaycan mədəniyyəti guşələrinin yaradılması və həmin muzeylərlə əməkdaşlığın genişləndirilməsi;

6.1.8.2.9. mədəniyyətin və onunla əlaqəli fəaliyyətin seçilmiş sahələrində Azərbaycanın regional və beynəlxalq qovşağa çevrilməsinin təmin olunması;

6.1.8.2.10. Azərbaycan vətəndaşlarının və dünya azərbaycanlılarının yaradıcılıq bacarıqlarının artırılması yolu ilə beynəlxalq layihələrdə və təşkilatlarda aparıcı mövqelərdə iştirakının genişləndirilməsi;

6.1.8.2.11. Azərbaycan mədəniyyətinin dünyada tanıdılması;

**6.1.8.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.8.3.1. dövlətin "yumşaq gücü" artacaqdır;

6.1.8.3.2. Azərbaycan mədəniyyətinin və mədəniyyət dəyərlərinin beynəlxalq aləmdə təbliği gücləndiriləcəkdir;

6.1.8.3.3. Azərbaycan dövlətinin beynəlxalq imicinə, tarixinə və mədəniyyətinə qarşı aparılan mənfi təbliğat zəifləyəcək və əhəmiyyətsizləşdiriləcəkdir;

**6.1.8.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.8.4.1. tədbirlərin həyata keçirilməsinə dünyada baş verən geosiyasi proseslərin təsirini neytrallaşdırmaq üçün mütəxəssislərin iştirakı ilə təhlillər, araşdırmalar və planlamalar aparıla bilər.

### 7. Maliyyələşdirmə mexanizmləri

Konsepsiya çərçivəsində həyata keçiriləcək tədbirlərin maliyyələşdirilməsi müvafiq illər üzrə Azərbaycan Respublikası dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərində müvafiq icraçı təşkilatlar üçün nəzərdə tutulmuş vəsait, dövlət-özəl tərəfdaşlığı yolu ilə özəl tərəfdaşların vəsaiti və qanunla qadağan olunmayan digər mənbələr hesabına həyata keçirilir.

*Ardı 11-ci səh.*

Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 14 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmişdir

# "Azərbaycan Mədəniyyəti-2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası

*Əvvəli 10-cu səh.*

**8. 2026–2030-cu illər üçün Konsepsiyanın həyata keçirilməsi üzrə Tədbirlər Planı**

| Sıra №-si | Tədbirin adı | Əsas icraçı orqan (qurum), fəaliyyət istiqamətlərinə uyğun olaraq | Digər icraçılar | İcra müddəti | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| **8.1. Mədəniyyət sahəsində idarəetmənin təkmilləşdirilməsi** | | | | | | | |
| **8.1.1. Mədəniyyət sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi** | | | | | | | |
| 8.1.1.1. | Mədəniyyət sahəsini tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflər verilməsi | NK, MdN | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Qanunvericiliyin təhlili, müvafiq normativ hüquqi akt layihələrinin hazırlanması | Normativ hüquqi akt layihələrinin müvafiq dövlət orqanları (qurumları) ilə razılaşdırılması | Normativ hüquqi akt layihələrinin aidiyyəti üzrə təqdim edilməsi |
| 8.1.1.2. | Mədəniyyət sahəsinə investisiyaların və digər maliyyə vəsaitinin cəlb edilməsi üçün təşviq mexanizmləri, həmçinin mədəniyyət sahəsində imtiyaz və güzəştlərlə bağlı təkliflər verilməsi | NK, MdN | İN, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2027 | Mədəniyyət sahəsinə investisiyaların və digər maliyyə vəsaitinin cəlb edilməsi üçün təşviq mexanizmləri, mədəniyyət sahəsində imtiyaz və güzəştlərlə bağlı araşdırmalar, təhlil və ilkin müzakirələr aparılması | Müvafiq normativ hüquqi akt layihələrinin hazırlanması | Müvafiq normativ hüquqi akt layihələrinin razılaşdırılması və aidiyyəti üzrə təqdim edilməsi |
| **8.1.2. Mədəniyyət sahəsində institusional islahatlar aparılması** | | | | | | | |
| 8.1.2.1. | Mədəniyyət sahəsində institusional islahatlar aparılması, o cümlədən idarəetmənin təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlanması | MdN | MN, İN, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2027 | Mədəniyyət sahəsində icra funksiyasının dövlət siyasəti, dövlət tənzimləməsi və dövlət nəzarəti funksiyalarından ayrılmasının institusional yolları ilə bağlı təhlil aparılması | Sahəvi idarəetmə ilə bağlı təkliflərin, o cümlədən normativ hüquqi akt layihələrinin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | Mədəniyyət sahələrində idarəetmənin daha çevik, dayanıqlı, müasir və səmərəli təşkili |
| 8.1.2.2. | Mədəniyyətin təhsilin tərkib hissəsinə çevrilməsi, o cümlədən mədəniyyət sahələrinə, Azərbaycanın mədəniyyət dəyərlərinə dair fənn və biliklərin tədrisinin təmin edilməsi | ETN, MdN | digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Mədəniyyətin təhsil proqramlarına inteqrasiyası | Mədəniyyət sahəsində təhsilverənlər üçün peşəkar təlim sisteminin qurulması, məktəbdənkənar mədəniyyət təhsili sisteminin inkişafı üçün tədbirlər görülməsi | Təhsilalanlar və təhsilverənlər üçün mədəniyyət müəssisələrinə və abidələrə giriş sisteminin təkmilləşdirilməsi, tarix və mədəniyyət abidələrinə virtual turlar və dünya mədəniyyətlərini əhatə edən interaktiv təhsil platformaları kimi rəqəmsal resurs və texnologiyaların hazırlanması |
| 8.1.2.3. | Elmin və mədəniyyətin qarşılıqlı əlaqəsinin təmin edilməsi | MdN, ETN, AMEA | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Mədəniyyət sahələri ilə bağlı elmi araşdırmaların sayının artırılması | Beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə (bazalarına) daxil olan dövri elmi nəşrlərdə mədəniyyət sahələri üzrə dərc olunmuş elmi əsərlərin sayının artırılması | Mədəniyyət sahəsində nəticəyönlü və səmərəli elmi araşdırmalar aparılması |
| 8.1.2.4. | Mədəniyyət sahəsində təhsilin təkmilləşdirilməsi | MdN, ETN | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2027 | Mədəniyyət sahəsində təhsil fəaliyyətini həyata keçirən təsisatların fəaliyyətinin optimallaşdırılması ilə bağlı təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | Mədəniyyət sahəsində təhsil fəaliyyətinə ayrılan resursların səmərəli bölgüsünün təmin olunması | Mədəniyyət sahəsində kadr hazırlığının təkmilləşdirilməsi, müasir çağırışlara cavab verən yeni ixtisasların yaradılması və tədrisin yeni məzmununun təmin edilməsi |
| 8.1.2.5. | Mədəniyyət sahəsində əqli mülkiyyət hüquqlarının qorunmasının və təmin edilməsinin gücləndirilməsi | NK, MdN, ƏMA | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2027 | Mədəniyyət sahəsində əqli mülkiyyət hüquqlarının qorunması mexanizmlərinə dair təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | Mədəniyyət sahəsində müəlliflərin və əlaqəli hüquq sahiblərinin əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatların fəaliyyətinin təşviq edilməsi və dəstəklənməsi mexanizmlərinə dair təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | Əqli mülkiyyət hüquqlarının yaradıcı iqtisadiyyatda payının və rolunun artırılması |
| 8.1.2.6. | Regionlarda mədəni turizmin inkişafı, mədəni irs nümunələrinin və MYS-nin yayılması və yerləşməsi coğrafiyasına uyğun olaraq turizmlə əlaqəli infrastruktur işlərinin həyata keçirilməsi | MdN, DTA | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2028 | Hər bir regionun mədəni irsi, tarixi və digər xüsusiyyətləri nəzərə alınmaqla, mədəni turizm və MYS məhsullarının istehsalı potensialının təhlili | Təhlillər nəticəsində əldə edilmiş göstəricilərə uyğun olaraq təkliflər hazırlanması | Təkliflərə uyğun olaraq regionlarda mədəni turizmin inkişafı və MYS məhsullarının istehsalı potensialının artırılması |
| 8.1.2.7. | Özəl investisiyalar cəlb etmək və sahibkarlığın inkişafına əlverişli mühit yaratmaq məqsədilə mədəniyyət sahəsində iqtisadi idarəetmənin və fəaliyyətin liberallaşdırılması | MdN | İN, MN | 2026–2030 | Mədəniyyət sahəsində dövlət mülkiyyətində olan müəssisə və obyektlərin (qanunvericiliklə özəlləşdirilməsi qadağan olunan mədəniyyət təsisatları və əmlaklar istisna edilməklə) özəlləşdirilməsi ilə bağlı təhlillər aparılması | Təhlillər əsasında mədəniyyət sahəsində dövlət mülkiyyətində olan müəssisə və obyektlərin özəlləşdirilməsi və ya özəl sektorla birgə istifadə mexanizmlərinin yaradılması ilə bağlı təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | Mədəniyyət sahəsinə cəlb edilmiş investisiyaların həcminin artırılması |
| **8.1.3. Mədəniyyətə əlçatanlığın və inklüzivliyin təmin edilməsi** | | | | | | | |
| 8.1.3.1. | Mədəniyyət sahəsində dövlət orqanları (qurumları) və cəmiyyət arasında davamlı sosial əlaqələrin, əməkdaşlığın və dialoqun genişləndirilməsi məqsədilə daimi fəaliyyət göstərən forumun təşkili və onun çərçivəsində regionlarda mütəmadi olaraq aktual mövzulara həsr olunmuş inklüziv forumların və digər maarifləndirmə tədbirlərinin keçirilməsi | MdN | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Forumların təşkili | Forumların nəticələrinin təhlili, mədəniyyətlə bağlı maarifləndirmə sahəsində qrant proqramlarının hazırlanması | Mədəniyyətin sosial rolunun artırılması, dövlətlə cəmiyyət arasında etimadın gücləndirilməsi |
| 8.1.3.2. | Gənclər tərəfindən yeni və keyfiyyətli mədəniyyət məhsullarının və mədəni sərvətlərin yaradılması üçün dəstək proqramlarının həyata keçirilməsi | MdN | GİN, ETN, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Gənclərin mədəni iştirakçılığının artırılması ilə bağlı tədbirlər planının hazırlanması | Gənclərin mədəni iştirakçılığının artırılması ilə bağlı tədbirlər planının həyata keçirilməsi | Gənclər tərəfindən yeni və keyfiyyətli mədəniyyət məhsullarının və mədəni sərvətlərin yaradılması, beynəlxalq mədəni mübadilədə iştirakın genişləndirilməsi |
| 8.1.3.3. | Mədəniyyətin sahələri üzrə nəsillərarası dialoqun təmin edilməsi ilə bağlı fəaliyyətin həyata keçirilməsi | MdN | AQUPDK, GİN, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Azərbaycanın mədəniyyət dəyərlərinə əsaslanan səmərəli nəsillərarası dialoqun təmin edilməsi üçün təhlillər aparılması | Təhlillərə əsasən qurumlararası tədbirlər planının hazırlanması | Tədbirlər planına uyğun olaraq nəsillərarası dialoq üçün yeni, daha səmərəli dialoq formatlarının qurulması və platformaların yaradılması |
| 8.1.3.4. | Yaradıcı şəxslərlə müasir rəqəmsal texnologiya biliciləri arasında əməkdaşlığın qurulması və yaradıcılıq nəticələrinin sınanması, eləcə də təbliği üçün xüsusi ekosistemlərin yaradılması | MdN | RİNN, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2028 | Ekosistemin formatı, iştirakçıları, iştirak meyarları ilə bağlı araşdırmalar aparılması və təkliflər hazırlanması | İnnovativ yaradıcılıq məhsullarının rəqabətədavamlılığının artırılması məqsədilə müəyyən edilmiş müddət ərzində və real rejimdə sınaqdan keçirilməsi üçün xüsusi tənzimləmə rejiminin ("regulatory sandbox") yaradılması | Əməkdaşlıqların qurulması, yaradıcı şəxslərin və müasir rəqəmsal texnologiya bilicilərinin mədəniyyət məhsullarının istehsalında iştirak payının artırılması |
| 8.1.3.5. | Uşaqların, yaşlıların, əlilliyi olan və digər həssas sosial kateqoriyadan olan şəxslərin istedadının aşkarlanması və yaradıcılıq potensiallarını nümayiş etdirmələri üçün inklüzivliyin təmin edilməsi şərtilə dayanıqlı tədbirlərin həyata keçirilməsi | MdN | ƏƏSMN, ETN, AQUPDK, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Tədbirlər planının hazırlanması | Tədbirlər planının icrası | Həssas sosial kateqoriyadan olan şəxslərin mədəniyyət məhsullarının istehsalında iştirak payının, məşğulluğunun və sosial inklüzivliyinin artırılması |
| 8.1.3.6. | Rəqəmsal və innovativ həllərin tətbiqi yolu ilə mədəniyyət sahəsində göstərilən xidmətlərin keyfiyyətinin artırılması, əlçatanlığının və inklüzivliyinin təmin edilməsi | MdN | RİNN, DTA, "İçərişəhər" DTMQİ, Şuşa Şəhəri DQİ, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Mədəniyyət sahəsində xidmətlərin keyfiyyətinin, əlçatanlığının və inklüzivliyinin artırılması üçün rəqəmsal və innovativ həllərin təhlili | Tədbirlər planının hazırlanması | Tədbirlər planının həyata keçirilməsi yolu ilə mədəniyyət xidmətlərinin keyfiyyətinin, əlçatanlığının və inklüzivliyinin artırılması |
| **8.1.4. Mədəniyyət sahəsində maliyyələşdirmənin optimallaşdırılması və investisiyaların təşviqi** | | | | | | | |
| 8.1.4.1. | Mədəniyyət sahəsinin maliyyələşdirilməsi mexanizmlərinin təkmilləşdirilməsi | MdN, MN | İN | 2026–2028 | Mövcud vəziyyətin təhlili və beynəlxalq təcrübənin öyrənilməsi | Maliyyələşdirmə mexanizmlərinin diversifikasiyasına dair təkliflər hazırlanması | Mədəniyyət sahəsi üçün yeni maliyyə mənbələrinin və alətlərinin müəyyənləşdirilməsi |
| 8.1.4.2. | Mədəniyyət sahəsində dövlət–özəl tərəfdaşlığı modellərindən istifadənin təmin edilməsi, o cümlədən mədəniyyət sahəsində xidmətlərin özəl tərəfdaşlar tərəfindən göstərilməsi ilə bağlı modellərin yaradılması | MdN, İN | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Mədəniyyət sahəsində dövlət–özəl tərəfdaşlığı modelləri ilə bağlı layihələrin hazırlanması | Dövlət–özəl tərəfdaşlığı layihələrinin ictimaiyyətə, o cümlədən investorlara təqdim edilməsi | Dövlət–özəl tərəfdaşlığı layihələri vasitəsilə özəl tərəfdaşlar tərəfindən göstərilən mədəniyyət xidmətlərinin sayının artırılması |
| **8.1.5. Mədəniyyət sahəsində insan kapitalının inkişafı və kadr hazırlığının artırılması** | | | | | | | |
| 8.1.5.1. | Xaricdə təhsil proqramları çərçivəsində mədəniyyət sahələri üzrə peşəkar kadrlar hazırlanması ilə bağlı tədbirlər görülməsi | MdN | ETN, ƏƏSMN | 2026–2030 | Mədəniyyət sahələri üzrə xaricdə təhsil proqramlarının müəyyən edilməsi | Xaricdə təhsil proqramlarının siyahısına mədəniyyət sahələri üzrə təhsil proqramlarının daxil edilməsinə dair təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | Mədəniyyət sahəsində müasir əmək bazarının tələblərinə cavab verən yüksəkixtisaslı mütəxəssislərin sayının artırılması |
| 8.1.5.2. | Mədəniyyət sahəsində təhsil pillələri üzrə ixtisasların (ixtisaslaşmaların) təkmilləşdirilməsi | NK, ETN | MdN, ƏƏSMN | 2026–2030 | Mədəniyyət sahəsində ixtisasların (ixtisaslaşmaların) təhlili | Mədəniyyət sahəsində ixtisasların (ixtisaslaşmaların) təkmilləşdirilməsi ilə bağlı təkliflərin aidiyyəti üzrə təqdim edilməsi, təhsil proqramlarının hazırlanması | Mədəniyyət sahəsində əmək bazarının tələblərinə cavab verən, yaradıcı və innovativ düşüncəyə malik kadr ehtiyatının formalaşdırılması |
| 8.1.5.3. | Mədəniyyət sahəsinə aid peşələr haqqında peşə standartları əsasında peşə profillərinin hazırlanması | MdN | ƏƏSMN, aidiyyəti dövlət orqanları (qurumları) | 2026 | Mədəniyyət sahəsinə aid peşə standartlarının təhlili | Mədəniyyət sahəsinə aid peşə profillərinin hazırlanması | Mədəniyyət sahəsinə aid peşə profillərinin tətbiqi |
| 8.1.5.4. | Mədəniyyət sahəsində çalışan şəxslər üçün təlimlərin təşkili, həmin şəxslərin rəqəmsal bacarıqlarının artırılması | MdN | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Təlimlərin məzmununun müəyyənləşdirilməsi | Təlimlərin təşkil edilməsi | Mədəniyyət sahəsi üzrə ixtisaslaşdırılmada keyfiyyətin və rəqəmsal bacarıqların artırılması |
| 8.1.5.5. | Dövlət mədəniyyət müəssisələrinə işə qəbul qaydasının təkmilləşdirilməsi | NK, MdN | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Normativ hüquqi bazanın təhlili, dövlət mədəniyyət müəssisələrinə işə qəbul qaydası ilə bağlı təkliflər hazırlanması | Dövlət mədəniyyət müəssisələrinə işə qəbul qaydası ilə bağlı təkliflərin aidiyyəti üzrə təqdim edilməsi | Mədəniyyət sahəsində keyfiyyətli, şəffaf və strateji kadr siyasətinin formalaşdırılması |
| **8.1.6. Mədəniyyət infrastrukturunun təkmilləşdirilməsi** | | | | | | | |
| 8.1.6.1. | Mədəniyyət əmlakının inventarlaşdırılması, təsnifatlaşdırılması və siyahılarının tərtib edilməsi | NK, MdN, İN | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Mədəniyyət əmlakının təsnifatlaşdırılması üçün meyarların müəyyən olunması | Mədəniyyət sahəsində siyahıların yenilənməsi | Mədəniyyət sahəsində infrastrukturun təkmilləşdirilməsi |
| 8.1.6.2. | Dövlət–özəl tərəfdaşlığı layihələri, mədəniyyət təsisatlarının fəaliyyətinin təkmilləşdirilməsi, optimallaşdırılması və digər mənbələr hesabına innovativ, əlçatan və inklüziv çoxfunksiyalı mədəniyyət məkanlarının yaradılması, habelə dövlət mülkiyyətində olan mədəniyyət təsisatlarının fəaliyyətinin və coğrafi yerləşməsinin vahid yanaşmaya əsaslanmaqla optimallaşdırılması ilə bağlı tədbirlər görülməsi | MdN, İN | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Beynəlxalq təcrübənin araşdırılması və tədbirlər planının hazırlanması | Tədbirlər planının icra edilməsi | Mədəniyyət sahəsində idarəetmənin optimallaşdırılması, yaradıcılıq üçün innovativ, əlçatan və inklüziv ekosistemin yaradılması |
| **8.1.7. Mədəniyyət sahəsində rəqəmsal inkişaf və rəqəmsal mədəniyyətin formalaşdırılması** | | | | | | | |
| 8.1.7.1. | Rəqəmsal mədəniyyətin inkişafı üçün infrastrukturun təkmilləşdirilməsi, xidmətlərin rəqəmsallaşdırılması və digər rəqəmsal inkişafın təmin edilməsi | MdN | İN, RİNN, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2027 | Mədəniyyət sahəsində dövlət informasiya resurslarının "Hökumət buludu"na inteqrasiyası, kibertəhlükəsizliyin, xüsusilə mədəni irsin kibermühafizəsinin təmin edilməsi | Mədəniyyət sahəsində dövlət xidmətlərinin elektronlaşdırılması və hökumət portallarına inteqrasiyası, data əsaslı rəqəmsal idarəetmə modelinin formalaşdırılması və tətbiqi | Yeni texnologiyaların tətbiqi, informasiya və kommunikasiya texnologiyaları infrastrukturunun gücləndirilməsi və aktuallığının təmin edilməsi, informasiya resurslarının təkmilləşdirilməsi, bu sahədə çalışanların ixtisaslaşdırılması |
| 8.1.7.2. | Milli kino fondunun, dövlət televiziya və radio arxivlərinin tam rəqəmsallaşdırılması | MdN | AvŞ, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | İcraçıların, metodologiyanın və fəaliyyət planının müəyyən edilməsi | Milli kino fondunun azı 60 faizinin, dövlət televiziya və radio arxivlərinin hər birinin azı 50 faizinin rəqəmsallaşdırılması | Milli kino fondunun, dövlət televiziya və radio arxivlərinin tam rəqəmsallaşdırılması |
| **8.1.8. Müasir mədəniyyət kommunikasiyası modellərinin tətbiqi** | | | | | | | |
| 8.1.8.1. | Mədəniyyət sahəsində dövlət informasiya resurslarının birləşdirilməsi və ya əlaqələndirilməsi, vahid kommunikasiya siyasətinin həyata keçirilməsi məqsədilə "e-culture" platformasının yaradılmasının təmin edilməsi | MdN | RİNN, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2027 | "e-culture" platformasının yaradılması | "e-culture" platformasının test edilməsi | "e-culture" platforması vasitəsilə mədəniyyətə əlçatanlığın və yaradıcılıqda geniş iştirakçılığın təmin edilməsi |
| 8.1.8.2. | Azərbaycan dövlətinin beynəlxalq imicinə, tarixinə və mədəniyyətinə qarşı aparılan mənfi təbliğatın qarşısının alınması və neytrallaşdırılması məqsədilə qurumlararası birgə fəaliyyət planının hazırlanması və əlaqələndirilmiş şəkildə həyata keçirilməsi | NK | MdN, XİN, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Birgə fəaliyyət planının hazırlanması | Birgə fəaliyyət planının razılaşdırılması və təsdiq edilməsi | Birgə fəaliyyət planının həyata keçirilməsi |
| 8.1.8.3. | Mədəni irsin iqtisadi rayonlar üzrə təbliği | MdN, DTA | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | İqtisadi rayonlarda yerləşən mədəni irsin təhlili | Hər bir iqtisadi rayon üzrə mədəni irsin təbliği strategiyalarının hazırlanması | Mədəni irsin qorunmasının təşkili, müvafiq mədəniyyət təsisatlarının, turizm marşrutlarının yaradılması yolu ilə mədəni irsin təbliği |
| 8.1.8.4. | Mədəni irsin qorunmasının və bərpasının maliyyələşdirilməsi sahəsində dövlət–özəl tərəfdaşlığı modelləri ilə bağlı səmərəli kommunikasiya fəaliyyətinin aparılması | MdN, DTA | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2027 | Kommunikasiya planının hazırlanması | Kommunikasiya planının icrası | Bu sahədə beynəlxalq məlumatlandırmanın təmin edilməsi |
| 8.1.8.5. | MYS sahəsində mövcud imkanlar barədə davamlı kommunikasiyanın aparılması | MdN | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Kommunikasiya planının hazırlanması | Kommunikasiya planının icrası | MYS sahəsində maliyyə imkanları barədə davamlı ictimai və beynəlxalq məlumatlandırmanın təmin edilməsi |
| 8.1.8.6. | Uşaq və gənclər arasında mədəniyyətlə bağlı imkanların və kommunikasiya modellərinin təbliği | MdN | ETN, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Tədbirlər planının hazırlanması | Tədbirlər planının razılaşdırılması və təsdiq edilməsi | Tədbirlər planının həyata keçirilməsi |
| 8.1.8.7. | Əlilliyi olan şəxslərin mədəni tədbirlərdə iştirakı üçün əlçatanlığın təmin edilməsi | MdN | ƏƏSMN, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Mədəni tədbirlərlə bağlı əlaqələndirmə mexanizminin yaradılması | Əlilliyi olan şəxslərin mədəni tədbirlərdə iştirakı sisteminin qurulması | İnklüzivliyin təmin edilməsi |
| 8.1.8.8. | Konsepsiyanın icrası barədə səmərəli kommunikasiyanın həyata keçirilməsi | MdN | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Konsepsiyaya uyğun olaraq mərhələlər, hədəflər, məqsədlər, imkanlar, görülən işlər və onların nəticələrinin hər biri üzrə məlumatların "e-culture" platformasına inteqrasiyası | Konsepsiyanın media və digər müasir vasitələrlə kommunikasiyası | Konsepsiyanın icrası barədə məlumatlılığın təmin olunması |
| **8.2. Azərbaycan dilinin inkişafı** | | | | | | | |
| **8.2.1. Azərbaycan dilinin rolunun artırılması məqsədilə sistemli fəaliyyətin həyata keçirilməsi** | | | | | | | |
| 8.2.1.1. | Azərbaycan ədəbi dilinin funksionallığının artırılması | MdN | AMEA, ETN, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Azərbaycan ədəbi dilinin funksionallığının artırılması üslublarının (bədii, elmi, publisistik, rəsmi-işgüzar və ailə-məişət) araşdırılması | Azərbaycan ədəbi dilinin üslublarda funksionallığının artırılması ilə bağlı fəaliyyətin həyata keçirilməsi | Ümumi təhsil müəssisələri üçün Azərbaycan dili dərsliklərində ədəbi dilin funksionallığına dair bilik və bacarıqların şagirdlərə sistemli şəkildə aşılanması |
| 8.2.1.2. | Azərbaycan dilinin tarixinə, məzmununa, mədəniyyətin inkişafındakı roluna dair sistemli elmi araşdırmaların genişləndirilməsi, nəticələrinin "e-culture" platformasında, nüfuzlu elmi jurnallarda, nəşrlərdə və digər mediada yayılması və ictimai müzakirəsi | MdN | AMEA, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Müasir elmi araşdırma və tədqiqat metodlarının öyrənilməsi | Müasir elmi araşdırma və tədqiqat metodları tətbiq edilməklə Azərbaycan dilinə dair elmi araşdırmaların sayının artırılması | Elmi araşdırmaların keyfiyyətinin artırılması, Azərbaycan dilində lüğət ehtiyatının zənginləşdirilməsi, Azərbaycan dilindən istifadə arealının genişləndirilməsi |
| 8.2.1.3. | Azərbaycan dilində yeni, xüsusilə elmi və publisistik əsərlərin yaradılmasının, təbliğinin və əlçatanlığının təmin edilməsi | MdN, ETN | AMEA, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2027 | Yerli və xarici elm və təhsil müəssisələri ilə dayanıqlı və sistemli əlaqələr qurulması | Azərbaycan dilində keyfiyyətli elmi və publisistik əsərlər yaradılmasının təşviqi ilə bağlı tədbirlər həyata keçirilməsi | Azərbaycan dilində yaradılmış yeni əsərlərin beynəlxalq səviyyədə yayılması |
| 8.2.1.4. | İctimai yerlərdə, mediada, rəqəmsal məhsullarda və digər sahələrdə Azərbaycan dilindən istifadənin genişləndirilməsi, bu məqsədlə maarifləndirmənin təşkili | MdN, AMEA | digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Maarifləndirmə mexanizmlərinin araşdırılması | Azərbaycan dilindən istifadənin genişləndirilməsi və maarifləndirmənin təşkili tədbirlərinin müəyyən edilməsi | Azərbaycan dilindən geniş istifadənin təmin edilməsi |
| 8.2.1.5. | Azərbaycan dilinin tətbiqi, Azərbaycan dili haqqında normativ hüquqi aktlara, o cümlədən Azərbaycan dilinin normalarına əməl olunması sahəsində nəzarətin effektivliyinin artırılması | MdN, AMEA | AİBNDA, ADRA, AvŞ, MEDİA, RİİN, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Təhlillər aparılması, səmərəli nəzarət mexanizmlərinin araşdırılması | Səmərəli nəzarət mexanizmləri ilə bağlı təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | Azərbaycan dilindən düzgün istifadənin təmin edilməsi |
| **8.2.2. Azərbaycan dilinin inkişafı, təbliği və təşviqi ilə bağlı fəaliyyətin gücləndirilməsi** | | | | | | | |
| 8.2.2.1. | Azərbaycan dilinin lüğət ehtiyatının zənginləşdirilməsi, Azərbaycan dili normalarının təkmilləşdirilməsi, Azərbaycan dili dialektlərinin tədqiqi | NK, AMEA | MdN, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2028 | Azərbaycan dilinin lüğət ehtiyatının zənginləşdirilməsi üsul və metodlarının müəyyən edilməsi, Azərbaycan dili normalarının təhlili | Azərbaycan dili normalarının təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim olunması, Azərbaycan dilinin lüğət ehtiyatının zənginləşdirilməsi, dialektik sinxron və diaxron lüğətlərin təkmilləşdirilməsi | İctimai məlumatlılığın təmin edilməsi |
| 8.2.2.2. | Azərbaycan dilindən Birləşmiş Millətlər Təşkilatının əsas dillərinə, türk dillərinə və həmin dillərdən Azərbaycan dilinə tərcümə lüğətlərinin hazırlanması və yayılması | MdN, AMEA | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Tərcümə lüğətlərinin hazırlanması məqsədilə təşkilati işlərin həyata keçirilməsi, mütəxəssis qruplarının formalaşdırılması | Tərcümə lüğətlərinin hazırlanması | Tərcümə lüğətlərinin əlçatan şəkildə yayılması |
| **8.3. Davranış mədəniyyəti və bilgi mədəniyyəti** | | | | | | | |
| 8.3.1. | Azərbaycanda davranış mədəniyyətinin rolunun artırılması istiqamətində | MdN | ETN, AQUPDK, digər aidiyyəti dövlət | 2027-2030 | Davranış mədəniyyətinin rolunun artırılması üçün sosial (elm, təhsil, | Təhlilin nəticələri əsasında davranış mədəniyyətinin rolunun artırılması üçün sosial və fərdi | Ünsiyyət və sosial əlaqələrin keyfiyyətinin artırılması |

*Ardı 12-ci səh.*

Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 14 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmişdir

# "Azərbaycan Mədəniyyəti-2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası

Əvvəli 11-ci səh.

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | qurumlararası əlaqələndirilmiş fəaliyyətin həyata keçirilməsi | | orqanları (qurumları) | | maarifləndirilmə, şəxsi, ailə, icma və bütövlükdə ictimai mədəniyyətin inkişafı) və fərdi (özünütəhsil, özünüdərk, özünütərbiyə, özünüidarəetmə) alətlərdən və onların mənbələrindən (kitablar, müşahidə, ünsiyyət) istifadə imkanlarının təhlili | alətlərdən istifadə modellərinin hazırlanması və təbliği | |
| 8.3.2. | Azərbaycan cəmiyyətinin elmi əsaslı çoxmeyarlı (ünsiyyət, qiymətləndirmə, rəhbərlik etmə, qərar vermə, etibar etmə, razılaşmama/fikir ayrılığı, vaxta/planlaşdırmaya münasibət, inandırma) davranış mədəniyyəti modelinin və onun əsasında cəmiyyətdaxili və dünya mədəniyyətləri ilə səmərəli kommunikasiya alətlərinin hazırlanması və təbliği | MdN | AMEA, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2027 | Metodologiyanın və icra qaydasının müəyyən edilməsi, Azərbaycanın multikultural cəmiyyətini təşkil edən mədəniyyətlərin və beynəlxalq təcrübənin araşdırılması | Azərbaycan cəmiyyətinin çoxmeyarlı davranış mədəniyyəti modelinin və kommunikasiya modellərinin tərtib edilməsi | Azərbaycan cəmiyyətinin çoxmeyarlı davranış mədəniyyəti modelinin və onun əsasında hazırlanmış kommunikasiya modellərinin geniş təbliği |
| 8.3.3. | Milli-mənəvi dəyərlərin əsas daşıyıcısı kimi ailə institutunun nüfuzunun gücləndirilməsi istiqamətində qurumlararası əlaqələndirilmiş fəaliyyətin həyata keçirilməsi | AQUPDK | MdN, GİN, ETN, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Maarifləndirici layihələrin hazırlanması | Ailə institutunun mədəniyyətin əsas dəyər daşıyıcısı olmasını təmin edən layihələrin həyata keçirilməsi | Ailə institutunun mədəniyyətin əsas dəyər daşıyıcısı olmasında müsbət dinamikaya nail olunması |
| 8.3.4. | İctimai iştirakçılıq təmin edilməklə, Azərbaycanda inkulturasiya, akkulturasiya və assimilyasiya imkanlarının araşdırılması | MdN | AMEA | 2026–2030 | Azərbaycanda inkulturasiya, akkulturasiya və assimilyasiya proseslərinin elmi araşdırılması | İnkulturasiya, akkulturasiya və assimilyasiyanın Konsepsiyanın hədəfləri və məqsədləri baxımından təhlili | İnkulturasiya, akkulturasiya və assimilyasiya prosesləri ilə bağlı təkliflər hazırlanması |
| 8.3.5. | Azərbaycanda bilgi mədəniyyətinin funksionallığının artırılması istiqamətində qurumlararası əlaqələndirilmiş tədbirlərin həyata keçirilməsi | MdN, ƏMA | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Bilgi mədəniyyətinin funksionallığının artırılması imkanlarının təhlili, elmi etikanın təmin edilməsi məqsədilə təkliflər hazırlanması | Bilgi mədəniyyətinin funksionallığının artırılması ilə bağlı tədbirlər planının təsdiqi və icrası | Bilgi mədəniyyətinin funksionallığının təmin olunması, informasiya mədəniyyətinin gücləndirilməsi yolu ilə rəqəmsal cəmiyyətə inteqrasiya |

**8.4. Ədəbiyyatın inkişafı**

**8.4.1. Mədəniyyətin inkişafında, eləcə də məntiqi, tənqidi və yaradıcı təfəkkürün formalaşmasında ədəbiyyatın rolunun artırılması**

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.4.1.1. | Elmi və ədəbi yaradıcılığın həvəsləndirilməsi, elmi yaradıcılığın dəyərləndirilməsində fundamentallıq prinsipi ilə yanaşı funksionallığın önə çəkilməsi | MdN, ƏMA | ETN, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Həvəsləndirmə mexanizmlərinin, elmi araşdırmalar və ədəbi yaradıcılıq sahəsində əlverişli ekosistemin formalaşdırılması üçün beynəlxalq təcrübənin öyrənilməsi | Yerli ekosistemə və elmi yaradıcılığın funksionallığına dair meyarların və indikatorların müəyyənləşdirilməsi | Funksional elmi əsərlərin və yüksək bədii-estetik dəyərə malik ədəbi əsərlərin sayında müsbət dinamikaya nail olunması |
| 8.4.1.2. | Ədəbiyyat vasitəsilə cəmiyyətdə şifahi nitq və yazı mədəniyyətinin, ünsiyyət bacarığının, idrak fəallığının və məntiqi təfəkkürün, həyat və ümumi biliklərin formalaşdırılması, ədəbiyyatın ideoloji məzmunla yanaşı müasir texnoloji məzmuna cəlb edilməsi | MdN | ETN, AMEA, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Müvafiq sahədə araşdırmaların aparılması və təkliflərin formalaşdırılması məqsədilə qurumlararası fəaliyyətin təşkili | Tədbirlər planının və metodikanın hazırlanması, hədəflərin müəyyən edilməsi | Tədbirlər planının icrası |
| 8.4.1.3. | Ümumi təhsili həyata keçirən təhsil müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin kulturoloji qiymətləndirilməsi ilə bağlı təkliflərin hazırlanması | MdN, AMEA | ETN | 2026–2030 | Kulturoloji qiymətləndirmə ilə bağlı təkliflərin aidiyyəti üzrə təqdim edilməsi | Kulturoloji qiymətləndirmə ilə bağlı metodologiyanın müəyyən edilməsi | Dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin Azərbaycanın mədəniyyət dəyərlərinə uyğunluğunun təmin olunması |
| 8.4.1.4. | Xarici müəlliflərin elmi əsərlərinin Azərbaycan dilinə keyfiyyətli tərcümə edilməsi, yayım hüquqları əldə olunmaqla, dövlət kitabxana resurslarında yerləşdirilməsi | MdN, ƏMA | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Elmi əsərlərin siyahısının müəyyənləşdirilməsi və dəyərləndirilməsi üçün komissiyanın yaradılması | Əqli mülkiyyət hüquqlarına riayət etməklə əsərlərin tərcümə olunması | Dövlət kitabxana resurslarının tərcümə edilmiş keyfiyyətli elmi əsərlərlə zənginləşdirilməsi |
| 8.4.1.5. | Bölgələrdə elmi və ədəbi yaradıcılıq üçün əlverişli mühit yaradılması | MdN | aidiyyəti dövlət orqanları (qurumları) | 2027–2030 | Müasir, innovativ infrastruktur, maliyyələşdirmə və idarəetmə həllərinin hazırlanması | Yeni həllərin ekosistem iştirakçılarına təqdim edilməsi | Yeni həllərin reallaşdırılmasının təmin edilməsi |

**8.4.2. Ədəbiyyatın təbliğinin, o cümlədən nəşriyyat işinin inkişafı**

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.4.2.1. | Ədəbiyyata və nəşriyyat işinə aid sənət növlərinin (redaktorluq, hekayəçilik, tənqid və s.) inkişaf etdirilməsi | MdN | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Ədəbiyyata və nəşriyyat işinə aid peşəkar sənətlərə dair beynəlxalq təcrübənin araşdırılması | Ədəbiyyata və nəşriyyat işinə aid peşəkar sənət növlərinin və peşəkar sənətkarların inkişaf etdirilməsi ilə bağlı tədbirlərin hazırlanması və həyata keçirilməsi | Ədəbiyyata və nəşriyyat işinə aid peşəkar sənət növlərinin və peşəkar sənətkarların sayının artırılması |
| 8.4.2.2. | Nəşriyyat işi dəyər zəncirinin qiymətləndirilməsi və təşviqi | MdN | ƏMA, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2027 | Mövcud vəziyyətin qiymətləndirilməsi | Mövcud vəziyyətin qiymətləndirilməsi əsasında dəstək mexanizmləri ilə bağlı təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | Nəşriyyat işi dəyər zəncirinin müasirləşdirilməsi |
| 8.4.2.3. | Azərbaycan ədəbi mühitini qlobal ədəbi mühitə uyğun inkişaf etdirmək, ədəbi əsərlərin yaradılması prosesinin nəşriyyat işi dəyər zəncirinə daxil edilməsini asanlaşdırmaq və tanınmış xarici ediblərin təcrübəsindən yararlanmaq məqsədilə "Ədiblər Azərbaycanda" ("Writers in Residence in Azerbaijan") layihəsinin təsis edilməsi | MdN | AMEA, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Beynəlxalq təcrübənin təhlili | Layihənin təsis edilməsi | Layihənin icrası |
| 8.4.2.4. | Azərbaycan ədəbiyyatının, o cümlədən Azərbaycan elmi ədəbiyyatının tanıdılması, Birləşmiş Millətlər Təşkilatının rəsmi dillərinə, türk dillərinə və digər dillərə sistemli tərcüməsi və yayılması məqsədilə "Azərbaycan ədəbiyyatı xaricdə" ("Azerbaijani Literature Abroad") layihəsinin təsis edilməsi | MdN | AMEA, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Layihə icraçılarının müəyyən edilməsi, beynəlxalq təcrübənin təhlili | Əqli mülkiyyət hüquqlarının qorunması təmin edilməklə layihənin təsis edilməsi və icrası | Azərbaycan ədəbiyyatının dünyadakı izinin dərinləşdirilməsi |

**8.5. İncəsənətin inkişafı**

**8.5.1. Mədəniyyətin, cəmiyyətin və fərdlərin inkişafında incəsənətin rolunun artırılması**

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.5.1.1. | İncəsənətlə məşğul olan şəxslərin sosial və mədəni əlaqələrinin qurulması üçün ekosistemin təkmilləşdirilməsi | MdN | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Mövcud vəziyyətin təhlili, beynəlxalq təcrübənin öyrənilməsi | Yerli ekosistemin inkişafı üçün əlverişli mühitin formalaşdırılması | İncəsənət ekosisteminin təkmilləşdirilməsində müsbət dinamikaya nail olunması |

**8.5.2. İncəsənətin sahələr üzrə inkişafı**

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.5.2.1. | Azərbaycan incəsənətinin elmi və praktiki araşdırılması və tədrisi işinin inkişaf etdirilməsi | MdN | ETN, AMEA, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Beynəlxalq və xarici elmi və praktiki araşdırma təsisatları ilə əməkdaşlıq qurulması | İncəsənət sahəsində kadr hazırlığının müasir tələblərə uyğun təkmilləşdirilməsi | Mədəni irsin qorunması, incəsənət sahəsində peşəkar kadr hazırlığının təmin edilməsi |
| 8.5.2.2. | Azərbaycan incəsənətinin dünya incəsənəti ilə qarşılıqlı inkişafını təmin etmək və beynəlxalq mədəni mübadiləni genişləndirmək məqsədilə "Sənətkarlar Azərbaycanda" ("Artists in Azerbaijan") layihəsinin təsis edilməsi | MdN | ƏMA, AMEA, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Beynəlxalq təcrübənin öyrənilməsi | Layihənin təsis edilməsi | Layihənin icrası |
| 8.5.2.3. | Azərbaycanın mədəni irsinə aid unudulmuş və ya unudulmaqda olan sənət növlərinin tədqiqi, bərpası və təşviqi | MdN | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Araşdırmaların aparılması və tədbirlər planının hazırlanması | Tədbirlər planının icrası, unudulmuş və unudulmaqda olan sənət növlərinin canlandırılması və təbliği | Canlandırılmış sənət növləri üzrə sənətkarların yetişdirilməsi |
| 8.5.2.4. | Dövlət və özəl teatr fəaliyyətinin və digər ifa sənətləri ilə bağlı fəaliyyətin təkmilləşdirilməsi | MdN | İN, ƏMA və digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Nəticəyönümlü maliyyələşdirmə və təşviq mexanizmlərinin, yeni idarəetmə modellərinin müəyyən edilməsi | İfa sənətləri ekosisteminin təkmilləşdirilməsi, teatrlararası inteqrasiya, mədəni mübadilə və təşviq mexanizmlərinin tətbiqi | İfa sənətlərinin yaradıcılıq potensialının reallaşdırılması və asudə vaxtın səmərəli təşkili vasitəsinə çevrilməsi, bu sahəyə özəl investisiyaların cəlb edilməsi |
| 8.5.2.5. | İfa sənətləri üzrə kollektivlərin fəaliyyətinin təkmilləşdirilməsi, Azərbaycan mədəniyyətini bədii-estetik cəhətdən müasir formatda təqdim edən kollektivlərin təşkili | MdN | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | İfa sənətləri üzrə kollektivlərin brendləşdirmə strategiyasının hazırlanması | İfa sənətləri üzrə kollektivlərin fəaliyyətlərinin strategiyaya uyğun təkmilləşdirilməsi | İfa sənətləri üzrə brend kollektivlərin regional və dünya turnelərinin və xaricdə çıxışlarının təşkili, bu məqsədlə səmərəli əməkdaşlığın qurulması |
| 8.5.2.6. | Azərbaycan musiqisinin qorunması | MdN, ƏMA | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Qədim, klassik və müasir Azərbaycan musiqisinin, o cümlədən unudulmuş, yaxud heç zaman ifa olunmamış əsərlərin sistemli araşdırılması | Folklor musiqisi nümunələrinin orijinal və ya yenidən işlənilmiş formada audio və ya video yazılması, fonoqram bazasının yaradılması | Folklor musiqisinin mədəni irsin tərkib hissəsi kimi təbliği, Azərbaycan musiqisinin səmərəli qorunması |

**8.6. Mədəni irsin qorunması və inkişafı**

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.6.1. | Vahid yanaşma tətbiq edilməklə, mədəni irsin qorunması sahəsində nəticəəsaslı yeni idarəetmə və maliyyələşdirmə modellərinin yaradılması, mədəni irslə əlaqəli infrastrukturun müasirləşdirilməsi və təkmilləşdirilməsi | NK, MdN, ETSN, DTA, "İçərişəhər" DTMQİ, Şuşa Şəhəri DQİ | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Təkliflər hazırlanması | Təkliflərin aidiyyəti üzrə təqdim edilməsi | Mədəni irsin səmərəli qorunması |
| 8.6.2. | Mədəni irsin qorunması, o cümlədən bərpası sahəsində fəaliyyətin təkmilləşdirilməsi, bu sahədə yeni təşviq və dəstək mexanizmlərinin yaradılması, dövlət–özəl tərəfdaşlığının və dövlət–vətəndaş əlaqələrinin genişləndirilməsi | MdN, DTA, "İçərişəhər" DTMQİ, Şuşa Şəhəri DQİ, AMEA | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Əlaqələndirmə komissiyasının yaradılması, tədbirlər planının təsdiqi | Tədbirlər planının icrası | Mədəni irsin qorunmasının, o cümlədən bərpasının vahid yanaşma tətbiq edilməklə müasir tələblərə uyğun həyata keçirilməsi |
| 8.6.3. | Mədəni irslə bağlı məlumat bazalarının təkmilləşdirilməsi, o cümlədən mədəniyyət əmlakı siyahılarının yenilənməsi, abidələrin balans mənsubiyyətinin, sərhədlərinin və mühafizə zonalarının dəqiqləşdirilməsi | NK, MdN, DTA, "İçərişəhər" DTMQİ, Şuşa Şəhəri DQİ, AMEA | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Əlaqələndirmə komissiyasının yaradılması, tədbirlər planının təsdiqi | Tədbirlər planının icrası | Mədəni irslə bağlı məlumat bazalarının dəqiqləşdirilməsi |
| 8.6.4. | Qeyri-maddi mədəni irsin araşdırılması, sistemləşdirilməsi, qeydiyyatı və qorunmasının gücləndirilməsi | MdN, ƏMA, DTA, "İçərişəhər" DTMQİ, Şuşa Şəhəri DQİ | AMEA, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Mövcud vəziyyətin araşdırılması və təhlili | Tədbirlər planının hazırlanması | Tədbirlər planının icrası |
| 8.6.5. | Azərbaycan xalqının yaratdığı mədəni irsin yerləşdiyi tarixi coğrafiyada Azərbaycan xalqının mədəni irsinin atribusiyası, qorunması və restitusiyası ilə bağlı fəaliyyətin həyata keçirilməsi | MdN | XİN, AMEA, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Tədbirlər planının hazırlanması | Tədbirlər planının icrası | Nəticələrin "e-culture" platformasına inteqrasiyası |
| 8.6.6. | İşğaldan azad edilmiş ərazilərdə mədəni irsin, o cümlədən arxeoloji abidələrin qorunması ilə bağlı fəaliyyətin təkmilləşdirilməsi, mədəni irsə vurulmuş zərərlə bağlı beynəlxalq ictimaiyyətin məlumatlılığının artırılması və dəymiş zərərin əvəzinin ödənilməsi məqsədilə tədbirlər görülməsi | MdN | AMEA, DTA, Şuşa Şəhəri DQİ, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Mövcud vəziyyətin təhlili, məlumatların sistemləşdirilməsi | Tədbirlər planının hazırlanması və təsdiqi | Mədəni irsin, o cümlədən arxeoloji abidələrin qorunması ilə bağlı tədbirlərin həyata keçirilməsi və nəticələrin "e-culture" platformasına inteqrasiyası |

**8.7. Mədəni və yaradıcı sənayenin inkişafı**

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.7.1. | MYS-nin dinamik inkişafını təmin edən qanunvericilik və institusional islahatların həyata keçirilməsi | MdN, ƏMA | İN, RİNN, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Normativ hüquqi bazanın, mövcud təcrübənin və imkanların təhlili və MYS ekosisteminin təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlanması | MYS sahəsində müasir "təşkilatlanma mühiti"nin (klasterlər, qovşaqlar, sənaye parkları, araşdırma, müzakirə platformaları və s.) formalaşdırılması, infrastrukturun yaradılması | MYS-nin sənaye kimi inkişafı, o cümlədən ixrac potensialının, MYS subyektlərinin sayının və MYS-nin ÜDM-də payının artırılması |
| 8.7.2. | MYS-nin maliyyələşdirilməsi mənbələrinin diversifikasiyası, bu sahəyə investisiya qoyuluşu və təşviqi imkanlarının, habelə dövlət–özəl tərəfdaşlığının genişləndirilməsi | MdN | İN, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Dövlət–özəl tərəfdaşlığı imkanlarının araşdırılması və modellərinin hazırlanıb sərmayəçilərə təqdim edilməsi | MYS sahəsində dövlət–özəl tərəfdaşlığı layihələrinin sayının artması | MYS-nin qeyri-resurs iqtisadi göstəricilərdə payının artması |
| 8.7.3. | MYS-nin müqayisəli üstünlüyə malik sahələri üzrə müasir dəyər zəncirinin formalaşdırılması, milli brendlərin yaradılması | MdN | İN, ƏƏSMN, RİNN, ƏMA, DTA, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | MYS-nin müqayisəli üstünlüyə malik sahələrinin təhlili, dəstək mexanizmlərinin hazırlanması | Rəqabətədavamlı və müasir MYS dəyər zəncirlərinin formalaşdırılması, milli brendlərin yaradılması | MYS-nin müqayisəli üstünlüyə malik sahələri üzrə formalaşdırılmış dəyər zəncirlərinin qlobal dəyər zəncirlərinə inteqrasiyası |
| 8.7.4. | Kino sənayesində dövlət sifarişi sisteminin, dəyər zəncirinin, o cümlədən kütləvi nümayiş və yayım sisteminin təkmilləşdirilməsi | MdN | ƏMA, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Mövcud vəziyyətin təhlili əsasında tədbirlərin, tərəfdaşların, icraçıların və əməkdaşlıq modellərinin müəyyən edilməsi | Kino sənayesində keyfiyyətə və milli-mənəvi dəyərlərə üstünlük verilməsinə əsaslanan yeni dövlət sifarişi sisteminin yaradılması | Maliyyələşdirmə mənbələrinin diversifikasiyası, rəqabətədavamlı dəyər zəncirlərinin formalaşdırılması |
| 8.7.5 | Filmlərin dublyajı ekosisteminin təkmilləşdirilməsi | MdN | ƏMA, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2028 | Beynəlxalq təcrübənin öyrənilməsi, mövcud vəziyyətin təhlili | Filmlərin dublyajına dəstək mexanizmləri ilə bağlı təkliflər hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | Dublyaj sənayesinin inkişafı |

**8.8. Mədəniyyət diplomatiyasının inkişafı**

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.8.1. | Azərbaycan mədəniyyətinin və mədəniyyət dəyərlərinin beynəlxalq aləmdə təbliği ilə bağlı fəaliyyətin, o cümlədən Azərbaycan Respublikası diplomatik nümayəndəliklərinin tabeliyində olan mədəniyyət mərkəzlərinin fəaliyyətinin təkmilləşdirilməsi | MdN | XİN, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Qurumlararası əlaqələndirmə məqsədilə qanunvericilik və institusional çərçivənin təkmilləşdirilməsinə dair təkliflər hazırlanması | Mədəniyyət mərkəzlərinin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə yeni konseptual əsaslara dayanan fəaliyyət planının hazırlanması | Fəaliyyət planına uyğun olaraq mədəniyyət mərkəzlərinin fəaliyyətinin təkmilləşdirilməsi |
| 8.8.2. | Azərbaycan dilinin yayılma coğrafiyasının genişləndirilməsi və beynəlxalq ünsiyyətdəki rolunun artırılması məqsədilə tədbirlər görülməsi | MdN | XİN, DİDK, ETN, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Mövcud vəziyyətin təhlili və beynəlxalq təcrübənin öyrənilməsi | Fəaliyyət planının hazırlanması | Azərbaycan dilinin beynəlxalq ünsiyyətdəki rolunun və mədəni mübadilədəki çəkisinin artırılması, xarici vətəndaşlara Azərbaycan dilinin öyrədilməsi mexanizmlərinin yaradılması |
| 8.8.3. | Azərbaycan mədəni irsinin beynəlxalq aləmdə təbliği, tanıdılması və qorunması məqsədilə qurumlararası əlaqələndirilmiş fəaliyyətin həyata keçirilməsi | MdN | XİN, DTA, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Əlaqələndirilmiş fəaliyyətin təmin edilməsi məqsədilə təkliflər hazırlanması | Əlaqələndirilmiş fəaliyyət üçün institusional çərçivənin formalaşdırılması | Azərbaycan mədəni irsinin qurumlararası əlaqələndirilmiş fəaliyyət yolu ilə təbliği nəticəsində mədəni təsir vasitələrinin ("yumşaq güc") formalaşdırılması |
| 8.8.4. | Azərbaycanın mədəni irs nümunələrinin təbliği, o cümlədən nüfuzlu onlayn platformalarda yerləşdirilməsi, sərgilənməsi, araşdırılması və digər qaydada tanıdılması üçün normativ hüquqi bazanın və prosedurların təkmilləşdirilməsi | MdN | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2029 | Normativ hüquqi bazanın və mövcud ekosistemin təhlili | Normativ hüquqi bazanın və mövcud ekosistemin təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlanması, aidiyyəti üzrə təqdim edilməsi | Azərbaycanın mədəni irs nümunələrinin təbliği yolu ilə mədəni təsir vasitələrinin ("yumşaq güc") formalaşdırılması, ölkənin nüfuzunun artırılması |
| 8.8.5. | Azərbaycanın sənədli irsinin UNESCO-nun "Dünya Yaddaşı Reyestri"nə daxil edilməsi ilə bağlı tədbirlər görülməsi | MdN | XİN, AMEA | 2026–2030 | Nominasiya üçün mədəni irs nümunələrinin seçilməsi | Hər il azı 1 nominasiya sənədinin hazırlanaraq təqdim olunması | Azərbaycanın mədəni irs nümunələrinin "Dünya Yaddaşı Reyestri"nə daxil edilməsinə nail olunmaqla, geniş təbliği |
| 8.8.6. | Azərbaycanın dünyadakı izinin dərinləşdirilməsi məqsədilə Azərbaycanda dayanıqlı beynəlxalq mədəniyyət tədbirlərinin təşkili, Azərbaycan mədəniyyətinin xarici və beynəlxalq mədəniyyət tədbirlərində təmsil edilməsinin və təbliğinin genişləndirilməsi | MdN | XİN, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Səmərəli və dayanıqlı əlaqələr qurulması üçün tədbirlər planının hazırlanması və təsdiqi | Tədbirlər planına uyğun olaraq əməkdaşlıq qurulması | Azərbaycan mədəniyyətinin geniş təbliği vasitəsilə mədəni təsir vasitələrinin ("yumşaq güc") formalaşdırılması |
| 8.8.7. | Azərbaycanın dünyadakı izinin araşdırılması, o cümlədən Azərbaycan mənşəli mədəni irs nümunələrinin və mədəni sərvətlərin yerləşmə xəritəsinin hazırlanması, tədqiqi və atribusiyası, habelə mümkün olduqda restitusiyası və qaytarılması ilə bağlı məsələlərin sistemli şəkildə həll edilməsi | MdN | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Qurumlararası əlaqələndirilmiş fəaliyyətin həyata keçirilməsi üçün komissiyanın yaradılması | Azərbaycan mənşəli mədəni irs nümunələrinin və mədəni sərvətlərin yerləşmə xəritəsinin hazırlanması, tədqiqi və atribusiyası, tanıdılması istiqamətində tədbirlər görülməsi | Mədəni irs nümunələrinin restitusiyası və qaytarılmasının təmin edilməsi |
| 8.8.8. | Dünyanın aparıcı muzeylərində Azərbaycan mədəniyyəti guşələrinin yaradılması və həmin muzeylərlə əməkdaşlığın genişləndirilməsi | MdN | XİN, DİDK, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Tədbirlər planının hazırlanması | Tədbirlər planına uyğun olaraq xarici muzeylərlə əməkdaşlıq formasının müzakirəsi | Xarici muzeylərdə Azərbaycan mədəniyyəti guşələrinin yaradılması |
| 8.8.9. | Mədəniyyətin və onunla əlaqəli fəaliyyətin seçilmiş sahələrində Azərbaycanın regional və beynəlxalq qovşağa çevrilməsinin təmin olunması | MdN | aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Beynəlxalq təcrübənin və imkanların öyrənilməsi | Regional və beynəlxalq qovşağa çevrilməsi planlaşdırılan sahələrin müəyyən edilməsi | Seçilmiş sahələrdə tədbirlərin həyata keçirilməsi |
| 8.8.10. | Azərbaycan vətəndaşlarının və dünya azərbaycanlılarının yaradıcılıq bacarıqlarının artırılması yolu ilə beynəlxalq layihələrdə və təşkilatlarda aparıcı mövqelərdə iştirakının genişləndirilməsi | MdN | DİDK, XİN | 2026–2030 | Əməkdaşlıq imkanlarının araşdırılması | Əməkdaşlığın həyata keçirilməsi | İştirakın genişləndirilməsi yolu ilə Azərbaycanın mövqeyinin müdafiəsi və mədəni təsir vasitələrinin ("yumşaq güc") formalaşdırılması |
| 8.8.11. | Azərbaycan mədəniyyətinin dünyada tanıdılması | MdN | XİN, DİDK, DTA, AQUPDK, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2030 | Tədbirlər planının hazırlanması | Tədbirlər planının təsdiqi | Tədbirlər planının icrası |

## AKRONİMLƏR

**ADRA** Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyi
**AİBNDA** Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi
**AQUPDK** Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi
**AMEA** Azərbaycan Milli Elmlər Akademiyası
**AvŞ** Azərbaycan Respublikasının Audiovizual Şurası
**DİDK** Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi
**DTA** Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi
**ETN** Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
**ETSN** Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi
**ƏƏSMN** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
**ƏMA** Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi
**GİN** Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi
**XİN** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi
**İN** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi
**"İçərişəhər" DTMQİ** "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi
**MdN** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi
**MEDİA** Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi
**MN** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi
**NK** Azərbaycan Respublikasının Nazirlər Kabineti
**RİNN** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi
Şuşa Şəhəri DQİ Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi

**«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 17 iyun (Çərşənbə axşamı günü) tarixli 206-cı nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası**



# AZƏRBAYCAN

Səşənbə, 18 ramazanül-mübarək sənə 1337. 17 həziran 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 30 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.

## ELAN

Bakı Şəhər İdarəsi bununla elan edir ki, həziran ayının 19-da səhər saat 11-də Təsərrüfat şöbəsi dəftərxanasında şəhər kioskalarının (budkalarının) icarəyə verilməsi üçün torq olacaqdır. Kioskaların ikisi bulvarda, biri isə Malakan bağındadır. Təfsilatı Təsərrüfat şöbəsinin dəftərxanasında hər gün oxumaq olar.

*T-151*

## QİSMİ-RƏSMİ [RƏSMİ HİSSƏ]

**Posta və Teleqraf Nəzarətindən verilən əmrlər**

*[Əmrnamə 62]*

Bakı Mərkəzi Posta və Teleqraf bürosunun 3[-cü] dərəcəli məmuru Moisey Kozlovski 4 dərəcəli "Judavstvo Koltuşski" Posta və Teleqraf bürosuna həziran [iyun] ayının 14-dən 1919 sənəsi tarixindən müdir təyin olunur.

*Əmrnamə 63*

Bu sənəsi həziran ayının birində Xaçmaz Posta və Teleqraf bürosunun müdiri Feodor Belousov Bakı Posta və Teleqraf bürosunun 4[-cü] dərəcəli məmuriyyətinə köçürülür.

*Əmrnamə 65*

Bu sənəsi həziran ayının birində 5 klaslı Quba Posta və Teleqraf bürosunun müdiri Georgi Sokolov Bakının 1 klaslı Mərkəzi Posta Bürosunun 2[-ci] dərəcəli məmuriyyətinə köçürülür.

İşbu 62, 63 və 65 nömrəli əmrnamələr türki [türk dilində] "Azərbaycan" qəzetə idarəsinə göndərilir ki, rəsmi sütununda dərc edilsin.

*Dəftərxana baş müdiri: Blajevski*
*1-inci şöbə müdiri: Lyutsov*
*Kargüzar: R[əsul] Rəhimli*

## TELEQRAF XƏBƏRLƏRİ

**Çörçillin nitqi**

İngilis Hərbiyyə naziri Çörçillin nitqini "Morninq post" qəzetəsi dərc edir:

*"Lenin ilə Trotski nəcib Rusiya millətini şərəfsiz bir yola çəkdi və böyləliklə Almaniya ordusuna fürsət verdilər ki, böyük bir qüvvə ilə bizim üzərimizə düşsünlər. Keçən il qətl edilmiş olan hər bir fransız və ingilis saldatı həqiqətən də Lenin və Trotski tərəfindən qətl edilmişdir. Cahan tarixində misli görünməmiş xəyanətlər bu qədər qitala [qırğına] bais oldu. Fəqət yaddan çıxarmaq olmaz ki, hələ də Denikin və Kolçakın təhti-idarəsində [idarəsi altında] yenə Rusiya qoşunları vardır. Bunlar ümumi işə sadiq qaldıqlarına heç bir tərəddüd göstərməyib, məharətlə bolşevizm vəhşəti üzərinə hərb edirlər. Biz onlara əlimizdən gəldiyi qədər müavinət [yardım] ediriz."*

**Odessada**

"Odessa xəbərləri" yazır: Şəhərdə olan 4 min bolşevik matroslar Müttəfiqlər Komandanına müraciət ilə təvəqqe eyləmişlər ki, bolşevik gəmilərini Qara dənizdə gəzdirməyə onlara müsaidə verilsin. Müttəfiqlər cavabında demişlər: "Biz bunun əleyhində deyiliz. Fəqət bolşevik gəmiləri Müttəfiqlərin kontrolluğu altında olmalıdır."

**Bessarabiyada**

Romaniya ilə fransız qoşunları arasında getdikcə münasibat kəskinləşir. Romaniyalılar Bessarabiya əhalisi arasında fransızlara qarşı ədavət qalxızmaq üçün fransızlar və onların qoşunları barəsində cürbəcür uydurma sözlər çıxarırlar.

**Amerika və Rusiya**

Amerika Senatında olan Demokrat firqəsinin nümayəndəsi Mak-Kumber demişdir:

"Amerikanın borcudur ki, Rusiya müttəfiqi olduğu üçün bilatəxir [dərhal] Rusiyaya kifayət edəcək qədər ordu göndərilsin, tainki bolşevik dəstələri məhv edilib qanuni hökumət təşkil edilsin."

**Peştədə**

Peştədən xəbər verilir ki, bolşeviklər yüzdən ziyadə burjuyları tutub Romaniya yaxud Müttəfiq qoşunları Macarıstana yürüş edəcəkləri təqdirdə onları öldürəcəklərini məlum etmişlərdir. General Bertlo nəşr etdiyi intibahnaməsində [bəyannaməsində] bəyan edir ki, Müttəfiq qoşunlar Macarıstanı işğal edərək orada asudəlik bərpa edəcəklərdir.

- Nürnberqdən xəbər verilir ki, orada bolşeviklərin mükəmməl təşkilatı kəşf edilmişdir. Bunlar hökumət əleyhinə işləyirmişlər. Hökumət bu əhvalı bilərək təşkilatı kəşf etmiş, orada mübarizə zamanı bolşeviklərin başçısı Şmidt qətl edilib iki nəfər başqaları həbsə alınmışlardır.

**İtaliyaya borc**

İtaliya ilə Amerika arasında olan ixtilafa baxmayaraq, Amerika İtaliyaya 50 milyon frank borc verməyi təklif edir.

**İngilis əsirləri**

London - Harmsvort Avamlar Kamerasında bəyan eyləmişdir ki, Rusiyada bolşeviklər əlində olan ingilis əsirlərinin təbdili [dəyişdirilməsi] barəsində danışıq davam edir.

- Münhendən verilən məlumata nəzərən, spartakların komitəsi təklif eyləmişdir ki, hərəkati-hərbiyyə dayandırılsın. Bu şərtlə ki, [İohan] Hofmann qoşunları şəhərə girməsinlər. Hökumət qoşunları bu təklifə razı olmayıb qəti surətdə təslim olmalarını tələb etmişlərdir.

- Berlindən verilən axırıncı xəbərlərdən görünür ki, spartaklar hər tərəfdən ricət edirlər [geri çəkilirlər] və Qırmızı qoşunlar getdikcə azalır.

## SÜLH ƏTRAFINDA

**Fiume məsələsi**

Fiume məsələsinin tezliklə həll ediləcəyinə ümid edilməyir. İtalyanlar güzəştə getməyə hazır idilər. Cənubi slavların tələbatı münasibətilə saziş təbdil edilmişdir [dəyişdirilmişdir].

Müahidənaməyə [sazişə] görə, gələcəkdə müstəqil Fiume Hökumətinin müqəddəratını rəyi-amm [referendum] ilə həll etməli imiş. Hər bir məntəqə təklikdə səs vermək əvəzinə, bu dəfə ümum məmləkətdə səs vermək əsası ilə olacaqdır.

İtalyanlar deyirlər ki, bu qayda müahidənamədə göstərilən qərara ziddir. İtalyanlar bu qərarı təsdiqdən imtina edirlər.

**Fiume məsələsində saziş görünməyir**

"A. F." qəzetəsi yazır ki, zahirən Fiume məsələsində saziş görünməyir. Düşənbə [bazar ertəsi] günü çexslavların əks-təklifinə baxandan sonra Vilson tərəfindən edilən təzə təklifə istinadən Orlando müzakiratı davam etdirmək istəməyir. Bu münasibətlə dünən müzakirat olmamışdır. Bununla bərabər, İtaliya Parlamanının çağırılacağı yaxınlaşır. İtaliya əhalisinin Fiume məsələsindəki təəssüfü onları Fransa əleyhinə qaldıracağından ehtiyat edilir.

**Macarıstan sərhədləri**

Beş dövlət xariciyyə naziri (Lansinq, Balfur, Pişon, Sonnino və Makino) çahar-şənbə günü səhər Macarıstan sərhədlərini təyin etməklə məşğul olmuşlar. Romaniya və çexslav şuraları nümayəndələrinin məruzəsinə qulaq asılmışdır.

**Müttəfiqlərin Almaniyaya cavabı**

Parisdən verilən xəbərlərə görə, Müttəfiqlərin Almaniyaya verdikləri cavab notasında deyilir ki, sülh şəraiti mütarikə [atəşkəs] və sülh müzakiratı başlanması təklifləri əsası üzərinə əsaslanmışdır.

Müttəfiqlər edə bilməzlər ki, öz hüquqlarının sülh şəraiti üzərində müzakirəsini təkid etsinlər. Lakin Müttəfiqlər Almaniya tərəfindən verilən təkliflərə baxmağa hazırdırlar.

Sonra Müttəfiqlər deyirlər ki, Almaniyanın Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] məramnaməsi lazımi komitəyə veriləcəkdir. Bundan əlavə, Müttəfiqlər qeyd edirlər ki, Cəmiyyəti-Əqvama əlavə üzvlərin buraxılacağı şəraiti Cəmiyyəti-Əqvam müahidənaməsinin ikinci maddəsində göstərilmişdir.

## QƏZETƏLƏRDƏN

**Batumda**

İyun ayının 2-də Həmkarlar İttifaqı Şurası tərəfindən seçilmiş olan heyət Batum general-qubernatoru general Kuk-Kollisin yanına gəlib Batumun dabravollar [könüllülər] nüfuzu altına keçməsi məsələsini bilmək istəmişdir.

General-qubernator bunlarla söhbət edərkən demişdir ki, Batum heç bir halətdə Dabravol ordusuna verilməyəcəkdir. Bu barədə heç danışığa belə dəyməz. Batum tabyalarının [istehkamlarının] Dabravol orduya verilməsi məsələsinə gəldikdə general demişdir ki, dabravollara yalnız topsuz bir tabya verilmişdir. Burada bəzi şeylər saxlamaq üçün anbar ediləcəkdir. Axırda general, heyəti inandırmışdır ki, dübarə Batum Könüllü orduya verilməyəcəkdir.

**Batuma mal gətirilməkdədir**

Bu axır vaxt Batuma İngiltərə və İtaliya paroxodları ilə mal gətirilməkdədir. Bu mallardan bir çoxu Gürcüstana məxsusdur. Gətirilən mallar bəzzaziyə malı [parça, toxunma mal], ayaqqabı, qəhvə, maşın sapı, corab, tənbəki, filfil [istiot], papiros və qeyri xərəzi mallarından [digər xırdavat mallarından] ibarətdir.

**İstanbulda**

İstanbuldan bu son günlərdə gəlməkdə olan xəbərlər orada qayət mühüm hadisələr vaqe olduğunu bildirir. Sülh müahidənaməsinin [sazişinin] ağırlığından dolayı İzmir vilayətində əhali arasında başlanmış olan həyəcan qonşuda olan oblastlara da sirayət etmişdir [keçmişdir]. "İttihad-Tərəqqi" firqəsi yenə baş qalxızıb plan üzərinə son hərəkətlərə qoşulmuşdur. Başlanmış olan bu iğtişaş, varid olan [gələn] xəbərlərə görə, İstanbulda hökumətin düşürülməsinə səbəb olmuşdur. Bu inqilab qarğaşalığa səbəb olub, bəzi mühüm hadisələr törətdiyi zənn edilir.

**General Briqqs**

Mövsuq [etibarlı] mənbələrdən xəbər verirlər ki, Könüllü ordu namından Gürcüstan Hökuməti ilə müzakirədə bulunmaqdan ötrü Tiflisə gəlmiş olan Yekaterinodardakı İngiltərə heyəti naçalniki [başçısı] general Briqqs öz mənsəbini buraxıb başqa bir vəzifəyə təyin edilmişdir.

**Moskvanın təxliyəsi**

Yekaterinodardan xəbər verilir ki, bolşevik hökumətinin məxfi surətdə verdiyi əmrnaməsinə görə, Moskvadan tədrici surətdə Kursk tərəfinə ziqiymət [qiymətli] şeylər aparılır. Kurskdan nərəyə aparılacağı hənuz qət edilməmişdir. Kiyev ilə Xarkova köçmək məsələsi təxirə salınmışdır. Çünki bu şəhərlərin vəziyyəti qeyri-müəyyən bir haldadır.

**Əmələlərə güzəşt**

Moskvadan xəbər verilir ki, orada hökumətin son iclasında əmələlərin [fəhlələrin] son tələbnamələri müzakirə edilib, onların tələbinə əməl etməyin mümkün olduğunu etiraf eyləmişlərdir. Lenin demişdir ki, hal-hazırda iki rəy ola bilməz. Bu xüsusda hər nə qədər uzun-uzadı müzakirat olsa da, axirüləmr [axırda] onların tələbinə əməl edilməlidir. Nə qədər tez ola bilər, bu ağır vəziyyətdən qurtarmalıdır.

**Fransa komandanının əziməti [gedişi]**

Mövsuq [etibarlı] mənbələrdən Yekaterinodar qəzetələrinə yazırlar ki, Fransanın bəhri qüvvəsinə [dəniz qüvvəsinə] komandanlıq edən birinci ranqa kapitanı Bennert Kerç altında dabravolların irəliləməsinə mane olduğu üçün qulluğundan əzl [kənar] edilmişdir. General Denikinin inadı üzrə kapitan Bennert admiral Amet tərəfindən dəvət edilmişdir. Fransanın hərbi məmurları bu işi təqib edirlər.

- Şərq cəbhəsində fransız qoşunlarına komandanlıq edən general Bertlo Odessanın düşməsi münasibətilə öz vəzifəsindən istefa vermişdir. İtaliya cəbhəsində olan sabiq Fransa komandanı onun yerinə təyin edilmişdir.

**Bolşeviklərlə müharibə**

- Liski dairəsində bolşeviklərlə müntəzəm Qırmızı qoşunlar arasında qanlı müsadimə [toqquşma] vaqe olmuşdur. Hər iki tərəfdən külli tələfat vardır. Qırmızı qoşunlar arxaya dəvət edilmişlərdir.

- Partizan qoşunlarının cəbhəsində məğlub edilmiş qoşunların yerinə Voronejdən Çin qoşunları gəlir. Əsir düşmüş Qırmızı qoşunların söylədiyinə görə, Çin qoşunlarına dabravollar yaxşı məvacib verərlərsə, onlar dabravollar cərgəsinə girə bilərlər.

**Odessada**

Odessada yaşayan yəhudilərin mitinqində natiqlər demişlər ki, bayraqlarında "yəhudiləri qır" şüarı yazılan petlyuralılar tərəfindən yəhudiləri təhlükə təhdid etməkdədir. Müttəhidülqövl [yekdilliklə] qərar alınmışdır ki, 18 yaşından 48 yaşına qədər yəhudilər könüllü əsgər yazılsınlar. Bu qərar üzrə 50 minə qədər yəhudi hal-hazırda tüfəng altındadır. Bu qüvvə ilə yəhudilər talançıların müqabilinə çıxa bilərlər. İyunun 4-də Odessa-Zastava rayonunda Qriqoryev süvariləri ilə Odessanı müdafiə edən əsgərlər arasında xırda bir müsadimə [toqquşma] olmuşdur. Müdafiə edənlərin şiddətli atəşi altında Qriqoryev süvariləri məğlub edilmişdir.

**Kolçak əleyhinə üsyan**

Qəzetələrin verdikləri xəbərlərə görə, Kolçak tərəfindən Tümendə əsgərliyə cəm edilən fəhlələr əvvəlcədən sözü bir yerə qoyub cəbbəxananı zəbt etmişlərdir. Sonra silahlanıb, əsir edilən bolşevik əsgərlərini azad etməkdən ötrü kazarmalara hücum etmişlər. Üsyanı yatırmaq üçün dəvət edilən əsgərlərin silahı əlindən alınmışdır. 3 minə qədər bolşevik əsgərləri azad edilmişdir. Üsyançılar bunlarla bərabər siyasi məhbusları da azad etməkdən ötrü həbsxanaya hücum etmişlərdir. Kolçak komandanlığının xüsusi və etibarlı əsgərləri olmadığından, çexslav əsgərləri göndərilmişdir. Vaqe olan müharibədə hər iki tərəfdən tələfat olmuşdur. Ətrafdan dəvət edilən əks-inqilab əsgərləri üsyanı yatırmışlardır. 500 nəfərdən ziyadə güllələnmişdir.

**Türküstanda**

Türküstandan alınan axırıncı xəbərlərdə deyilir ki, dabravol əsgərlərinin miqdarı 12 mindir. Bolşeviklərin qüvvəsi isə 35 min nəfərdir. Bolşeviklərin bu qüvvəsi Dutov tərəfindən məğlub olduqdan sonra Ural bolşevik ordusundan ayrılıb özünü zəif bir tərəf üzərinə salmışdır. Hal-hazırda Qəhqəhə istasyonu rayonunda şiddətli müharibələr davam edir. Bolşeviklərin Aşqabaddan sonra Məşhəd üzərinə hücum edə biləcəkləri ehtimalına qarşı Məşhəddə tədbirlər görülür.

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

- Daxiliyyə nazirinin, Bələdiyyə İdarəsinin rus, türk və başqa-başqa şura müəssisələrinə buraxılan su üçün 451,862 rublə 67 qəpik istəməsi haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

Rədd edilsin.

- Daxiliyyə nazirinin, Bakı quberniyası polis mühafizi müfəttişi yüzbaşı Əhmədbəyovun minbaşılığa tərfisi [qaldırılması] haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Əhmədbəyovu minbaşı rütbəsinə tərfi etməli.

- Daxiliyyə nazirinin, Bakı polismeysteri kiçik müavini [Əziz bəy] Bayrambəyovu[n] minbaşılığa tərfisi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

1) Bayrambəyov minbaşılığa tərfi edilsin;

2) Daxiliyyə nazirinə, xidmətdə bulunan hərbi məmurların tərfisindən əvvəl hərbiyyə müəssisələrindən məlumat alması tapşırılsın.

- Ticarət və Sənaye və Ərzaq nazirinin Mal Mübadiləsi Komitəsi ləğvi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Komitə ləğv edilməklə, vəzifəsi Ticarət və Sənaye və Ərzaq Nəzarəti Şurasına mühəvvəl edilsin [tapşırılsın].

- Daxiliyyə nazirinin, Zaqatal şəhərinə su yolları, soqaqları və şəhər evləri təmirindən ötrü 70 min rublə faizsiz para buraxılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzə 3-cü maddədən başqa, təsviblə [bəyənilməklə], təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılsın.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- Xariciyyə naziri müavini Adil xan Ziyadxanov həzrətləri vəzifə ifası üçün bir neçə günlük Gəncəyə əzimət etmişdir [getmişdir].

- Mə'dəniyyat [mədənçilik] və neft fəhlələrinin müştərək İttifaqı Məsai Nəzarətinə [Əmək Nazirliyinə] müraciətən məlum etmişdir ki, aldıqları məlumata nəzərən Neftçilər İttifaqının Sabunçu xəstəxanasında işlər qayət fəna dərəcədə aparılmaqdadır. Məsələn, əmrazı-cildiyyə [dəri xəstəlikləri] və göz xəstəliyi şöbələri yox. Başqa-başqa xəstəliklərə düçar olmuşlar bərabər yaşayırlar. Halbuki bir naxoşa digər xəstəlikdən sirayət etmək ehtimalı yüzə yüz olur. İttifaq rica etmişdir ki, iş aparılmaqdan ötrü İttifaqın doktoru və Məsai Nəzarəti nümayəndəsindən ibarət bir komisyon təşkil edilib işi məhəllində [yerində] təhqiq etsin.

- Maliyyə Nəzarəti Məsai Nəzarətinə müraciətən rica etmişdir ki, Azərbaycan Cümhuriyyəti xəzinəsindən əlavə nə kimi müəssisələrə vergi vermək mümkün olacağı barəsindəki nəzəriyyatını havi [fikirlərini ehtiva edən] məlumatı Maliyyə Nəzarətinə bildirsin.

- Fabrika müfəttişi Məsai Nəzarətinə müraciətən məlum etmişdir ki, "Kolesnikov və oğlanları" firması fəhlələrə veriləcək məvacibi pul olmamaqla təbir [izah] edib, məvaciblərini verməyir. Müfəttiş rica etmişdir ki, bu barədə lazımi binagüzarlıqda bulunulsun [tədbir görülsün], zira firma məvacibləri verməyə qadirdir.

- Məsai Nəzarəti Daxiliyyə Nəzarətinə müraciətən məlum etmişdir ki, Kəsbkarlar [Həmkarlar] İttifaqı Məsai Nəzarəti indində [nəzdində] Azərbaycandan nəfy [sürgün] edilmiş İttifaq əzası [üzvü] Koval və Çurayevin qaytarılması üçün təşəbbüsatda bulunmuşdur. Nəzarət rica etmişdir ki, mümkün görülərsə, onların qayıtmalarına müsaidə verilsin.

- Fabrika baş müfəttişi Məsai Nəzarətinə məlum etmişdir ki, iyunun 4-dən etibarən Nəzarət müfəttişi mühəndis-texnoloq Şults Gəncə quberniyası müfəttişliyinə təyin edilmişdir. Müşarünileyhin [haqqında danışılan şəxsin] dəftərxanası quberniya dəftərxanasında yerləşdiriləcəkdir.

- Fabrika baş müfəttişi Məsai Nəzarətinə müraciətən məlum etmişdir ki, Ərzaq Nəzarəti cənbindəki [nəzdindəki] çörək emalatxanası fəhlələrinə Nəzarət məvacib verməkdən imtina etmişdir. Halbuki əldə edilən məlumata görə, onların məvacibləri verilməlidir. Müfəttiş rica etmişdir ki, bu barədə binagüzarlıqda bulunulsun [tədibr görülsün].

- Məsai naziri Fabrika baş müfəttişinə müraciətən əmr vermişdir ki, tətil günlərində işləmək istəyən fəqət işləməyə müsaidə bulmayan fəhlələrin məvaciblərinin bütünlüklə verilməsi haqqında lazımi tədabir ittixaz edilsin [tədbirlər görülsün].

- Məsai Nəzarəti, dövləti [dövlətə məxsus] mərmi zavodu müdiriyyətinə xəbər vermişdir ki, Mayısın 28-i dövləti bayram olduğu üçün məvacibləri də verilməlidir.

- Gəncə nahiyəsində hal-hazırda 1000 nəfərədək İrəvan qaçqınları toplanmışdır. Bunların qaramalları üçün həman nahiyədə ələfiyyat [ot] olmadığından naşi [ötrü], Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] naziri Türüq və Məabir Nəzarətinə [Nəqliyyat və Rabitə Nazirliyinə] müraciətən rica etmişdir ki, qaçqınları Kürdəmir mövqifinə [stansiyasına] gətirmək üçün 30 ədəd vaqon verilsin. Qaçqınları Kürdəmir mövqifində Şamaxı nahiyə müfəttişi müvəkkili qəbul edib Şamaxı nahiyəsində yerləşdirəcəkdir. Həman nahiyədə ələfiyyat kafi dərəcədə mövcuddur.

- Şöbə müdirinin verdiyi xəbərlərə görə, Xaçmaz mövqifində bir çox qaçqın toplanmışdır. Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti nahiyə müfəttişliyindən rica etmişdir ki, qaçqınları yerlərinə qaytarmaq üçün tədabir ittixaz edilsin [tədbirlər görülsün].

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Türüq və Məabir Nəzarəti ilə etilafa [razılığa] gəlmişdir ki, Gədəbəy komitəsinə Novo-Bayəzid qaçqınları üçün alınmış buğdanı Ləki mövqifindən Əlilər mövqifinə aparmaq üçün bir vaqon versin.

- Bakı mövqifində Tersk nahiyədən gəlmiş bir çox qaçqın mövcuddur. Bunları Tazəşəhərə göndərmək üçün Türüq və Məabir Nəzarəti İngiltərə Komandanlığı indində [nəzdində] biletlərə güzəşt edilmək barəsində təşəbbüsatda bulunmuşdur.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti tərəfindən xəsarətdidə olmuşlara [zərərçəkənlərə] taxtaşalman verilmək barəsindəki Ərazi Nəzarəti düsturüləməlləri [təlimatnamələri] bütün nahiyə müfəttişlərinə göndərilmişdir.

## MAL XƏYANƏTİ VƏTƏN XƏYANƏTİNƏ RƏHBƏRDİR

Hamıya bir gözlə baxdıq: ləyaqətli əcnəbiləri, xariciləri iş başına dəvət edib bələdiyyələrimizi, pullarımızı bunlara tapşırdıq. Lakin bunlardan bir çoxu Azərbaycanı özünə vətən hesab etməyib, özlərinə həvalə olunmuş əmanətlərə bəzən xəyanət edirlər.

Bunların hələ əllərindən gələ bilən xəyanətləri kassalardan pul oğurluğudur ki, zatən bu daxili xəyanətlərin axır nəticələri pək fəna görünür. Ağacı içindən yeyib tələf edən qurdlar kimi bu məmurlar da dövlətin qanı mənziləsində [yerində] bulunan nəqdiyyələrini [pullarını] sorub sömürürlər.

Ən böyük xəyanətlər Bakı Bələdiyyəsində baş verir. Buranı hökumətmi başlı-başına buraxmışdır, yaxud buradakı müsəlman məmurlarının bacarıqsızlığındanmı bir bu qədər xəyanətlər zühur edir? Hanki olursa-olsun, bu səhlənkarlığın axırı xeyir deyildir. Nümunə olaraq bələdiyyədə baş vermiş xəyanətlərdən bir neçəsini burada qeyd etməliyəm.

Bələdiyyənin İqtisad şöbəsində Axverdov (?) familiyalı bir şəxs xidmət edirmiş. Bunun vəzifəsi əhalidən şəhər və dövlət töycülərini cəm etmək imiş. Bunun ə'malına [əməllərinə] çoxdan sui-zənn [şübhə] ilə baxılırdı. Lakin bunun hərəkatını təftiş etmək xəyalı rəislərin qafalarında ancaq bu günlərdə caygir olmuşdur [özünə yer tapmışdır].

Təəccüb burasıdır ki, qəflətən və xəbərsizcə bir təftiş əvəzinə, Axverdovu müşfiqanə [yumuşaq] işarələrlə əhvalatdan hali [xəbərdar] edirlər. Axverdov möhlət istəyir ki, hesab dəftərlərini tərtib və nizama salsın. İstidası [xahişi] qəbul olunmadığı halda, ayrı bir bəhanə ixtira edir ki, guya naloq [vergi] siyahıları Xəzinə Palatasında qalmışdır. Tələb olunur ki, siyahıları Palatadan götürüb müfəttişlərə təqdim etsin. Binaənileyh [ona görə], Axverdov Palataya rəvan olur. Lakin müfəttişlər Axverdovu indi də gözləyirlər. Qaçıb gizlənmişdir.

Palatadan əhvalpürsan olunduqda [soruşulduqda], cavab verirlər ki, Palatada heç bir siyahı yoxdur və Axerdov da oraya əsla gəlməmişdir.

Hələlik yüzlərcə Axverdovun sui-istemalı [sui-istifadəsi] və ənvai fokusları [fırıldaqları] kəşf olunmuşdur. Təftiş qurtarmamışdır. Ciblədiyi pulların miqdarı çoxdur. Hələ 10 min manata qədər oğurluğu kəşf olunmuşdur. Rəvayətə görə, Axverdov İrana, yaxud Ermənistana qaçmışdır.

İkinci vəqə [əhvalat] bundan daha maraqlıdır. Belə ki, bu günlərdə Bələdiyyənin daxıldarını [kassirini] Şamaxı yolunda soyub yüz həştad min manatını aparmışlar. Bu pulları daxıldar ağa aparırmış ki, 19-cu xəstəxananın məmur və xidmətkarlarına donluq versin. Təəccüb deyilmi ki, yüz həştad min manatın mühafizəsi üçün daxıldar özü ilə qarovulçu dəstəsi götürməmişdir? İstibdad dövründə böylə daxıldarları qarovul dəstələri müşayiət edərdi. İndi nə üçün böylə olmayır?

Bundan əlavə, təəccüb burasıdır, soyğunçulara haradan məlum oldu ki, filan gün, filan küçədən, filan daxıldar bir bu qədər pul aparacaqdır? Bu soyğunçular kimdir və sirqət olunmuş [oğurlanmış] bir bu qədər pulları hanki məqsəd və amalın icrasına sərf edirlər? Bəlkə əlimizdən pullarımızı qarpıb da aramızda gizlənmiş xainləri həman pullarla bəsləyirlər?

İnsan düşündükcə, dərin-dərin fikirlərə qərq olur. Bu gün varımızı yeyənlər, sabah üzərimizə xoruldayacaqlar. Bu oğruluqlara, bu xəyanətlərə məgər heç bir çarə yoxdur?

Burada baş sındıracaq, zehin yoracaq bir şey yox. Sabiq hökumətin qanunları gözlərimizin önündən hələ qaib olmamışdır. Tamam daxıldarların, kassirlərin özlərinə məxsus cəmiyyətləri, artelləri vardı. Hər daxıldarın vəzifəsinə nisbət artellərdə girovları saxlanırdı. Bunlardan bir xəyanət baş verdiyi halda, həman girovlardan iadə olunurdu [qaytarılırdı]. Müəssisələrə lazım olacaq daxıldarları fəqət artellərin riza və cavabdəhəndəliyi [razılığı və cavabdehliyi] ilə dəvət edirdilər.

İştə, ən asanca bir çarə! Daxıldarların xəyanətinə qarşı artelləri cavabdəhəndədirlər.

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 17 iyun (Çərşənbə axşamı günü) tarixli 206-cı nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Hərgah, bu gün Azərbaycanda daxıldarlar arteli yoxdursa, bunun təsisinə çalışmalı, tələb etməli ki, Azərbaycanın tamam daxıldarları bir cəmiyyət tərtib versinlər, hər kəsdən beqədri-kifayə [kifayət qədər] girov alınsın. Daxıldarların hərəkatına qarşı məsul qalmış cəmiyyət də hər şübhəli şəxsi üzvlüyə qəbul etməz. Əmin olmadığı adamın da daxıldarlığına riza göstərməz. Daha bundan da gözəl çarə?

Bir də daxıldarlar özlərinə mühafizəçi dəstəsi tələb etsinlər. Bunu səhl [asan] sayan ağaların sui-istemalı aşkar olmayırmı? Böylə olan surətdə oğurlanmış pulların hamısına özləri məsul qalırlar.

Xülasə, mal xəyanəti vətən xəyanəti kimi deyilsə də, amma onun böyük müavinlərindəndir ki, bunu bir an əvvəl qabaqlamalıdır. Məbada iş böyüyüb dairəsindən aşmasın.

*Fərhad Ağazadə*

## MƏTBUAT

Bakı Raboçi Konfrans idarəsinin türk dilincə yazılmaqda olan "Əxbar"ı qəzetəmizin keçən nömrələrindəki baş məqalələrindən "Qara təhlükə" sərlövhəlisindən bəzi yerlərini iqtibas edərək, sonra tənqidə başlayır və sonra deyir ki:

*"Üfüqünüzdə qara əl yeddi aydır ki, nümayan olmuşdur [görünmüşdür]. Ancaq sizin kor gözünüz və kar qulağınız həmin qara əlin nə işini ("görmüşdür" sözü yəqin buraxılıbdır) və nə səsini eşitmişdir."*

Əfəndim! Siz üfüqdə yalnız bir "qara təhlükə"ni görürsünüz, amma biz qara ilə bərabər "qırmızı təhlükə"ni də görürük. Biz "Həştərxan ilə mal mübadiləsi" şüarı altından "Daloy [məhv olsun] Azərbaycan istiqlalı" sözlərini də eşidirik, amma siz eşitməyirsiniz.

İndi insaf edilsin: kor kimdir, kar kimdir?

## GÜRCÜ MƏTBUATI

Denikin əhvalı münasibətilə gürcü sosial-demokrat qəzetəsi "Ertoba" aşağıdakı məqaləni yazır:

*"Denikinin hücumu qorxusu Zaqafqaziyada icrayi-fəaliyyət edən qüvvətləri iki qisimə ayırdı. Bu iki qüvvətlərdən birisinin məsləkini, təqib etdiyi idealları iki iyun tarixindəki Məclisi-Müəssisan ictiması [yığıncağı] vazeh [açıq] bir surətdə göstərdi: Bütün Məclisi-Müəssisan bir adam kimi Sosial-Demokrat Fraksiyonunun qətnaməsi ətrafında birləşdi. Bu qətnamə tələb edirdi ki, Denikinə qarşı hökumət hər dürlü mübarizəyə girişməli və fraksiyon da ona yardım eyləməlidir və biz onu da biliriz ki, Azərbaycan dəxi Gürcüstanla bir müttəfiqdir.*

*Ermənistan isə büsbütün başqa bir vəziyyət tutdu. O hər dürlü ehtimala görə, bitərəfliyini bizə vəd etməkdədir. Əlbəttə, bu bitərəflik də o suratlə ki, bizim tərəfimizdən cürbəcür güzəştləri intizar etməyə [gözləməyə] müqabildir. Bu, daşnak bitərəfliyidir və Ermənistanın vəziyyəti daşnakların iğfal edici [aldadıcı] bir manevralarından ibarət olduğunu biz hamımız şübhəsiz biliriz!*

*Fəqət Denikin təhlükəsinə qarşı ikinci bir cərəyan dəxi birləşdirərək icrayi-fəaliyyət etmələrinə meydan verdi ki, bunlar da sosialist libasını taxmış olaraq bizə görünməkdədirlər. Bunlar da Rusiya kommunistləridir ki, hər gün çıxan qəzetələri "Volna" ilə bizə Rusiya kommunistlərini mədhü-səna edib [tərifləyib] dururlar. Gürcüstanın "milli" hökumətini isə xak ilə yeksan [yerlə bir] edərək söyməkdədir və Gürcüstan istiqlaliyyətini məsxərəcə tərif eyləməkdədirlər.*

*Bizim sabiq yoldaşımız rusca "sosial-demokrat" çoxdan bəri kommunist simasında olduğu halda, şimdi apaşkar özünü göstərdi. Denikinin Qafqaziyaya doğru yürüşünü o qəzetə də mənfi bir surətdə görməkdədir. Fəqət demokratiyamızın və hökumətin siyasətinə bütün siyasi cərəyanlar baş əydikləri halda, "sosial-demokrat" buna müvafiqət etməyir [bununla razılaşmır], riza və inqiyad göstərməyir [tabe olmur]. O guya öz fikiri ilə Bakı proletariyasının amil olduğunu [əməl etdiyini, hərəkət etdiyini] bir tərəfdən söyləyərək, bu məqsəd üçün dəxi Bakı proletariyasının mübarizə eylədiyini bizə anladır və Gürcüstan Hökumətinin milli mübarizə ətrafında bulunduğunu tənqid edir və bizim mübarizəmizin isə əvvəla Denikinə qarşı olmasını, sonra da Rusiya Sovet Hökuməti ilə birləşməmizi tövsiyə edir. İştə, bizim sabiq yoldaşlarımız bizim kəndçi və proletariyamıza böylə bir öyüd verirlər."*

Gürcü qəzetəsi bunu şiddətlə tənqid etdikdən sonra axırda yazır:

*"Bizim əlimizdə heç bir vəsilə [vasitə] və sübut yoxdur ki, siyasətimizi dəyişəlim. Biz Denikin ilə hərb ediriz. Bizim hərbimiz Rusiya Sovet Hökuməti ilə birləşmək deyil, istiqlaliyyətimizin mühafizəsi üçündür və kim bizim istiqlaliyyətimizi təsdiq edər və tanıyarsa, onunla dostanə hərəkət edəriz. Bu dost istər Lenin olsun, istərsə Denikin, bizim üçün müsavidir [birdir]. İştə, bizim qəti yolumuz budur."*

## BAKI XƏBƏRLƏRİ

**"Yardım alayı"nın ərizəsi**

Bakıda təşkil edilmiş olan ehtiyat könüllü "Yardım alayı" komissiyası Rəisi-vükəla [Baş nazir], Hərbiyyə naziri və Türk Ədəmi-mərkəziyyət "Müsavat" firqəsinə bir ərizə verərək məlum etmişdir ki, axır vaxtlar şəhərin bəzi yerlərində qeyri-məsul şəxslər tərəfindən dəstələr təşkil edilərək gecələr küçələri gəzir, Parlaman qarşısına və qeyri yerlərə gedirlər.

Əhali bunların "Yardım alayı" dəstələri olduğunu zənn edirlər. Əlbəttə, cavanların böylə hissiyyatına və hərəkatına heç söz ola bilməz. Lakin onlar qeyri-münasib hərəkatda bulunarlarsa, o vaxt "Yardım alayı" cavabdəhəndə [cavabdeh] olmayacaqdır.

Ərizənin axırında komissiya rica edir ki, camaat arasında məşhur olan "Yardım alayı"nın heysiyyətini xələldar etməmək [korlamamaq] və hər kəs tərəfindən bir dəstə təşkil edilib bununla gözəl bir təşəbbüsün qeyri-müntəzəm hala salınmasına imkan verməməkdən ötrü bu tövr hərəkatın önü alınaraq, "Yardım alayı" komissiyasından başqa könüllü dəvət etməyə kimsəyə icazə verilməsin. Çünki bununla "Yardım alayı" və ələlümum [ümumiyyətlə] böylə bir xeyir işin müvəffəqiyyətli surətdə davam etməsinə mümaniət [maneçilik] göstərilmiş olar. Yazılmaq istəyənlər dəstələrə ayrılmayıb, həman bir müəssisədən idarə olunmaq üzrə çalışmalı və bununla vətən və millətə birlikdə yardımda bulunmağı nəzəri-etibara alaraq, əvvəlcə təşkil olunub və hökumət tərəfindən tanınmış olan "Yardım alayı" komissiyasına gəlib yazılsınlar. Çünki qüvvə birlikdədir.

**"Yardım alayı"nın gecə məşqləri**

Ehtiyat könüllü "Yardım alayı" heyəti-rəyasətinin binagüzarlığı [sərəncamı] ilə bu gün[dən] etibarən hər gün axşamlar saat 9-dan 12-yə qədər Təzəpir məscidi həyətində "Yardım alayı" əsgərlərinə məşq və nizam veriləcəkdir. Buna binaən [buna görə], alay əsgərləri olanlar məzkur [deyilən] vaxtda oraya gəlməlidirlər. Bundan əlavə, üç gün əhya günləri olmaq münasibətilə bazar-dükan bağlı olduğundan, həman günlərdə Salyan kazarmalarında alay əsgərlərinin təlimi üç gün olacaqdır. Məzkur günlərdə alaya yazılmış olanlar hamısı oraya gəlməlidirlər.

**Məscidlərdə moizə**

Ramazanül-mübarək münasibətilə şəhərin bütün məscidlərində məşhur axund və vaizlər tərəfindən əhvali-zaman və hadisata dair müfid [faydalı] və mənidar [mənalı] moizələr və nitqlər irad olunmaqdadır [oxunmaqdadır]. O cümlədən Hacı Cavad məscidində – Molla Məhəmməd Əmin axund, Təzəpir məscidində – axund Molla Məhəmmədəli Bilgəhi, Hacı Cəbrayıl məscidində – Hacı Mirzə Mehdi axund, Qasımbəy məscidi – Şeyx Qəni axund, Hacı Pirverdi məscidi – Hacı Molla Ağa axund Rəsulzadə, Came məsciddə Bakı qazısı Hacı Molla Əbdürrəhim axund [Hadizadə] və Hacı Molla Cavad axund moizələr, nitqlər söyləyirlər. Bunlardan əlavə, Məşixət əzasından [Şeyxülislamlıq İdarəsi üzvlərindən] Hacı Şeyx Həsənağa dəxi hər gün bir məsciddə moizə və nitq söyləyirlər.

**General Andranikin həbsi**

Tiflis və Batum təriqi [yolu] ilə İstanbula, oradan da Parisə getmək istəyən Andranik İstanbulda Türk hökuməti tərəfindən tövqif edilərək [tutularaq] həbsə alınmışdır. Andraniki müsəlman qırğınlarında iştirak etməklə müttəhim edirlər.

**Türküstanda**

Bolşeviklərlə Aşqabad hökuməti müharibəsindən sonra, bolşeviklər Duşak istasyonunu işğalən Qəhqəhə mövqifinədək [stansiyasınadək] gəlmişlərmiş. Sonralar əks-hücum nəticəsində geri atılmağa məcbur olmuşlarmış. İyunun 12-də yeni müharibələr başlanmışsa da, nəticəsi məlum deyildir.

**Aşqabadda Azərbaycan nümayəndəsi**

Azərbaycan siyasi nümayəndəsi Aşqabada varid olub [çatıb], dəftərxanasını güşad ilə [açmaqla] fəaliyyətə başlamışdır.

**Tazəşəhərdə**

Petrovskdan – Cəbhədə müharibə edən dabravollara [könüllülərə] kömək olmaq üçün Tazəşəhərə 500 kazak varid olmuşdur. Yenidən iki vapor [gəmi] qoşunun da vürudu [gəlməsi] gözlənir.

**Hacı-Tərxanın halı**

Bakıda alınan məlumata görə, Dabravol dəstələri Hacı-Tərxanın 15 verst məsafəliyində olan Biryuçya Kosa adlı yeri işğal etmişlərdir. Hacı-Tərxanın halı təhdid altında olub yaxın günlərin ərzində süqut etməsi gözlənir.

**Türküstan əhvalı**

Türküstanda müntəşir [nəşr olunan] "Şura əxbarı" nam [adlı] qəzetənin bir nömrəsi əlimizə düşmüşdür. Qəzetənin birinci səhifəsindən başqa, üç digər səhifələrində edam edilənlərin isimləri mündəricdir [dərc olunub]. Aşqabad hökuməti ilə bolşeviklərin müharibəsində birincilərin məğlub olmasına səbəb verən bir əhval olur. Böylə ki, baş iştirak edən iki erməni alayı bolşeviklər tərəfinə keçir. Bolşeviklər həman iki polku tərk-silah etdikdən sonra həpsini qurşuna düzüb güllələmişlərdir. İştə, qəzetədə onların əsamisi [adları] yazılmışdır. Həman vəsiqənin altında da Türküstan fövqəladə komissarı Kazım bəy imza etmişdir.

**Astaradan**

Rus Astarasından lodka ilə qaçmış olan sərnişinlərdən birisi rəvayət edir ki, iyunun 8-də ətrafda olan kəndçilər şəhərə hücum etmişlərdir. Bunlar Muğan bolşevikləri kazarmasına daxil olub və orada kimsəni görmədiklərindən, orada olan bütün silahları yığışdırıb, sonra silahsız Qırmızı qoşunlara hücumla onların hamısını qırmışlardır. Şimdi şəhər kəndçilərin əlindədir.

**Lənkəranda**

Məhəlli [yerli] bolşeviklər Bakı Sentrodomunun [Mərkəzi Ev Komitəsinin] Lənkəranda olan nümayəndəsi Kuznetsovu və məhəlli, Denikin tərəfdarı məşhur tacir Kubinskini atmaqla edam etmişlərdir.

**Mütəəllimlər İttifaqında**

Bu gün iyun ayının 17-də, axşam saat 4-də, Bakı İkinci gimnaziya binasında Bakı İttifaqi-Mütəəlliminin [Tələbələr İttifaqının] təcili iclası çağırılıb. Üzvlərdən təvəqqe olunur gecikməsinlər.

**Yeni qəzetə**

Bakıda sükunət edən [yaşayan] Nikolay Vasilyeviç Lyubovyev qubernatora müraciətən rica etmişdir ki, Bakıda gündəlik "Vesti" adında bir qəzetə nəşrinə ona icazə verilsin.

**Quba Bələdiyyə İdarəsinə borc pul buraxılması**

Məclisi-Məbusan tərəfindən qərardad edildiyinə görə, Quba Bələdiyyə İdarəsinə 100 min manat miqdarında borc pul buraxılmışdır. Həmin məbləğin verilməsi üçün Daxiliyyə Nəzarəti qubernatora lazımi binagüzarlıq və sərəncamda bulunmuşdur.

**Qobu kəndi camaatının ricası**

Bakı qəzası Qobu kəndi camaatı qubernatora müraciətən rica etmişdir ki, hal-hazırda onların imkanı olmadığından, məzkur [adı çəkilən] kənddən istənilən vergi pulu üç ay müddətə təxir edilsin.

**"İttihad" firqəsinin Ramana şöbəsi**

Həziranın 16-da Rotşildin Ramana mədənində "İttihad" firqəsi tərəfindən əhvali-hazirəyə dair mühazirə oxunmuş və sonra şöbə açılmışdır. Şöbənin sədrliyinə Yarəli Tahirzadə, katibliyə isə Əbdülhəmid Cəfərzadə seçilmişlərdir.

**Bələdiyyə İdarəsində**

Bakı Bələdiyyə İdarəsi xidmətçiləri Məsai Nəzarətinə [Əmək Nazirliyinə] müraciətən rica etmişlər ki, dövləti müəssisələrin xidmətçilərinin məvacibləri artırıldığı və gün-gündən ərzaq və mühimmatın qiymətləri artdığı üçün onların da məvacibləri ümumi əsas üzrə artırılmalıdır. İttifaq rica etmişdir ki, məsələ Bələdiyyə Məclisinin yaxın iclasına idxal edilməklə tez baxılması üçün tədabir ittixaz edilsin [tədbirlər görülsün]. Məsai naziri təliqəni [rəsmi məktubu] Fabrika baş müfəttişinə irsalən [göndərib], tezliklə əncam verilməsini rica etmişdir.

**"Səadət" mədrəsəsi müəllimləri**

"Səadət" mədrəsəsi müəllimləri Məsai Nəzarətinə müraciətən məlum etmişdir ki, dörd aydan ziyadədir ki, məvacib almayırlar. Halbuki, müəllimlər Məşi-xətə [Şeyxülislamlıq İdarəsinə] və Maarif Nəzarətinə müraciət etmişdirlərsə də, cavab alammamışlardır. Məsai Naziri Fabrika baş müfəttişindən təcili surətdə müəllimlərin məvacibləri verilməsi üçün tədabir ittixazını [tədbirlər görülməsini] rica etmişdir.

## AZƏRBAYCANDA

**Ağdaşda milli bayram**

Gənc Azərbaycan hökumətinin səneyi-dövriyyəsi [ildönümü] münasibətilə 28 May günü Ağdaşda qayət parlaq keçmişdir.

Bütün bazar milli Azərbaycan bayraqları ilə bəzənmiş, hər tərəf xalça, gəbə və sairə ilə fərş edilmişdi [döşənmişdi]. Məktəb uşaqları milli Azərbaycan şərqiləri ilə şəhərin hər tərəfini gəzirdi. Böyük-kiçik bir-birinə qarışmış, hər kəsdə bir hərəkət, bir məmnuniyyət, hasili başəşəti-üzma [böyük şadlıq] içində keçirdiyi bu gün Ağdaş şəhərində qayət parlaq və təntənəli keçmişdir. Möhtərəm camaatımızın göstərdiyi xariqüladə məmnuniyyəti istiqlaliyyətə qarşı olan hüsn-rəğbəti nə dərəcələrdə olduğunu göstərirdi. Hələ cümə məscidi olan Hacı Osman məscidi ilə şiə qardaşlarımızın məscid minarələri çalışqan, fəal ziyalılarımızdan olan Məhəmmədrza əfəndi Əbdizadə cənabları tərəfindən əlvan kağız zəncirlə bir-birinə rəbt edilmiş [bağlanmış], camelər fənərlərlə donanmışdı.

Saat 10 radələrində bazar bütün-bütünə qapanaraq möhtərəm camaat məktəb çocuqları ilə cameyi-şərifin həvalisində [mübarək camenin ətrafında] toplandılar. Orada qazı İsa əfəndi cənabları dua oxuyaraq bir nitq irad etmişdir [nitq söyləmişdir].

Əbülqasım əfəndi dəxi qayət bəliğ [bəlağətli] və təsirli bir lisanla nitqə başlayaraq istiqlaliyyətimizi nə tövr mühafizə edəcəyimizi bir çox ayət və hədislərlə izah edərək, hal-hazırkı qulluqçuların mərhəmətsizcəsinə millətə nasıl soxulduqlarını və buna milli tərbiyəmizin olmadığını səbəb göstərmişdir.

Əbülqasım əfəndidən sonra, axund Molla Məhəmməd dəxi dua oxumuş, daha sonra gənclərimizdən Abbasəli bəy Məhəmmədov cənabları irəliləyərək millətimizi qorxunc fırtınalar, təlatümlər içində qalan gəmi təknəsinə bənzədərək, baha olan və hələ qurumamış olan türk qanları sayəsində aldığımız bu istiqlaliyyətimizi qayət mərdanə mühafizə etməli olduğumuzu bəyan edərək məclisə xitam vermişdir.

Buradan əvvəlcə hazırlanmış olduğu xanəndə və sazəndə dəstəsi başda olduğu halda bütün camaat bağa gəlib və orada möhtərəm gənc müəllimlərimizdən olan fəal İbrahimxəlil əfəndinin uşaqlara verdiyi gimnastik təlimlərinə tamaşa edərək axşama qədər orada əylənmişdir və Ağdaş gəncləri tərəfindən məktəb uşaqlarına bir qoyun kəsərək ənam edilmiş və çay ziyafəti verilmişdir.

*Səyyah: Nəsrəddin*

## GÜRCÜSTANDA

Tiflisdə alınan məlumata görə, bolşeviklər hərbi nöqteyi-nəzərlə böyük əhəmiyyəti olan Kupyansk nöqtəsini tərk etmişlərdir.

**Keşişin həbsi**

İyunun 12-də, səhər saat 9-da öz otağında Tiflis Aleksandro-Nevski kəlisanın keşişi Vladimir Yeqorov həbs edilmişdir.

**Batumda**

Yaxın bir zamanda Batuma 2 alay dabravol qoşunu varid olacaqdır [gələcəkdir]. Hal-hazırda Batum Dabravol ştabının [Könüllü qərargahının] başında Batumun sabiq qubernatoru general [Romanko-]Romanovski durur.

**Novorossiyskdə**

Novorossiyskdən gələnlər xəbər verirlər ki, Odessa, Yalta və Sevastopol təxliyə edildikdə, Novorossiyskə gəlmiş olan paroxodlar iskələyə yerləşmişlərdir. Sərnişinlər azdır. Çünki onlar dabravolların ümumi səfərbərliyindən ehtiyat edirlər. Zira dabravollar nə xəstəyə, nə də qocaya baxmayırlar. Novorossiyskin zahir həyatı asudədir. Fəqət bu asudəlik cəza tədbirləri ilə bərpa edilir.

**Qəzetənin qapanması**

İyun ayının 13-də Gürcüstan hökuməti binagüzarlığı [sərəncamı] ilə "Znamya sosializma" qəzetəsi qapanmışdır.

**Tiflisdə**

- İngiltərə Komandanlığının əmrinə görə, Tiflisdə olan Almaniya xəstəxanasının növbəti həkimi həbs edilmişdir. Xəstəxanadan əslihə [silah] tapılmışdır.
- Qəti surətdə aşkar olmuşdur ki, İngiltərə əsgərləri uzun müddət Zaqafqaziyada qalacaqlardır.
- Batum və Novorossiysk limanlarına ingilislər, amerikalılar və fransızlar tərəfindən Gürcüstanla Zaqafqaziya üçün 100 milyon manat qiymətində mal gətirilmişdir. Naməlum səbəblərə görə bu mallar hələ kənara çıxarılmayır.

## ERMƏNİSTANDA

**"Aref" qəzetəsi yazır:**

Qars şəhəri kifayət qədərdə əhali ilə dolmuşdur. Türklərin zamanında müsəlmanların əllərində olan ticarət indi ermənilərin əlinə keçmişdir. Ətraf kəndlərin əhalisi öz yerlərinə qayıdırlar. Onlara səpmək üçün toxum verilirsə də, toxum səpən azdır. Çünki azuqə kasad olduğundan toxumluq verilən taxılı yeyirlər. Hər başa 30 girvənkə taxıl buraxılır. Bir həftədir ki, əhaliyə çörək verilməyir. O cəhətə çörəyin çox hissəsi palıddır. Çörəyin girvənkəsi 6-8 manata satılır. Gün-gündən palıdın qiyməti artır.

Şəhərdə olan müsəlmanların ədədi azalır. Onlardan burada indi çox az qalıbdır. Müsəlmanlar tərəfindən zəbt edilmiş erməni evləri sahiblərinə qaytarılır. Müsəlmanlarla ermənilərin münasibatı yaxşıdır. Müsəlmanlar şəhərdə asudə gəzirlər. Şəhərdə ruznamələr [qəzetlər] alınmadığından, müxtəlif şayiələr dövran edir. Ziyalı qüvvələr azalmaqdadır. Qarsda olan ingilis qoşunları gedib, ağır qala toplarını özləri ilə aparırlar. Burada bir neçə ingilis bölüyü qalacaqdır. Ermənistan qoşunu Sarıqamışdadır. Ümumən halət, xüsusən şəhərin abadanlıq işi pək fənadır.

Məhəlli [yerli] müsəlmanların ruhani rəisi qazı şəhərdən və ətraf kəndlərdən külli miqdarda müsəlman toplayıb onlara nəsihət və vəz etdikdən sonra şəhərə taxıl və qeyri məkulat [ərzaq] gətirib münasib qiymətə satmağı təklif etmişdir. Əhali qazının nəsihətinə əməl etməyi söz vermişlərdir.

* * *

Suriyaya nəfy [sürgün] edilmiş ermənilər son binagüzarlığa [sərəncama] müvafiq Hələbə cəm olub gündə 1800 adamdan mürəkkəb bir dəstə öz evlərinə göndərilirlər.

**Ermənistan Parlamanında**

İyunun 5-də bir aylıq fasilədən sonra 12 nəfər Türkiyə ermənilərinin iştirakı ilə Ermənistan Parlamanının iclası vaqe olmuşdur. Bu dəfə üstünlük Daşnak firqəsinə qalmış kimi olmuşdur. Bu əhvaldan narazı qalan sosialist Kadet firqəsi [Konstitusion-Demokratik Partiya] üzvləri nümayişkaranə bir surətdə Parlamanı tərk etmişlərdir. Kadet firqəsi feilən Parlaman intixabatını [seçkilərini] boykot eyləmişdir. Parlaman, hökumət və əhali bu işə asudə nəzərlə baxır. Hökumət rəisi [və] üzvü [Aleksandr İvanoviç] Xatisov iki saat yarımlıq nitqində daxili və xarici siyasət barəsində müfəssəl bəyanat vermişdir. Parlaman üzvləri Rəisi-vükəlanın [Baş nazirin] nitqini tam bir diqqətlə dinləmişlərdir. Adi həyat və məişət xələldar edilməmişdir [pozulmamışdır].

Doktor **M. M. Kərimov** göz naxoşlarını və diş həkimi **A. Əmirov** naxoşları qəbul edirlər saat 4-dən 7-yədək. Ünvan: Suraxanski və Spasski küçələrin [küncündə] 102 nömrəli evdə. Telefon nömrə 40-91.

*8754*

**Diş həkimi**
**R. S. Fuks**

Qəbul edir: 9-dan 10-a dək; 5-dən 7-yə dək. Ünvan: Mariinski, nömrə 18. Ferdinandın aptekası ilə bərabər. Telefon nömrə 34-15.

*10202*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçə, nömrə 6.

*8798*

**Diş həkimi**
**S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*8756*

**Bəhri-Xəzər İstehlak Cəmiyyəti**
**"Kooperatsiya" müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan

Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov

Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld

Cərrahiyyə 9-11 Sander

Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron

Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]

Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik

Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan

Qulaq və boğaz ağrısı 12-2 B. K. Finkelşteyn;

Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin

Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

Moskvada təcrübə görmüş diş həkimi **K. S. Kolandskaya-Sanuxat** kabinə açmışdır. Müalicə edir, dişləri doldurur, süni dişlər qayırır və dişləri ağrısız çəkir. Qiymət münasibdir. Qəbul edir: Hər gün səhər saat 9-2-yədək; axşam saat 5-7-yədək. Adres: Bazarnı və Suraxanski küçələrin küncündə, nömrə 112.

*8795*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri və sifilis naxoşluqlarını qəbul edir. 606 və 914 müalicəsi. Naxoşları hər gün qəbul edir saat 4-dən 7-yədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə.

*8776*

**Doktor M. B. Şaxnazarov**

Dəri və əmrazı-cərrahiyyə [cərrahi xəstəliklər] naxoşluqlarını qəbul etməyə başlamışdır. "606" və "914" müalicəsi. Qəbul edir: səhər saat 9-dan 12-yədək; axşam saat 4-dən 7-yədək. Ünvan: Armyanski küçə nömrə 3. Qubernskinin küncündə. Telefon nömrə 45-28.

*8748*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqlarını qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28. Və 93.

*8765*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Doktor**
**Ağahüseyn Kazımov**

Gəlib naxoşları yenə qəbul etməyə başlayıbdır. Əmrazi-daxiliyyə [daxili xəstəliklər]. Qəbul edir səhər saat 10-dan 11-ədək; axşam saat 5-dən 7-yədək. Ünvan: Parapet, Şəfi İbrahimovun evində 3-cü mərtəbə. Telefon: 86-27.

*8057*

**Təzə alınmış**

Amerikanın südü satılır külli miqdarda İ. V. Denisovun bankir kantorasında (Olqinski və Nikolayevski küçələrin küncündə, telefon nömrə 37-75). Az miqdarda isə Qafqazski aptekarski mağazada, Baryatinski, nömrə 6.

*10234*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Teleqraf xəbərləri***

"Morninq post" [The Morning Post]: Londonda 1772-1937-ci illərdə çap olunan gündəlik qəzet.

***Sülh ətrafında***

"spartaklar": Almaniyada fəaliyyət göstərmiş marksist təşkilat olan Spartak İttifaqının üzvləri.

***Qəzetələrdən***

"petlyuralılar": Ukrayna Xalq Respublikası Direktoriyasının rəhbərlərindən olan Simon Petlyuranın tərəfdarları.

"Odessa-Zastava": Odessa dəmiryolunun əsas stansiyalarından biri.

"Qriqoryev süvariləri": Ukraynanın hərbi xadimi Nikifor Qriqoryevin qoşunları nəzərdə tutulur.

"Qəhqəhə" (yaxud Qəhqə): Türkmənistanın cənubunda yerləşən Kaka şəhəri nəzərdə tutulur.

***Gürcü mətbuatı***

"riza və inqiyad göstərməyir": qəzetdə "göstərməyir" yerinə "göstərilir" getmişdir.

***Bakı xəbərləri***

"Petrovsk": Dağıstanda, indiki Mahaçqala şəhərinin köhnə adı.

"Tazəşəhər": Krasnovodsk (indiki Türkmənbaşı) şəhərinin bəzi mənbələrdəki adı.

"Mərkəzi Ev Komitəsi" (Sentrodom): Bakının ehtiyaclarının təmin edilməsi məqsədi ilə şəhər əhalisini polis dairələrinin (sahələrinin) sərhədləri daxilində qurulan ev komitələrində təşkilatlandıran və bu komitələrin vahid rəhbər orqanı olan qurum. Quruluş yığıncağı 1917-ci ilin dekabr ayının axırlarında keçirilmişdi.





# Mədəniyyət





● "Şəhərsalma və Memarlıq İli" – 2026

# Bakının memarlıq abidələrində izi qalan polşalı memar

**Şəninə şeirlər yazılmış, nəğmələr bəstələnmiş, filmlər çəkilmiş, kitablar həsr edilmiş qədim Bakının çox da uzaq olmayan tarixi və taleyi ilə maraqlandıqca, küçə və prospektlərini gəzdikcə, düşünürsən ki, bu gözəl şəhəri memarlıq abidəsi hesab edilən binalarsız təsəvvür etmək mümkün deyil. Nadir arxitektura incilərini özündə ehtiva edən tikililərlə "ünsiyyət yaratdıqca" istər-istəməz onların müəllifləri olan memarları da hörmətlə xatırlayırsan. Araşdırmalardan məlum olur ki, belə memarlardan biri də Bakı var olduqca adı və xatirəsi ehtiramla anılacaq polşaəsilli İosif Qoslavskidir.**



İosif Qoslavski 1865-ci ildə Varşava Qubernatorluğunda zadəgan ailəsində doğulub. Orta məktəbi bitirdikdən sonra İmperator Rəssamlıq Akademiyasına daxil olub. Təhsil aldığı müddətdə böyük istedad və çalışqanlığı ilə yanaşı, qarşısına qoyduğu məqsədə çatmaq bacarığını da nümayiş etdirib. O, 1890-cı ilin mayında 10-cu dərəcəli vəzifəli şəxs səlahiyyətləri ilə dövlət mühəndisi olaraq akademiyanı bitirib. Sonra akademik R.R.Marfeldin təqdimatı əsasında 1891-ci ildə çar onu əhali arasında "qızıl kilsə" deyilən Aleksandr Nevski kilsəsinin tikintisi üçün Bakıya göndərib. Gənc Qoslavskinin vəzifəsi Marfeldin eskizləri əsasında işçi çertyojları çəkmək, bütün materialları sadalamaq və xərclər smetasını hazırlamaq olub. Onun gəlişi ilə 1888-ci ildə çar III Aleksandr tərəfindən təməli qoyulmuş kilsənin tikintisində ləngimələr ardan qaldırılıb. Bu əzmkarlıq gənc memara köməkçidən çox tikintinin ikinci müəllifi hörmətini qazandırıb. 1898-ci ildə tikintisi başa çatan kilsə dindarların ixtiyarına verilib. İllərlə dini ayinlərin icra olunduğu, pravoslav etiqadlı insanların ehtiramla üz tutduqları bu tarixi memarlıq nümunəsi 1936-cı ildə işğalçı bolşeviklər tərəfindən tamamilə dağıdılıb yox edilmişdir.

İşə başladığı ilk gündən əzmkarlığı və qabiliyyəti ilə seçilən, rəhbərliyin böyük etimadını qazanan İosif Qoslavski 1892-ci ildə 27 yaşında Bakının baş memarı vəzifəsinə irəli çəkilir. Bundan sonra şəhərin siması tamamilə dəyişməyə başlayır...

12 il bu vəzifədə çalışan İ.Qoslavski paytaxt Bakıda bu gün də mövcud olan bir çox gözəl tikililərin qurucu-müəllifidir. O, Bakının ən mühüm ictimai binalarının gözəgəlimli layihələndirilməsində əlindən gələni edib. İstedadlı və yenilikçi olmasına görə milyonçular arsında ona ilk sifariş verən neft maqnatı və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev olmuşdur. O, 1893-cü ildə şəhərin mərkəzi küçələrində 3 ikimərtəbəli yaşayış binasının, H.Z.Tağıyevin sarayının və Mərdəkandakı bağının layihələrini hazırlamışdır. 1894-cü ildə 2 üçmərtəbəli yaşayış binası ilə yanaşı, Tağıyevin bağçılıq məktəbini təhvil vermişdir. 1895-ci ildə 5, 1896-1899-cu illərdə isə 10 layihəyə imza atmışdır. Qoslavskinin layihələri əsasında Z.Tağıyevin tikdirdiyi Müsəlman Qızlar Məktəbinin binası (indi Əlyazmalar İnstitutu), Tağıyev Sarayı (indi Azərbaycan Tarixi Muzeyi), Bakı şəhər Dumasının (indiki Bakı Şəhər İcra Hakimiyyəti) binası və bir çox başqa tikililər bu gün də möhtəşəmliyi ilə göz oxşayır. Şəhərimizdə turist gəzintisində olan əcnəbilər, eləcə də ölkəmizin bölgələrindən Bakıya yolu düşənlər bu tikililərə tamaşa etməkdən, onların qarşısında şəkil çəkdirməkdən məmnun olurlar.

Klassik zövq Qoslavski yaradıcılığının ana xəttini təşkil edirdi. Özünün bütün işlərində Qoslavski estetik imkanlarını göstərməyə çalışırdı. Bu zaman memar onun qanunauyğunluqlarını özü bildiyi kimi, yerli şəraitin milli memarlıq abidələrinin tələblərini nəzərə alaraq dəyişirdi. Nəticədə Avropa və Şərq memarlığının təkrarsız sintezinin alınmasına nail olurdu.

Gördüyü dəyərli işlərə görə onu dövrü mətbuatda italiyalı heykəltaraş və memar Karlo Bartolomeo Rastrelli adlandırmışlar. Tədqiqatçıların fikrincə, o illərdə tarixinin ən böyük tikinti bumunun yaşandığı şəhərdə memarlıq nizamından söz düşəndə yalnız Qoslavski dövründən danışmaq olar. Arxiv materiallarından məlum olur ki, Sankt-Peterburq İmperator Memarlar Cəmiyyətinin orqanının "Zodczij" ("İnşaatçı") saylarından birində "Qoslavski tikintiyə elə bədii elementlər gətirir ki, hər bir yeni tikinti onu daha böyük planların həyata keçirilməsinə yönəldir".

Başqa bir müəllif isə yazır: "Qoslavski o vaxtdan böyük layihələr və tikintilərlə yaddaqalan Bakıda memarlığı canlandırdı".

İosif Qoslavski vəzifəsindən istifadə edərək Bakının memarlığı, xüsusən də burada istifadə olunan daş çeşidləri ilə yaxından tanış olub. Onun istedadı və biliyi nəticəsində Bakı üçün ən böyük və ən vacib binalar böyük sürətlə tikilib. O, 1893-cü ildən 1900-cü ilə qədər yeddi il ərzində istənilən Avropa paytaxtının fəxri ola biləcək Bakı üçün əsas sayılan 12 binanın layihələndirilməsi və ucaldılması ilə məşğul olub.

Çox təəssüf ki, Bakını ürəkdən sevən böyük memar İosif Qoslavskinin səhhətində problemlər yaranır. 1891-ci ildə həkimlərin müayinəsi zamanı onda vərəm xəstəliyi aşkarlanır, o vaxtlar müalicəsi indiki qədər asan olmayan bu xəstəlik get-gedə ona daha çox əziyyət verməyə başlayır və bu da ağır iş sayəsində daha dözülməz təsirini göstərir. 1902-ci ildə Bakı Şəhər Sovetinin binasının (indiki Bakı Şəhər İcra Hakimiyyətinin binası) tikintisi başa çatan kimi, o, səhhətinə görə tutduğu vəzifədən azad olunmasını xahiş edir. Qoslavski işdən azad edilir, yerinə isə polyak həmkarı, memar Kazimir Skureviç təyin edilir.

İosif Qoslavski 1904-cü il yanvarın 15-də, 40 yaşında gözlərini həyata əbədi yumur. Məşhur memar köhnə Bakı qəbiristanlığında (Çəmbərəkənd qəbiristanlığı) dəfn edilir. Təəssüf ki, 1930-cu ilin sonlarında qəbiristanlıq sovet hakimiyyəti tərəfindən bağlanır və bir neçə il ərzində tamamilə dağıdılır. Bu səbəbdən də onun qəbrinin yeri naməlum qalır.

Ömrünü Bakının inkişafına həsr edən İosif Qoslavski 122 il öncə əbədi olaraq həyatdan ayrılsa da, ruhən qədirbilən xalqımızın qəlbindədir. Dövlətimiz onun tarixi əməyini yüksək qiymətləndirərək adını əbədiləşdirib. Prezident İlham Əliyevin 2006-cı il tarixli sərəncamına əsasən, zamanında Bakı şəhərinin inkişafında böyük xidmətləri olan polşalı memar və mühəndis İosif Qoslavskinin xatirəsini əbədiləşdirmək məqsədilə onun yaşadığı binaya (Mirzə İbrahimov küçəsi, 11) xatirə lövhəsi vurulub.




Xatırladaq ki, 31 may 2019-cu ildə Prezident İlham Əliyev və Polşa Respublikasının sabiq prezidenti Anjey Dudanın iştirakı ilə Bakıda Polşa memarlarının xatirəsinə həsr edilən lövhələrin açılış mərasimi olub. Polşalı memarların adlarını əbədiləşdirmək məqsədilə Bakının tarixi məhəlləsində yerləşən küçələrdən birinə "Polşa memarları" adı verilib. Buradakı binaların birində polşalı memarlar - İosif Qoslavski, Kazimir Skureviç, İosif Ploşko və Yevgeni Skibinskinin adları həkk olunmuş xatirə lövhəsi və onların memarı olduqları bir neçə binanın daşdan yonulmuş şəkilləri vurulub.

Dövlət adamları, ictimaiyyət nümayəndələri, xüsusən də memarlar, bu sənətə maraqlı gənclər tarixi günlərdə və bayramlarda bu ünvana gəlir, Bakının yerli memarlıq abidələri hesab edilən binaların tikintisində ideyaları və əl işləri yaşayan İosif Qoslavskini, habelə onun həmkarlarını ehtiramla xatırlayır, ruhlarına dualar oxuyur və xatirə lövhəsi önünə gül dəstələri qoyurlar.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

● Elm xadimləri

# Daşlara həkk edilmiş salnamələrin tədqiqatçısı

**Görkəmli alim, tarix elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) müxbir üzvü Məşədixanım Nemət 1924-cü il yanvar ayının 5-də Bakının II Zabrat kəndində dünyaya göz açıb. Uşaq vaxtlarında taleyi üzünə gülməyib. Valideynlərini itirən Məşədixanım böyük çətinliklər çəkməli olub.**



Ömrünün o ağır və keşməkeşli illəri xatirələrində belə iz salmışdı: "Valideynlərimi erkən itirmişəm, həyatın çox çətinliklərindən keçmişəm. 1936-cı ildə kolxozlar yaradılarkən atamın əmlakını alıb kolxoza verdilər. Atam bu haqsızlığa dözməyərək vəfat etdi. Buna qədər anam da dünyasını dəyişmişdi. Böyük qardaşımın himayəsində böyüdük. Çox ağır dövr idi. Çətinliklərə baxmayaraq, məktəbdən qalmırdım. Qardaşım hər səhər məni məktəbə aparar, özü isə zavoda işə gedərdi. 8 nəfərlik ailəni qardaşım tək saxlayırdı". Ancaq həyat yenə də onu çox ağır sınağa çəkib. Dünyanı lərzəyə salan müharibənin fəlakəti onları yasa batırıb. Otuz bir yaşlı qardaşı müharibəyə gedib. Cəbhədə həlak olub. Ailənin yükünü Məşədixanım öz zərif çiyinlərinə götürməli olub.

Həmin illərdə çox ağrı-acılar çəkməli olublar. Ancaq gördüyü məhrumiyyətlər Məşədixanımı ruhdan sala bilməyib. Təhsildən uzaqlaşmayıb. Böyük ümidlə, tükənməz arzularla gələcəyə üz tutub.

O, 1941-ci ildə orta məktəbi başa vurub. Yolunda maneəyə çevrilmiş çətinlikləri aşaraq ali təhsil almağa səy göstərib. Nəhayət, istəyinə çatıb. Azərbaycan Dövlət Universitetinin (indiki BDU-nin) Filologiya fakültəsinə daxil olub. Məşədixanım Nemət müsahibələrinin birində həmin günləri belə xatırlayıb: "1943-cü ildə Bakı Dövlət Universitetinin Filologiya fakültəsinə daxil oldum. Sonra yeni açılan Şərqşünaslıq fakültəsindən xoşum gəldiyi üçün müəllimimiz Mir Cəlal Paşayevdən xahiş etdim ki, məni həmin fakültəyə keçirsin. Həm oxuyurdum, həm də işləyirdim. İlk iş yerim tikiş fabriki olub. O vaxt artel deyərdilər. Tələbəlik illərimdə isə müəllimlərimin köməyi ilə Azərbaycan Radiosunun fars dili şöbəsində tərcüməçi kimi çalışmağa başladım. O vaxt makinada da yazırdım. Müharibədən sonra vəziyyətimiz yaxşılaşdı".

Məşədixanım 1948-ci ildə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsini bitirib. Daim oxumağa, yeni biliklər öyrənməyə meyilli olan gənc həyatını elmə həsr etmək qərarına gəlib. Bu məqsədlə Azərbaycan SSR Elmlər Akademiyasının (EA) Tarix İnstitutunun aspiranturasına daxil olub. 1948-1953-cü illərdə həmin institutun aspirantı olub və elm yolunda ilk, qətiyyətli addımlarını atıb.

Məşədixanım Nemət 1954-cü ildə namizədlik, 1968-də isə doktorluq dissertasiyasını müdafiə edib. 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) müxbir üzvü seçilib.

Azərbaycan Respublikası Prezidentinin 4 mart 2009-cu il tarixli sərəncamı ilə Məşədixanım Nemət Azərbaycanda epiqrafik irsin tədqiqi sahəsində xüsusi xidmətlərinə görə, "Şöhrət" ordeninə layiq görülüb.

O, elmi fəaliyyəti boyunca çox çətinliklərdən keçməli olub. Çünki asan yol seçməyib, tarixin ən çətin, ən mürəkkəb elm sahələrindən biri - epiqrafika üzrə nəinki ölkəmizdə, bütün dünyada nadir mütəxəssislərdən biri olub. Görkəmli alim mənalı həyatını bu sahəyə həsr edib.

Bu sahədə çalışan tədqiqatçının "elmi laboratoriyası" rahat kabinetlər deyil, açıq səma altındakı tarixi məkanlardır. Həmin məkanlara çatmaq, orada bəzən günlərlə, aylarla tədqiqat aparmaq üçün o, çox vaxt təhlükəli, uçurumlu dağ cığırlarından keçib. Ot basmış, ilanlı Orta əsr qəbiristanlıqlarında, qızmar günəş altında saatlarla ara vermədən çalışıb. Məşədixanım Nemət heç kəsin oxuya bilmədiyi, əsrlərin şahidi olan daşlarla "dil tapıb".

Daş kitabələrimizi oxumaq üçün epiqraf tədqiqatçıdan yalnız ərəb və fars dillərini mükəmməl bilmək tələb olunmur. Eyni zamanda kitabələrin aid olduğu müxtəlif elm sahələrini, onların problemlərini dərindən bilməlisən ki, yüzlərlə məzar daşı arasından elmi baxımdan dəyərli olanları seçməyi bacarasan. Belə bir mütəxəssisi heç bir ali məktəb yetişdirmir - bu sahənin adamları fitri istedad və böyük fədakarlıq sayəsində formalaşırlar. Elə bu səbəbdəndir ki, dünyada bu sahə üzrə alimlərin sayı çox azdır.

Məşədixanım Nemət altmış illik elmi fəaliyyəti boyunca Azərbaycanın bütün tarixi ərazilərini dolaşaraq ərəb qrafikasının müxtəlif xətlərlə yazılmış ərəb, fars və türk dillərində kitabələri oxuyub, daşlara həkk edilmiş tarixi salnamələri məsuliyyətlə araşdırıb. Onun tədqiqatları nəticəsində ölkənin iqtisadi-siyasi, sosial-mədəni tarixi, memarlıq və sənətşünaslıq, filologiya, islam fəlsəfəsi və sufizm, toponimika, etnoqenez kimi sahələr üzrə çoxlu sayda son dərəcə dəqiq tarixi məlumatlar əldə olunub.

Yorulmaz tədqiqatçı Məşədixanım Nemət uzun illər Ermənistanın işğalında qalan torpaqlarımızın epiqrafik irsinin Azərbaycan xalqına məxsusluğunu danılmaz faktlarla təsdiqləyib. Görkəmli alimin araşdırmaları nəticəsində bir sıra memarlıq abidələrinin təyinatı və tarixi dəqiqləşdirilib.

Tədqiqatçı ümumilikdə 2500-dən artıq epiqrafik abidəni toplayaraq oxumuş, onların tarixi əhəmiyyətini müəyyənləşdirmişdir. Bu zəngin elmi fəaliyyətin nəticəsi olaraq Məşədixanım Nemət 12-dən çox monoqrafiyanın, 200-dən artıq elmi məqalənin, o cümlədən 6 cildlik "Azərbaycanın epiqrafik abidələrinin toplusu" fundamental nəşrinin müəllifidir.

Məşədixanım Nemət epiqrafikanı Azərbaycanda ayrıca elmi fənn kimi formalaşdırıb. Onun fəaliyyəti yalnız kitabələrin aşkar edilməsi, oxunması və nəşri ilə məhdudlaşmayıb. Alimin uzun illik tədqiqatları nəticəsində əldə edilən epiqrafik materiallar Azərbaycan tarixinin bir çox konseptual problemlərinin araşdırılmasında mühüm mənbə rolunu oynayır.

Məşədixanım Nemət 2016-cı il dekabrın 27-də 92 yaşında dünyasını dəyişib. Zabrat qəbiristanlığında dəfn olunub.

Ömrünü xalqının tarixi yaddaşını qorumağa həsr etmiş görkəmli alimin özündən sonra da əsərləri tarix elmimizə əvəzsiz xidmət edir. Daşlara həkk olunmuş tariximizi oxumuş Məşədixanım Nemətin adı Azərbaycan elminin yaddaşına əbədi həkk olunub.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Akademik Yusif Məmmədəliyev haqqında biblioqrafik göstərici çapdan çıxıb

**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanasının (MEK) tərtibatında dünyaşöhrətli alim, Azərbaycanın görkəmli ictimai-siyasi xadimi, akademik Yusif Məmmədəliyevin həyat və elmi fəaliyyətinə həsr olunmuş biblioqrafik göstərici nəşr edilib.**




MEK-dən bildirilib ki, alimin anadan olmasının 120 illik yubileyinə həsr olunan göstəricidə onun həyat və elmi fəaliyyətinin əsas mərhələləri, əsərlərinin biblioqrafiyası - kitablar, məqalələr və məruzələr, eləcə də alim haqqında yazılmış mənbələr əksini tapıb. Nəşrə Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin alimin 90 və 100 illik yubileyləri ilə bağlı sərəncamları, AMEA Rəyasət Heyətinin akademikin 120 illiyi münasibətilə qəbul etdiyi qərar daxil edilib.

Vəsaitin ön sözünün müəllifi "Dünya elminə böyük töhfələr vermiş alim - Yusif Məmmədəliyev" adlı məqaləsi ilə akademik Vaqif Abbasov, elmi redaktoru MEK-in direktoru texnika elmləri doktoru Hüseyn Hüseynov, redaktorları Biblioqrafiya şöbəsinin müdiri filologiya üzrə fəlsəfə doktoru Aytən Əliyeva və Elmi biblioqrafiya sektorunun rəhbəri Nərgiz Novruzova, tərtibçiləri isə şöbənin əməkdaşları baş biblioqraflar Afət Məmmədova və Natəvan Rəhimovadır.

Neft-kimya sahəsində çalışan alim və mütəxəssislər, ali məktəb tələbələri, eləcə də geniş oxucu auditoriyası üçün nəzərdə tutulan biblioqrafik göstəricinin elektron versiyası ilə kitabxananın saytındakı elektron kitabxana bölməsində tanış olmaq mümkündür.

# Xalq şairi Məmməd Arazın xatirəsinə ithaf olunan ədəbi-bədii tədbir təşkil edilib

**Bakıda Xalq şairi Məmməd Arazın xatirəsinə ithaf olunan ədəbi-bədii tədbir təşkil edilib.**

Tanınmış elm və mədəniyyət xadimlərinin iştirak etdiyi tədbirdə şairin mənalı ömür yolundan və zəngin yaradıcılığından söhbət açılıb.

Gecədə akademiklər Nizami Cəfərov və Muxtar İmanov, ədəbiyyatşünas Əsəd Cahangir, Əməkdar incəsənət xadimi Nazim Kazımov, Xalq şairi Sabir Rüstəmxanlı, tədqiqatçı-alim Qardaşxan Əzizxanlı, filoloq və şair Adilə Nəzər Məmməd Araz poeziyasının məna qatları, bədii-estetik dəyəri və milli ədəbiyyatımızdakı mövqeyi haqqında fikirlərini bölüşüblər.

Tədbirin musiqili hissəsində Xalq artisti Niyaməddin Musayev, Əməkdar artist Nuriyyə Hüseynova, "Muğam" televiziya müsabiqəsinin qalibi Güllü Muradova, aşıq Ramin Qarayev, Çilənay Hüseynova, Mehranə Vəliqızı və Sərxan Bünyadzadə şairin sözlərinə yazılmış əsərləri ifa edərək gecəyə bədii ovqat qatıblar.



Qiraət ustalarının səsləndirdiyi şeir parçaları isə tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb.

Tədbirdə Məmməd Arazın Naxçıvandakı ev-muzeyinə aid videomateriallar nümayiş olunub, muzeyin direktoru Əzizə Süleymanova çıxış edərək şairin xatirəsinin qorunub yaşadılması istiqamətində görülən işlər barədə məlumat verib.

Tədbirdə ailə adından çıxış edən yazıçı Aqil Abbas xatirə gecəsinin ərsəyə gəlməsinə töhfə verən hər kəsə təşəkkürünü ifadə edib. Sonda qonaqlara Məmməd Arazın dörd clddən ibarət kitabları təqdim olunub. Ədəbi-bədii gecə şairin öz ifasında səslənən "Salamat qal" şeiri ilə başa çatıb.

# Dövlət Film Fonduna nadir videoxronika materialları daxil olub

**Azərbaycan Dövlət Film Fonduna bir sıra bədii filmlərin çəkiliş məqamlarını əks etdirən nadir videoxronika materialları daxil olub.**



Bu barədə AZƏRTAC-a Fondun direktoru, Əməkdar incəsənət xadimi Cəmil Quliyev məlumat verib.

Onun sözlərinə görə, çəkiliş materialları Azərbaycan Kaskadyorlar Assosiasiyasının sədri, Əməkdar mədəniyyət işçisi Əli Məmmədov tərəfindən təhvil verilib. Uzun illər ərzində bir sıra filmlərdə kaskadyorluq və trüklərin quruluşu işini həyata keçirən kino xadimi, eyni zamanda şəxsi təşəbbüsü ilə bu prosesin çəkilişini aparıb.

"Təhvil verilən materiallar Azərbaycan Dövlət Film Fondunda rəqəmsallaşdırılıb, videoçarx şəklində hazırlanıb. Arxiv görüntülərində "Kənar adamlar", "Cavad xan", "Qarabağdır Azərbaycan", "Sahə", "Əlavə təsir" və "Dolu" filmlərinin çəkiliş prosesi əks olunub", - deyə Cəmil Quliyev bildirib.

15 Yanvar Beynəlxalq Vikipediya Günüdür

# Rəqəmsal ensiklopediya

**Müasir dövrdə informasiyaya çıxış imkanları genişləndikcə etibarlı və açıq mənbələrin əhəmiyyəti daha da artır. Bu baxımdan Vikipediya onlayn ensiklopediyası qlobal informasiya məkanında xüsusi yer tutur. Könüllülük prinsipi əsasında formalaşan bu platforma təkcə bilik paylaşımı deyil, eyni zamanda tarixi həqiqətlərin, elmi məlumatların və milli dəyərlərin dünyaya çatdırılması baxımından mühüm vasitəyə çevrilib.**




Vikipediyanın tarixi 1999-cu ilə gedib çıxır. Layihənin baş redaktoru, ABŞ-nin Ohayo Universitetinin fəlsəfə doktoru Larri Senger və layihəni maliyyələşdirən Cimmi Uels Viki texnologiyası əsasında onlayn ensiklopediya yaradaraq onu Nupediya adlandırıblar.

2000-ci ilin martından fəaliyyətə başlayan Nupediya 2003-cü ilin sentyabrında fəaliyyətini dayandırıb. Nupediya ensiklopediyasının bazasında yaradılmış Vikipediya 2001-ci il yanvarın 15-də fəaliyyətə başlayıb. Azərbaycandilli vikipediya isə təxminən üç il sonra 2004-cü ildə yaranıb.

Nupediyadan fərqli olaraq, Vikipediyada məqalələr könüllü istifadəçilər tərəfindən yoxlanılır ki, bu da ensiklopediyanın daha da sürətlə zənginləşməsi və böyüməsinə səbəb olub. Vikipediya bu gün internet məkanında fəaliyyət göstərən yüz milyonlarla sayt sırasında istifadəçi və müraciətlərin sayına, informasiyanın həcminə görə ən yüksək reytinqə malikdir.

### Azərbaycandilli Vikipediyada 210 mindən çox məqalə yer alıb

Bu gün azərbaycandilli Vikipediya da qlobal bilik sisteminin ayrılmaz hissəsi kimi inkişafını davam etdirir. Mövzu ilə bağlı qəzetimizə məlumat verən AMEA-nın Mərkəzi Elmi Kitabxanasının baş mütəxəssisi, Vikipediyanın Azərbaycan dili bölməsinin istifadəçisi Xəyalə Məmmədlinin sözlərinə görə, dünya ölkələri, o cümlədən Azərbaycanla bağlı tarixi həqiqətlərin dünyaya çatdırılmasında mətbuat, sosial şəbəkələrlə yanaşı, Vikipediya elektron ensiklopediyasının rolu əvəzsizdir: "İnternet resurslarının inkişafı Azərbaycanda da bu sahədə peşəkar fəaliyyətin önə çıxmasını şərtləndirib. Bu gün 342 dildə fəaliyyət göstərən vikipediya onlayn ensiklopediyası arasında Azərbaycan dilli vikipediya özünəməxsus mövqeyini qoruyub saxlayır. Azərbaycandilli vikipediya dünya ölkələrinin vikipediyaları sırasında dərinlik baxımından 55-ci yerdə mövqeyini qoruyur. 329823 istifadəçisi olan azərbaycandilli Vikipediyada hal-hazırda 210 mindən çox məqalə yer alıb. Bu günə kimi edilən redaktələrin sayı isə 8420683-dür".

Baş mütəxəssis onu da bildirib ki, Vikipediyaya töhfə vermək istəyən istənilən şəxs istifadəçi profili açaraq var olan məqalələrə öz əlavələrini etməklə redaktə edə və yaxud da yeni məqalələr yarada bilər. Təbii ki, əlavə edilən məlumatlar sağlam mənbələrə, istinadlara əsaslanmalıdır və istinadı olmayan məqalə dolğun məqalə hesab edilmir. Belə məqalələr digər istifadəçilər tərəfindən genişləndirilə bilər. Uzun müddət heç bir əlavələr edilməyən, mənbəsi olmayan və ya zəif olan məqalələr müəyyən zamandan sonra Vikipediyadan silinir.

Məqalə yaratmaq istəyən istifadəçi ilk olaraq yaradacağı məqalənin ensiklopediklik meyarlarına uyğun gəldiyinə əmin olmalıdır. Xəyalə Məmmədli bildirib ki, bunun üçün Vikipediyanın "Ensiklopedik əhəmiyyətlilik" bəndini oxuyub, məlumat almaq lazımdır. Ensiklopedik əhəmiyyətlilik redaktorlar tərəfindən müəyyən bir mövzunun öz müstəqil məqaləsinin mövcud olmasına uyğun olub-olmamasına qərar vermək üçün istifadə edilən testdir.

"Vikipediyada məqalə yaratmaq üçün qeydiyyatdan keçmək mütləqdir. Bunun üçün Vikipediyanın Ana səhifəsində "Hesab yarat"a daxil olub, qeydiyyatdan keçmək lazımdır. Yaradılan məqalələrə saytda fəaliyyət göstərən adminlər tərəfindən nəzarət olunur. Vikipediya vandalizmlə də mübarizə aparan onlayn platformadır. Məqalələrin məzmununun qəsdən təhqir, söyüş, əhəmiyyətsiz məlumatlarla dəyişdirilməsi, silinməsi və ya tamamilə mənasız mətnlərin əlavə edilməsi qadağandır. Bu, Vikipediyadakı idarəçilər tərəfindən xüsusi diqqətdə saxlanılır və nəzarət edilir", - deyə baş mütəxəssis vurğulayıb.

### Süni intellekt dövründə Vikipediyanın əhəmiyyəti

Hazırda Vikipediya dünyada və ölkəmizdə ən çox daxil olunan saytlar sırasında öncüllüyünü qoruyub saxlayır. Xəyalə Məmmədli deyib ki, bu liderlikdə Vikipediyaya hər gün töhfələrini verən könüllülərin əməyi böyükdür və danılmazdır. Azərbaycandilli Vikipediya gündən-günə zənginləşir ki, bu da doğma dilimizdə olan məqalələrin əlçatanlılığını daha da asanlaşdırır. Azərbaycanda yeni istifadəçilərin Vikipediyaya cəlb edilməsi istiqamətində peşəkar və təcrübəli təlimçilər, istifadəçilər var və fəaliyyət göstərirlər. Bu gün Vikipediya rəqəmsal dövrün əsas bilik mənbəyi sayılsa da, ensiklopedik bitərəflilik və mənbələrin göstərilməsi prinsiplərinə sadiqlik hər zaman gözlənilir. Vikipediya və elm arasındakı münasibətlərə gəlincə müasir dövrdə biliyin yayılması baxımından Vikipediya strateji əhəmiyyət kəsb edir. Sayt elmi məlumatların populyarlaşdırılmasında bu gün ən böyük rəqəmsal platformadır. Vikipediyada qeyri-dəqiq məlumatlara tez-tez rast gəlinsə də, bu, aktiv istifadəçilər tərəfindən operativ şəkildə redaktə olunur.

"Zəngin məlumat mənbəyi olan azərbaycandilli Vikipediyada çatışmazlıqlar da az deyil. Bunu biz də bilirik. Məsələn, kimya və fizika kimi texniki sahələrdə məlumatlar azdır. Texniki məqalələrin terminoloji baxımdan mürəkkəb olması onların yalnız mütəxəssislər tərəfindən hazırlanmasını zəruri edir. Çünki hər hansı bir texniki səhv məqalənin məzmununu tamamilə dəyişə bilər. Humanitar sahədə isə belə problemlər, demək olar ki, yoxdur. Hər bir məlumatı öz dilimizdə rahat şəkildə tapa bilməyimiz üçün Azərbaycan dilini anlayan və bu dildə danışan hər bir mütəxəssisin Vikipediyaya töhfə verməsi vacibdir", - deyə Vikipediyanın Azərbaycan dili bölməsinin istifadəçisi qeyd edib.

Son dövrlər "ChatGPT" və buna bənzər tətbiqlərin geniş istifadəsi Vikipediyanın aktuallığını itirdiyi düşüncəsini yaratsa da, Xəyalə Məmmədli bunun doğru olmadığını bildirib. Onun sözlərinə görə, Vikipediyada insan faktoru və mənbə şəffaflığı əsasdır. Gələcəkdə də Vikipediya və süni intellekt bir-birini əvəz etməyəcək, əksinə, paralel şəkildə inkişaf edərək məlumat bazasının genişlənməsinə xidmət göstərəcəklər.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*



**Azercell abunəçilərinin nəzərinə!**

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 16.01.2026-cı il gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra xidmətlərdən tam normal əsaslarla istifadə edilməsi imkanı təmin ediləcəkdir.



**B İ L D İ R İ Ş**

"Baku Kids Company" Qapalı Səhmdar Cəmiyyəti təşkilati-hüquqi formasını dəyişərək "Baku Kids Company" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilməsini və səhmlərin dövriyyədən çıxarılmasını elan edir.


# Ticarət müharibələri qlobal güc balansını yenidən formalaşdıran alətə çevrilir

**Beynəlxalq münasibətlər sistemində ticarət müharibələri yalnız iqtisadi rəqabət aləti kimi çıxış etmir. Onlar getdikcə daha çox siyasi təsir mexanizminə çevrilir. Dövlətlər gömrük rüsumları, sanksiyalar, ixrac və idxal məhdudiyyətləri vasitəsilə rəqiblərinə təzyiq göstərir, müttəfiqlərini qorumağa və yeni siyasi mövqelər qazanmağa çalışırlar. ABŞ-Çin ticarət qarşıdurması, Rusiyaya qarşı tətbiq edilən genişmiqyaslı sanksiyalar və Avropa İttifaqının qoruyucu ticarət tədbirləri bu prosesin artıq qlobal xarakter aldığını açıq şəkildə göstərir.**




Ənənəvi yanaşmaya görə, ticarət müharibəsi dövlətlərin qarşılıqlı şəkildə gömrük rüsumlarını artırması və ticarət məhdudiyyətləri tətbiq etməsidir. Lakin müasir dövrdə bu anlayış sırf iqtisadi maraqlarla məhdudlaşmır. Ticarət müharibələri rəqib dövlətin siyasi qərarlarına təsir göstərmək, onun beynəlxalq nüfuzunu zəiflətmək, regional və qlobal güc balansını dəyişmək məqsədi daşıyır. Bu baxımdan iqtisadi təzyiq siyasi strategiyanın ayrılmaz hissəsinə çevrilib.

Bunun bariz nümunəsi ABŞ-Çin münasibətləridir. 2018-ci ildən yeni mərhələyə yüksələn ticarət müharibəsi beynəlxalq sistemə ciddi təsir göstərib. ABŞ administrasiyası Çin məhsullarına yüz milyardlarla dollar dəyərində əlavə rüsumlar tətbiq edib. Çin isə buna cavab olaraq analoji addımlar atıb. Bu qarşıdurma ticarət kəsirinin azaldılması ilə bağlı deyildi. Vaşinqtonun əsas məqsədi Çinin texnoloji və geosiyasi yüksəlişini ləngitmək, onu strateji sahələrdə məhdudlaşdırmaqdan ibarət olub. ABŞ müttəfiqlərindən Çin ilə texnoloji əməkdaşlığı azaltmağı tələb edir. Çin isə "Bir kəmər, bir yol" təşəbbüsü vasitəsilə alternativ iqtisadi-siyasi təsir zonasını genişləndirməyə çalışır. Nəticədə dünya tədricən iki böyük iqtisadi-siyasi blok arasında parçalanma meyli göstərməyə başladı və "yeni soyuq müharibə" anlayışı gündəmə gəldi.

Ticarət müharibələrinin siyasi mahiyyəti Rusiya-Ukrayna müharibəsindən sonra daha aydın şəkildə üzə çıxdı. Qərb dövlətlərinin Rusiyaya qarşı tətbiq etdiyi genişmiqyaslı sanksiyalar münasibətləri sistemli qarşıdurma mərhələsinə keçirdi. Rusiya Avropa bazarlarından sıxışdırıldıqca Asiya, Afrika və Yaxın Şərq ölkələri ilə yeni siyasi-iqtisadi tərəfdaşlıqlar qurmağa başladı. Enerji ticarəti açıq şəkildə siyasi alətə çevrildi, Avropa İttifaqında enerji təhlükəsizliyi prioritet məsələyə yüksəldi. Bu proses göstərdi ki, ticarət və iqtisadi məhdudiyyətlər dövlətlərin xarici siyasət istiqamətini dəyişdirmək gücünə malikdir.

Ticarət müharibələrinin artması beynəlxalq institutlara da mənfi təsir göstərir. Xüsusilə Ümumdünya Ticarət Təşkilatının (ÜTT) nüfuzu zəifləyir. Dövlətlər çoxtərəfli qaydalardan daha çox milli maraqlara əsaslanan birtərəfli siyasətə üstünlük verirlər. Bu isə beynəlxalq hüququn zəifləməsinə, güc siyasətinin ön plana çıxmasına, kiçik və inkişaf etməkdə olan ölkələrin daha həssas vəziyyətə düşməsinə səbəb olur.

Eyni zamanda ticarət müharibələri regional səviyyədə də ciddi siyasi nəticələr doğurur. Böyük güclər arasında yaranan iqtisadi qarşıdurmalar region ölkələrini seçim qarşısında qoyur. Asiya və Afrika ölkələri ABŞ-Çin rəqabəti fonunda hər iki tərəflə münasibətləri qorumağa çalışsa da artan təzyiqlər onların xarici siyasətdə manevr imkanlarını məhdudlaşdırır. Nəticədə asılılıq münasibətləri dərinləşir və regional sabitlik zəifləyir.

Ticarət müharibələrinin siyasi nəticələri dövlətlərin daxili siyasətində də özünü göstərir. İdxal məhdudiyyətləri və sanksiyalar inflyasiyanın artmasına, işsizlik riskinin yüksəlməsinə və sosial narazılıqlara yol aça bilər. Bu isə hakimiyyətlərin legitimliyinə və siyasi sabitliyinə təsir göstərir. Bir çox hallarda hökumətlər xarici iqtisadi təzyiqləri daxili auditoriya üçün siyasi alətə çevirir, "xarici təhlükə" obrazı formalaşdıraraq milli həmrəyliyi gücləndirməyə çalışırlar. Bu tendensiya populist yanaşmaların güclənməsi ilə müşayiət olunur.

Xüsusilə kiçik və açıq iqtisadiyyata malik dövlətlər üçün ticarət müharibələri daha böyük risklər yaradır. Bu ölkələr böyük güclərin qəbul etdiyi qərarlardan birbaşa təsirlənir, lakin proseslərə təsir imkanları məhdud olur. Belə şəraitdə kiçik dövlətlər üçün əsas siyasi çağırışlar iqtisadi asılılığın azaldılması, ticarət tərəfdaşlarının şaxələndirilməsi və regional əməkdaşlığın gücləndirilməsidir. Əks halda, ticarət müharibələri onları böyük güclərin siyasi təsir dairəsinə daha da yaxınlaşdırır.

Gələcəyə baxış isə birmənalı deyil. Mövcud beynəlxalq tendensiyalar göstərir ki, ticarət müharibələri yaxın perspektivdə aradan qalxmayacaq. Əksinə, texnologiya, enerji və strateji xammal uğrunda rəqabət bu qarşıdurmaları daha da dərinləşdirə bilər. Lakin dövlətlər anlayırlar ki, davamlı ticarət müharibələri qlobal iqtisadi artımı zəiflədir və siyasi riskləri artırır. Buna görə də beynəlxalq dialoq, qarşılıqlı güzəştlər və çoxtərəfli mexanizmlərin bərpası alternativ yol kimi gündəmdə qalır.

Ticarət müharibələri müasir beynəlxalq münasibətlərdə sadəcə, iqtisadi alət deyil, həm də siyasi silah funksiyası daşıyır. Onlar dövlətlər arasında etimadsızlığı artırır, yeni ittifaqlar və qarşıdurma xətləri formalaşdırır, qlobal sabitliyi zəiflədir. Bu proses beynəlxalq sistemin daha çox qütbləşmiş və qeyri-sabit mərhələyə daxil olduğunu göstərir və yəqin ki, hələ bir müddət dövlətlərin xarici siyasət strategiyalarında mühüm rol oynamağa davam edəcək.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Yağıntılar tədricən kəsiləcək

**Azərbaycanda yanvarın 15-nə gözlənilən hava proqnozu açıqlanıb.**



Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Günün birinci yarısında fasilələrlə yağıntılı olacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 1-3, gündüz 4-6 dərəcə isti olacaq. Atmosfer təzyiqi 767 millimetr civə sütunu, nisbi rütubət 65-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraitinin bəzi yerlərdə arabir yağıntılı olacağı, sulu qar, dağlıq və dağətəyi rayonlarda qar yağacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi ehtimalı var. Axşam yağıntılar tədricən kəsiləcək. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 4-8 dərəcə isti, dağlarda gecə 5-10, yüksək dağlıq ərazilərdə 11-16, gündüz 2-5 dərəcə şaxta olacaq.

Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərurda havanın bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Axşam tədricən kəsiləcək. Arabir duman müşahidə ediləcək Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 2-7 dərəcə şaxta, gündüz 2 dərəcə şaxtadan 2 dərəcəyədək isti təşkil edəcək.

Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy, Göygöldə havanın bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Arabir duman müşahidə ediləcək. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 5-10, gündüz 2-5 dərəcə şaxta olacağı bildirilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilanda havanın bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Arabir duman müşahidə ediləcək. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 2-6, dağlıq ərazilərdə 9-12 dərəcə şaxta, gündüz 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti olacaq.

Qazax, Gəncə, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz, Naftalanda hava əsasən yağmursuz keçəcək. Lakin bəzi dağlıq ərazilərdə arabir qar yağacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Arabir duman müşahidə ediləcək. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 0-5 dərəcə şaxta, gündüz 4-7 dərəcə isti müşahidə ediləcək.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusarda havanın bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Axşam qərb rayonlarında yağıntılar tədricən kəsiləcək. Arabir duman müşahidə ediləcək. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 1-6 dərəcə şaxta, gündüz 0-4 dərəcə isti, dağlarda gecə 7-12, yüksək dağlıq ərazilərdə 14-19, gündüz 3-6 dərəcə şaxta olacağı bildirilir.

Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Mingəçevir, Biləsuvar, Saatlı, Göyçay, Ucar, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçalada havanın bəzi yerlərdə arabir yağıntılı olacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə intensiv olacağı, sulu qara keçəcəyi ehtimalı var. Axşam qərb rayonlarında yağıntılar tədricən kəsiləcək. Arabir duman müşahidə ediləcək. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 4-8 dərəcə isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabadda havanın bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı ehtimalı var. Arabir duman müşahidə ediləcək. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 0-3 dərəcə, gündüz 3-6 dərəcə isti, dağlarda gecə 2-5, gündüz 0-2 dərəcə şaxta müşahidə ediləcək.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3174**
**Sifariş 62**

**Qiyməti 60 qəpik**